**“Kapital Bank” ASC**
**Maliyyə Hesabatları**

*31 dekabr 2009-cu il-cu il tarixində başa çatan il*
*Müstəqil Auditorların Hesabatı ilə birlikdə*

# MÜNDƏRİCAT

Müstəqil auditorların hesabatı ........ 1

Maliyyə vəziyyəti haqqında hesabat ........ 2
Maliyyə nəticələri haqqında hesabat ........ 3
Ümumi gəlir haqqında hesabat ........ 4
Kapitalda dəyişikliklər haqqında hesabat ........ 5
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ........ 6

**Maliyyə Hesabatlari Ilə Bağli Qeydlər**

1. Əsas fəaliyyət ........ 7
2. Hesabatların tərtibatının əsası ........ 7
3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı ........ 12
4. Mühüm mühasibat uçotu mühakimələri və proqnozları ........ 23
5. Seqment haqqında məlumat ........ 25
6. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri ........ 26
7. Maliyyə təşkilatlarından alınacaq məbləğlər ........ 26
8. Müştərilərə verilmiş kreditlər ........ 27
9. Satış üçün mövcud oıan investisiya qiymətli kağızları ........ 29
10. Assosiasiya olunmuş müəssisəyə investisiyalar ........ 30
11. Əmlak və avadanlıqlar ........ 31
12. Qeyri-maddi aktivlər ........ 32
13. Vergilər ........ 32
14. Digər dəyərsizləşmə və ehtiyatlar ........ 34
15. Digər aktivlər və öhdəliklər ........ 34
16. Müştərilər qarşısında öhdəliklər ........ 35
17. Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər ........ 36
18. Kapital ........ 37
19. Təəhhüdlər və potensial öhdəliklər ........ 38
20. Xalis haqq və komissiya gəliri ........ 40
21. İşçilər üzrə xərclər və digər əməliyyat xərcləri ........ 40
22. Risklərin idarə edilməsi ........ 41
23. Maliyyə alətlərinin ədalətli dəyəri ........ 51
24. Aktivlərin və öhdəliklərin ödəmə müddətlərinin təhlili ........ 52
25. Əlaqəli tərəflərə dair açıqlamalar ........ 53
26. Kapitalın adekvatlığı ........ 54
27. Hesabat tarixindən sonrakı hadisələr ........ 54

Ernst & Young
Ernst & Young Holdings (CIS) B.V.
Hyatt International Center
Hyatt Tower III, 1st Floor
Izmir Street, 1033
Baku, AZ1065, Azerbaijan
Tel: +994 (12) 490 7020
Fax: +994 (12) 490 7017
www.ey.com/Azerbaijan

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Hyatt Internəşnl Senter
Hyatt Tauer III, 1-ci Mərtəbə
İzmir küçəsi, 1033
Bakı, AZ1065, Azərbaycan
Tel: +994 (12) 490 7020
Faks: +994 (12) 490 7017

# Müstəqil auditorların hesabatı

**"Kapital Bank" ASC-nin səhmdarlarına və İdarə Heyətinə:**

Biz "Kapital Bank" ASC-nin 31 dekabr 2009-cu il-cu il tarixinə maliyyə vəziyyəti haqqında hesabatından və bu tarixdə başa çatan il üçün maliyyə nəticələri, ümumi gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsipləri və digər izahedici qeydlərin icmalından ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

***Maliyyə hesabatları üçün rəhbərliyin məsuliyyəti***

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanması və təqdim edilməsinə görə məsuliyyət daşıyır. Rəhbərliyin məsuliyyətinə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitdə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

***Auditorların məsuliyyəti***

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi beynəlxalq audit standartlarına uyğun olaraq aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mühakiməsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsindən asılıdır. Bu risklər qiymətləndirilərkən auditorlar müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisənin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürlər. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin münasibliyinin və rəhbərlik tərəfindən edilmiş ehtimalların məntiqiliyinin qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Rəy***

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2009-cu il-cu il tarixinə "Kapital Bank" ASC-nin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

Ernst & Young Holdings (CIS) B.V.

25 May 2010-cu il

# MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

**31 dekabr 2009-cu il tarixinə**

*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2009-cu il | 2008-ci il (Yenidən hesablanmış) | 2007-ci il (Yenidən hesablanmış) |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 6 | 104,768 | 113,370 | 75,353 |
| Maliyyə təşkilatlarından alınacaq məbləğlər | 7 | 8,635 | 11,968 | 13,588 |
| Müştərilərə verilmiş kreditlər | 8 | 317,277 | 362,958 | 106,831 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları | 9 | 310 | 185 | 185 |
| Assosiasiya olunmuş müəssisələrə investisiyalar | 10 | 1,360 | 1,464 | 1,557 |
| Əmlak və avadanlıqlar | 11 | 76,503 | 78,721 | 75,507 |
| Qeyri-maddi aktivlər | 12 | 2,841 | 1,661 | 1,708 |
| Digər aktivlər | 15 | 4,846 | 15,200 | 23,906 |
| **Cəmi aktivlər** | | **516,540** | **585,527** | **298,635** |
| **Öhdəliklər** | | | | |
| Müştərilər qarşısında öhdəliklər | 16 | 177,293 | 188,768 | 130,432 |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | 17 | 248,405 | 298,613 | 74,901 |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 13 | 7,846 | 8,599 | 8,038 |
| Ehtiyatlar | 14 | 552 | - | - |
| Digər öhdəliklər | 15 | 5,177 | 5,630 | 5,493 |
| **Cəmi öhdəliklər** | | **439,273** | **501,610** | **218,864** |
| **Kapital** | 18 | | | |
| Səhmdar kapitalı | | 24,000 | 24,000 | 24,000 |
| Əlavə ödənilmiş kapital | | 20,870 | 20,870 | 20,870 |
| Binalar üçün yenidən qiymətləndirmə ehtiyatı | | 25,357 | 24,923 | 26,248 |
| Bölüşdürülməmiş mənfəət | | 7,040 | 14,124 | 8,653 |
| **Cəmi kapital** | | **77,267** | **83,917** | **79,771** |
| **Cəmi öhdəliklər və kapital** | | **516,540** | **585,527** | **298,635** |

**Maliyyə hesabatlarını Bankın İdarə Heyəti adından imzalayan və buraxılmasına icazə verənlər:**

Elmar Məmmədov İdarə Heyətinin Sədri

Məhyəddin Məmmədov Maliyyə Menecmenti Departamentinin Direktoru

AZƏRBAYCAN RESPUBLİKASI Açıq Səhmdar Cəmiyyəti KAPİTAL BANK Open Joint-Stock Company AZERBAIJAN REPUBLIC

25 May 2010-cu il

*7-54 səhifələrdə əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

# MALIYYƏ NƏTİCƏLƏRİ HAQQINDA HESABAT

**31 dekabr 2009-cu il tarixində başa çatan il üzrə**

*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2009-cu il | 2008-ci il (yenidən hesablanmış) |
|---|---|---|---|
| **Faiz gəliri** | | | |
| Müştərilərə verilmiş kreditlər | | 34,562 | 30,141 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 374 | 670 |
| İnvestisiya qiymətli kağızları | | 57 | - |
| | | **34,993** | **30,811** |
| **Faiz xərci** | | | |
| Müştərilər qarşısında öhdəliklər | | (10,754) | (8,883) |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | | (4,683) | (7,230) |
| | | **(15,437)** | **(16,113)** |
| **Müştərilərə verilmiş kreditlər üzrə dəyərsizləşmə xərcindən əvvəl xalis faiz gəliri** | | **19,556** | **14,698** |
| Müştərilərə verilmiş kreditlər üzrə dəyərsizləşmə xərci | 8 | (19,448) | (5,391) |
| **Müştərilərə verilmiş kreditlər üzrə dəyərsizləşmə xərcindən sonra xalis faiz gəliri** | | **108** | **9,307** |
| Haqq və komissiya gəliri | | 33,136 | 35,098 |
| Haqq və komissiya xərcləri | | (3,700) | (7,340) |
| **Xalis haqq və komissiya gəliri** | 20 | **29,436** | **27,758** |
| Xarici valyutadan xalis gəlirlər: | | | |
| - dilinq əməliyyatları üzrə | | 2,536 | 1,619 |
| - yenidən qiymətləndirmə üzrə | | 205 | 73 |
| Dividend gəliri | | 63 | 238 |
| Digər əməliyyat gəlirləri | | 62 | 34 |
| **Digər qeyri-faiz gəliri** | | **2,866** | **1,964** |
| İşçilər üzrə xərclər | 21 | (19,288) | (15,255) |
| Köhnəlmə və amortizasiya | 11, 12 | (9,371) | (7,990) |
| Naxçıvan Sosial İnkişaf Fonduna ödəniş | | (950) | (1,464) |
| Assosiasiya olunmuş müəssisənin zərərində pay | 10 | (104) | (93) |
| Digər əməliyyat xərcləri | 21 | (9,981) | (8,955) |
| Digər dəyərsizləşmə və ehtiyat | 14 | (1,506) | - |
| **Digər qeyri-faiz xərcləri** | | **(41,200)** | **(33,757)** |
| **Mənfəət vergisindən əvvəl (zərər) mənfəət** | | **(8,790)** | **5,272** |
| Mənfəət vergisi gəliri (xərci) | 13 | 343 | (1,126) |
| **İl üzrə xalis (zərər) mənfəət** | | **(8,447)** | **4,146** |
| **Bir səhm üzrə (zərər) mənfəət:** | | | |
| - Səhm üzrə əsas (zərər) mənfəət | | **(3.52)** | **1.73** |
| - Səhm üzrə azaldılmış (zərər) mənfəət | | **(3.52)** | **1.73** |

*7-54 səhifələrdə əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

# ÜMUMİ GƏLİR HAQQINDA HESABAT

## 31 dekabr 2009-cu il tarixində başa çatan il üzrə

*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2009-cu il | 2008-ci il (Yenidən hesablanmış) |
|---|---|---|---|
| **İl üzrə (zərər) mənfəət** | | (8,447) | 4,146 |
| **Digər ümumi gəlir** | | | |
| Binaların yenidən qiymətləndirilməsi | 11 | 1,387 | - |
| Binaların yenidən qiymətləndirilməsi ilə bağlı mənfəət vergisi | 13 | 410 | - |
| İl üzrə digər ümumi gəlir, vergidən sonra | | **1,797** | **-** |
| **İl üzrə cəmi ümumi (zərər) gəlir** | | **(6,650)** | **4,146** |

*7-54 səhifələrdə əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

# KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

## 31 dekabr 2009-cu il tarixində başa çatan il üzrə

*(min Azərbaycan manatı ilə)*

| | *Səhmdar kapitalı* | *Əlavə ödənilmiş kapital* | *Binalar üçün yenidən qiymətləndirmə ehtiyatı* | *Bölüşdürülməmiş mənfəət* | *Cəmi kapital* |
|---|---|---|---|---|---|
| **31 dekabr 2007-ci il (əvvəl göstərildiyi kimi)** | **24,000** | **20,870** | **16,954** | **8,653** | **70,477** |
| Yenidən hesablamanın təsiri (Qeyd 2) | - | - | 9,294 | - | 9,294 |
| **31 dekabr 2007-ci il (yenidən hesablanmış)** | **24,000** | **20,870** | **26,248** | **8,653** | **79,771** |
| İl üzrə cəmi ümumi gəlir (yenidən hesablanmış) | - | - | - | 4,146 | 4,146 |
| Yenidən qiymətləndirmə ehtiyatı üzrə köhnəlmə, vergidən sonra | - | - | (1,325) | 1,325 | - |
| **31 dekabr 2008-ci il (yenidən hesablanmış)** | **24,000** | **20,870** | **24,923** | **14,124** | **83,917** |
| İl üzrə cəmi ümumi gəlir (zərər) | - | - | 1,797 | (8,447) | (6,650) |
| Yenidən qiymətləndirmə ehtiyatının köhnəlməsi, vergidən sonra | - | - | (1,363) | 1,363 | - |
| **31 dekabr 2009-cu il** | **24,000** | **20,870** | **25,357** | **7,040** | **77,267** |

*7-54 səhifələrdə əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

# PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

## 31 dekabr 2009-cu il tarixində başa çatan il üzrə

*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2009 | 2008 (yenidən hesablanmış) |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin hərəkəti** | | | |
| Alınmış faiz | | 24,589 | 30,410 |
| Ödənilmiş faiz | | (14,063) | (13,654) |
| Alınmış haqq və komissiyalar | | 33,042 | 32,716 |
| Ödənilmiş haqq və komissiyalar | | (3,700) | (7,581) |
| Xarici valyuta ilə dilinq əməliyyatlarından əldə olunan realizasiya olunmuş xalis gəlir | | 2,536 | 1,619 |
| Alınmış digər əməliyyat gəliri | | 125 | 269 |
| İşçilər üzrə ödənilmiş xərclər | | (19,288) | (15,255) |
| Ödənilmiş digər əməliyyat xərcləri | | (10,282) | (10,788) |
| **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə daxil olan pul vəsaitlərinin hərəkəti** | | **12,959** | **17,736** |
| *Əməliyyat aktivlərində xalis (artım)/azalma* | | | |
| Kredit təşkilatlarından alınacaq məbləğlər | | 3,395 | 1,620 |
| Müştərilərə verilmiş kreditlər | | 36,649 | (256,127) |
| Digər aktivlər | | 9,497 | (816) |
| *Əməliyyat öhdəliklərində xalis (artım)/azalma* | | | |
| Müştərilər qarşısında öhdəliklər | | (12,347) | 45,561 |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | | (50,607) | 223,689 |
| Digər öhdəliklər | | (1,058) | 18,001 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə (istifadə edilən) əldə edilən xalis pul vəsaitləri** | | **(1,512)** | **49,664** |
| Ödənilmiş mənfəət vergisi | | - | (563) |
| **Əməliyyat fəaliyyətindən (istifadə edilən) əldə edilən xalis pul vəsaitləri** | | **(1,512)** | **49,101** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızlarının alınması | | (125) | - |
| Əmlak və avadanlıqların alınması | | (5,661) | (11,017) |
| Qeyri-maddi aktivlərin alınması | | (1,383) | (140) |
| Əmlak və avadanlıqların satılmasından gəlirlər | | 53 | - |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(7,116)** | **(11,157)** |
| Pul vəsaitləri və pul vəsaitləri ekvivalentlərinə valyuta məzənnələrinin dəyişməsinin təsir | | 26 | 73 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma) artma** | | **(8,602)** | **38,017** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin əvvəlinə** | 6 | **113,370** | **75,353** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin sonuna** | 6 | **104,768** | **113,370** |

*7-54 səhifələrdə əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

# 2009-cu ilin maliyyə hesabatlarına qeydlər

*(Min Azərbaycan manatı ilə)*

## 1. Əsas fəaliyyət

"Kapital Bank" ASC ("Bank") 2000-ci ilin Fevral ayından etibarən Azərbaycan Respublikasının Mərkəzi Bankının ("ARMB") bank lisenziyası əsasında fəaliyyət göstərən açıq tipli səhmdar-kommersiya bankıdır.

Bankın əsas işgüzar fəaliyyəti korporativ və pərakəndə bank xidmətlərinin göstərilməsidir. Bunlara sərbəst konvertasiya edilən valyutalar və Azərbaycan manatı ("AZN") ilə əmanətlərin alınması və kommersiya kreditlərinin verilməsi, Azərbaycanın daxilində və xaricə pul köçürmələri, müştərilərin ixrac və idxal əməliyyatlarının dəstəklənməsi, xarici valyutanın mübadilə edilməsi və kommersiya və fiziki şəxs müştərilərə digər bank xidmətlərinin göstərilməsi daxildir. Bank Azərbaycan Respublikasındakı bank fəaliyyətini 1 baş ofis (2008-ci il: 1), 1 baş idarə (2008-ci il: 1) və 89 filial (2008-ci il: 89) vasitəsi ilə həyata keçirir.

Bank 29 dekabr 2006-cı il tarixli "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan əmanətlərin sığortalanması üzrə dövlət proqramında iştirak edir. Dövlət Əmanətlərin Sığortalanması Fondu hər bir əmanət üzrə aşağıdakı qaydada 100% kompensasiya ödənilməsinə zəmanət verir:

- 1 yanvar 2008-ci ildən 1 yanvar 2010-cu ilədək – 6 AZN-ə qədər;
- 1 yanvar 2010-cu ildən sonra – 8 AZN-ə qədər.

31 dekabr 2009-cu il tarixinə Bankın işçilərinin sayı 2,344 (2008-ci il: 2,197) təşkil edir.

Bankın rəsmi ünvanı belədir: Azərbaycan, Bakı, AZ1014, Füzuli küçəsi, 71.

31 dekabr 2009-cu il və 2008-ci il tarixlərinə Bankın mövcud səhmlərinə aşağıdakı səhmdarlar sahib olmuşlar:

| **Səhmdar** | ***31 dekabr 2009-cu il, (%)*** | ***31 dekabr 2008-ci il, (%) (Yenidən hesablanmış)*** |
|---|---|---|
| Pasha Holding Ltd. | 97.5% | 42.5% |
| Bankın əmək kollektivi | 2.5% | 2.5% |
| Ata Holding ASC | - | 35.0% |
| Azersun Holding Ltd. | - | 15.0% |
| Digər şəxslər | - | 5.0% |
| **Cəmi** | **100.0%** | **100.0%** |

Bankın əsas səhmdarı, Paşa Holding, 31 dekabr 2009-cu il tarixinə buraxılmış və mövcud olan səhmlərin 97.5%-nə (2008-ci il: 42.5%) sahibdir və Bankın Müşahidə və İdarəetmə Şurasının direktorlarını təyin edir.

Banka ümumi nəzarəti cənab Arif Paşayev həyata keçirir.

31 dekabr 2009-cu il tarixinə Bankın Müşahidə Şurasına Pasha Holding Ltd-nin Baş hüquq məsləhətçisi rəhbərlik edirdi.

## 2. Hesabatların tərtibatının əsası

### Ümumi məsələlər

Hazırkı maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmışdır.

Azərbaycan manatı Bankın funksional və təqdimat valyutasıdır, çünki əməliyyatların əksəriyyəti Azərbaycan manatı ilə ifadə edilir, ölçülür və ya maliyyələşdirilir. Digər valyutalarla aparılmış əməliyyatlar xarici valyuta ilə əməliyyatlar kimi uçota alınır.

Bank qeydlərin aparılmasını və maliyyə hesabatlarının hazırlanmasını Azərbaycan manatı ilə və MHBS-na uyğun olaraq həyata keçirməlidir.

Hazırkı maliyyə hesabatları, bir səhmin dəyəri və xüsusi olaraq qeyd edilmiş hallar istisna olmaqla, min Azərbaycan manatı ("AZN") ilə təqdim edilir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 2. Hesabatların tərtibatının əsası (davamı)

**Ümumi məsələlər (davamı)**

Ədalətli dəyərlə ölçülmüş binalar və satış üçün mövcud olan investisiya qiymətli kağızları istisna olmaqla, maliyyə hesabatları ilkin maya dəyəri əsasında hazırlanmışdır.

**Yenidən hesablamalar və yenidən təsnif etmələr**

Bankın 2009-cu il üzrə maliyyə hesabatları hazırlanarkən, onun əvvəl təqdim edilmiş 2008-ci il və 2007-ci il üzrə maliyyə hesabatlarında aşağıda təsvir olunan məsələlərlə bağlı səhvlər müəyyən olunmuşdur. Bank bu səhvləri 31 dekabr 2008-ci il and 2007-ci il tarixlərinə və bu tarixlərdə başa çatan illər üzrə müqayisəli məlumatı yenidən hesablamaqla düzəltmişdir.

Aşağıdakı səhvlər müəyyən olunmuşdur:

- 2008-ci ildə, əvvəl ödənilmiş dividend kimi tanınmış və sonra 2008-ci ildə bölüşdürülməmiş mənfəətin azalması kimi təqdim olunmuş 1,464 AZN məbləğində Naxçıvan Sosial İnkişaf Fonduna ("NSİF") kapital qoyuluşu xərc kimi tanınmalı idi. Bu qoyuluş Bankın mülkiyyətçiləri ilə, onların mülkiyyətçi qismində, əməliyyatları təmsil etmir və buna görə də öz xüsusiyyətinə görə məsrəfdir və 2008-ci il üzrə maliyyə nəticələri haqqında hesabatda əks etdirilməlidir. Bu səhvin nəticəsində 31 dekabr 2008-ci il tarixində başa çatan dövr üzrə xərclər 1,464 AZN az göstərilmişdir.
- 23 fevral 2007-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən Azərbaycan Respublikasının müxtəlif rayonlarında yerləşən 20,070 AZN məbləğində əlli beş (55) bina Əlavə ödənilmiş kapital kimi Banka qoyulmuş və qoyuluş edildiyi tarixdə ədalətli dəyərlə tanınmışdır. Bu binalarla əlaqədar olaraq Əlavə ödənilmiş kapital 2008-ci ildə səhv olaraq 1,003 AZN məbləğində illik köhnəlmə məbləğində azaldılmışdır. Bu səhvin nəticəsində 31 dekabr 2008-ci il tarixinə Əlavə ödənilmiş kapital 1,003 AZN az, bölüşdürülməmiş mənfəət isə həmin məbləğdə artıq göstərilmişdir.
- Yenidən qiymətləndirilmiş dəyərlə uçota alınan binalar istisna olmaqla, Bank Əmlak və avadanlıqlarını maya dəyəri ilə uçota alır. 31 dekabr 2007-ci il tarixinə aparılmış binaların qiymətləndirilməsi Bankın müəyyən binalarını əhatə etməmişdir. 2009-cu ildə Bank bütün binalarının yenidən qiymətləndirilməsi məqsədilə müstəqil qiymətləndiriciyə müraciət etmişdir. Qiymətləndirmənin nəticələrinə əsasən müəyyən edilmişdir ki, 31 dekabr 2007-ci il tarixinə binaların xalis balans dəyəri 11,916 AZN az göstərilmiş və Yenidən qiymətləndirmə ehtiyatı və Təxirə salınmış mənfəət vergisi öhdəliyi, müvafiq olaraq, 9,294 AZN və 2,622 AZN az göstərilmişdir.

  Nəticədə, 31 dekabr 2008-ci il tarixinə binaların xalis balans dəyərinin 11,119 AZN az göstərilməsi müəyyən edilmiş, həmin tarixdə başa çatan ildə köhnəlmə xərci hər biri 797 AZN az göstərilmiş, Binalar üçün yenidən qiymətləndirmə ehtiyatı və təxirə salınmış mənfəət vergisi öhdəliyi, müvafiq olaraq, 8,829 AZN və 2,446 AZN az göstərilmiş, 31 dekabr 2008-ci il tarixində başa çatan il üzrə mənfəət vergisi xərci 175 AZN artıq göstərilmiş, Bölüşdürülməmiş mənfəət isə 157AZN artıq göstərilmişdir
- Əvvəlki illərdə Bank plastik kartlarla hesablaşmaları hesablama əsasında uçota almışdır. Dövlət Sosial Fondu ("DSF"), Qaçqınların və məcburi köçkünlərin işləri üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi üzrə debitor borcları və müvafiq təxirə salınmış gəlir tanınmışdır, halbuki müvafiq xidmətin yerinə yetirilməsi üçün ödəniş və ya hüquqi öhdəlik almaq üçün qanuni hüquq əldə edilməmişdir. Bu səhvə görə, Digər aktivlər və Digər öhdəliklər 31 dekabr 2007-ci il tarixinə 13,477 AZN və 31 dekabr 2008-ci il tarixinə 8,164 AZN artıq göstərilmişdir.
- Açıqlamanın düzəldilməsi: 31 dekabr 2008-ci il tarixinə əvvəl buraxılmış maliyyə hesabatlarında Bankın səhmdarları haqqında açıqlamalar aşağıdakı kimi düzəldilmişdir:

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 2. Hesabatların tərtibatının əsası (davamı)

**Yenidən hesablamalar və yenidən təsnif etmələr (davamı)**

| Səhmdar | *31 dekabr 2008-ci il, (%) Əvvəl hesabat verildiyi kimi)* | *31 dekabr 2008-ci il, (%) (Yenidən hesablanmış)* |
|---|---|---|
| Pasha Holding Ltd. | 97.5% | 42.5% |
| Bankın əmək kollektivi | 2.5% | 2.5% |
| Ata Holding ASC | - | 35.0% |
| Azersun Holding Ltd. | - | 15.0% |
| Digər şəxslər | - | 5.0% |
| **Cəmi** | **100.0%** | **100.0%** |

2009-cu ilin təqdimatına uyğunlaşmaq məqsədilə 2008-ci ilin və 2007-ci ilin qalıqlarında aşağıdakı yenidən təsnif etmələr aparılmışdır:

- ARMB-dakı məcburi ehtiyatların Azərbaycan Respublikasının Mərkəzi Bankında Məcburi ehtiyatlar qalıqlarından Kredit təşkilatlarından alınacaq məbləğlərə yenidən təsnif edilməsi;
- Bloklaşdırılmış məbləğlərin digər aktivlərdən kredit təşkilatlarından alınacaq məbləğlərə yenidən təsnif edilməsi;
- İnvestisiya əmlakının digər aktivlərə yenidən təsnif edilməsi;
- Qeyri-maddi aktivlərin Bina, avadanlıq və qeyri-maddi aktivlərdən Qeyri-maddi aktivlərə yenidən təsnif edilməsi;
- Digər maliyyə aktivləri və digər maliyyə öhdəliklərinin, müvafiq olaraq, digər aktivlər və digər öhdəliklərə yenidən təsnif edilməsi;
- Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitlərinin və digər banklara ödəniləcək vəsaitlərin Kredit təşkilatlarına və Dövlət orqanlarına ödəniləcək vəsaitlərə yenidən təsnif edilməsi;
- Dövlət müəssisələrinin cari hesabları və əmanətlərinin müştərilərə ödəniləcək məbləğlərdən kredit təşkilatlarına və dövlət orqanlarına ödəniləcək məbləğlərə yenidən təsnif edilməsi;
- Maliyyə lizinqi üzrə öhdəlikərin Digər öhdəliklərə yenidən təsnif edilməsi;
- Səhm mükafatının və Səhmdarlar tərəfindən əlavə kapital qoyuluşunun Əlavə ödənilmiş kapitala yenidən təsnif edilməsi;

Əvvəlki dövrün yenidən hesablamalarını və əvvəlki dövrə aid olan yenidən təsnif etmələri nəzərə almaqla, 31 dekabr 2007-ci il tarixinə (ən erkən müqayisəli dövr) maliyyə vəziyyəti haqqında hesabat 1 saylı MUBS "Maliyyə Hesabatlarının təqdim edilməsi" (Yenidən baxılmış) tərəfindən tələb edildiyi kimi təqdim olunmuşdur.

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 2. Hesabatların tərtibatının əsası (davamı)

### Yenidən hesablamalar və yenidən təsnif etmələr (davamı)

31 dekabr 2008-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabata yenidən hesablamaların və yenidən təsnif etmələrin təsiri aşağıdakı cədvəldə təqdim edilir:

| | *Əvvəl hesabat verildiyi kimi* | *Yenidən təsnif etmənin təsiri* | *Yenidən təsnif edilmiş* | *Yenidən hesablamanın təsiri* | *Yenidən hesablanmış* |
|---|---|---|---|---|---|
| **Maliyyə vəziyyəti haqqında hesabat** | | | | | |
| Azərbaycan Respublikasının Mərkəzi Bankında məcburi ehtiyatlarin qalıqları | 11,160 | (11,160) | - | - | - |
| Maliyyə təşkilatlarından alınacaq məbləğlər | - | 11,968 | 11,968 | - | 11,968 |
| İnvestisiya əmlakı | 11 | (11) | - | - | - |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 69,263 | (69,263) | - | - | - |
| Əmlak və avadanlıqlar | - | 67,602 | 67,602 | 11,119 | 78,721 |
| Qeyri-maddi aktivlər | - | 1,661 | 1,661 | - | 1,661 |
| Digər maliyyə aktivləri | 18,279 | (18,279) | - | - | - |
| Digər aktivlər | 5,882 | 17,482 | 23,364 | (8,164) | 15,200 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 252,403 | (252,403) | - | - | - |
| Digər banklara ödəniləcək vəsaitlər | 1,703 | (1,703) | - | - | - |
| Müştərilər qarşısında öhdəliklər | 233,276 | (44,508) | 188,768 | - | 188,768 |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | - | 298,613 | 298,613 | - | 298,613 |
| Maliyyə lizinqi üzrə öhdəliklər | 637 | (637) | - | - | - |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 6,153 | - | 6,153 | 2,446 | 8,599 |
| Digər maliyyə öhdəlikləri | 1,240 | (1,240) | - | - | - |
| Digər öhdəliklər | 11,916 | 1,878 | 13,794 | (8,164) | 5,630 |
| Səhm mükafatı | 800 | (800) | - | - | - |
| Səhmdarlar tərəfindən əlavə kapital qoyuluşu | 19,067 | (19,067) | - | - | - |
| Əlavə ödənilmiş kapital | - | 19,867 | 19,867 | 1,003 | 20,870 |
| Binalar üçün yenidən qiymətləndirmə ehtiyatı | 16,094 | - | 16,094 | 8,829 | 24,923 |
| Bölüşdürülməmiş mənfəət | 15,284 | - | 15,284 | (1,160) | 14,124 |
| **Maliyyə nəticələri haqqında hesabat** | | | | | |
| Köhnəlmə xərci | 7,193 | - | 7,193 | 797 | 7,990 |
| NSMF-na kapital qoyuluşu | - | - | - | 1,464 | 1,464 |
| Mənfəət vergisi xərci | 1,301 | - | 1,301 | (175) | 1,126 |
| İl üzrə mənfəət | 6,250 | - | 6,250 | (2,086) | 4,146 |

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 2. Hesabatların tərtibatının əsası (davamı)

### Yenidən hesablamalar və yenidən təsnif etmələr (davamı)

Əvvəlki dövrün maliyyə vəziyyəti haqqinda hesabatında yenidən hesablamalarını və əvvəlki dövrə aid olan yenidən təsnif etmələri nəzərə almaqla, 31 dekabr 2007-ci il tarixinə təsiri aşağıdakı cədvəldə göstərilib:

| | *Əvvəl hesabat verildiyi kimi* | *Yenidən təsnif etmənin təsiri* | *Yenidən təsnif edilmiş* | *Yenidən hesablamanın təsiri* | *Yenidən hesablanmış* |
|---|---|---|---|---|---|
| Azərbaycan Respublikasının Mərkəzi Bankında məcburi ehtiyatlarin qalıqları | 13,213 | (13,213) | - | - | - |
| Maliyyə təşkilatlarından alınacaq məbləğlər | - | 13,588 | 13,588 | | 13,588 |
| İnvestisiya əmlakı | 210 | (210) | - | - | - |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 65,299 | (65,299) | - | - | - |
| Əmlak və avadanlıqlar | - | 63,591 | 63,591 | 11,916 | 75,507 |
| Qeyri-maddi aktivlər | - | 1,708 | 1,708 | - | 1,708 |
| Digər maliyyə aktivləri | 29,538 | (29,538) | - | - | - |
| Digər aktivlər | 8,010 | 29,373 | 37,383 | (13,477) | 23,906 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 22,799 | (22,799) | - | - | - |
| Digər banklara ödəniləcək vəsaitlər | 11,794 | (11,794) | - | - | - |
| Müştərilər qarşısında öhdəliklər | 170,740 | (40,308) | 130,432 | - | 130,432 |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | - | 74,901 | 74,901 | - | 74,901 |
| Maliyyə lizinqi üzrə öhdəliklər | 1,749 | (1,749) | - | - | - |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 5,416 | - | 5,416 | 2,622 | 8,038 |
| Digər maliyyə öhdəlikləri | 5,821 | (5,821) | - | - | - |
| Digər öhdəliklər | 11,400 | 7,570 | 18,970 | (13,477) | 5,493 |
| Səhm mükafatı | 800 | (800) | - | - | - |
| Səhmdarlar tərəfindən əlavə kapital qoyuluşu | 20,070 | (20,070) | - | - | - |
| Əlavə ödənilmiş kapital | - | 20,870 | 20,870 | - | 20,870 |
| Binalar üçün yenidən qiymətləndirmə ehtiyatı | 16,954 | - | 16,954 | 9,294 | 26,248 |

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı

**Mühasibat uçotu prinsiplərində dəyişikliklər**

İl ərzində Bank aşağıdakı düzəlişlər edilmiş MHBS və Beynəlxalq Maliyyə Hesabatlarının Şərhi Komitəsinin ("BMHŞK") yeni Şərhlərini qəbul etmişdir. Bu dəyişikliklərin əsas təsiri aşağıdakı kimi olmuşdur:

*MHBS-nın təkmilləşdirilməsi*
2008-ci ilin may ayında Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası ("MUBSŞ"), illik təkmilləşdirmə layihəsinin nəticəsi olaraq, MHBS-na düzəlişlər buraxmışdır. Bunlar təqdimat, tanıma və ya ölçmə məqsədləri ilə mühasibat uçotunda dəyişikliklərin aparılması ilə nəticələnən düzəlişlərdən, eləcə də bir sıra MHBS standartları ilə bağlı terminoloji və ya redaktə düzəlişlərindən ibarət idi. Düzəlişlərin əksəriyyəti 1 yanvar 2009-cu il tarixində və ya bundan sonra başlayan dövrlərə tətbiq edilir, lakin bunların daha əvvəlki dövrlərə də tətbiq edilməsinə yol verilir. 2008-ci ilin may ayında "MHBS-nın təkmilləşdirilməsinə daxil edilmiş düzəlişlər Bankın mühasibat uçotu qaydalarına, maliyyə vəziyyətinə və ya fəaliyyət nəticələrinə heç bir təsir göstərməmişdir.

*1 saylı MUBS "Maliyyə Hesabatlarının təqdim edilməsi" (Düzəliş)*
Yenidən baxılmış bu Standart 2007-ci ilin sentyabr ayında buraxılmış və 1 yanvar 2009-cu il tarixində və bu tarixdən sonrakı illik dövrlər üçün qüvvəyə minir. Düzəliş edilmiş bu Standart səhmdarların payında təsisçi və qeyri-təsisçi dəyişikliklərini ayırır. Səhmdarların payında dəyişikliklər haqqında hesabata yalnız təsisçilərlə əməliyyatların təfərrüatları daxil ediləcək, qeyri-təsisçilərlə bağlı kapitalda dəyişikliklər isə ayrıca sətirdə təqdim ediləcəkdir. Bundan əlavə, Standart məcmu gəlir haqqında hesabatı təqdim edir: bu hesabat mənfəət və ya zərərdə tanınmış bütün maddələri ya ayrıca bir hesabatda, ya da iki əlaqəli hesabatda təqdim edir. Yenidən baxılmış standart həmçinin ümumi gəlirin hər bir komponentinin vergi nəticəsinin açıqlanmasını tələb edir. Bundan əlavə, müəssisələr mühasibat uçotu siyasətini keçmiş dövrlərə də tətbiq edəndə, keçmiş dövrlərin məlumatlarını yenidən hesablayanda və ya maliyyə hesabatlarında maddələri yenidən təsnif edəndə müəssisələrdən tələb edilir ki, müqayisə edilə bilən ən erkən dövrün əvvəlində maliyyə vəziyyəti haqqında müqayisəli hesabat təqdim etsinlər.

Bank ümumi gəliri iki ayrıca hesabatda təqdim etməyi seçmişdir – maliyyə nəticələri haqqında hesabat və ümumi gəlir haqqında hesabat. Əvvəlki ilin maliyyə hesabatlarındakı maddələr yenidən təsnif edildyi üçün, Bank müqayisə edilə bilən ən erkən dövr üzrə maliyyə vəziyyəti haqqında müqayisə edilə bilən yenidən təsnif edilmiş hesabatı təqdim etmişdir.

*7 saylı MHBS "Maliyyə alətləri: Açıqlamalar"*
7 saylı MHBS-na düzəlişlər 2009-cu ilin mart ayında qəbul edilmiş və ədalətli dəyər və likvidlik haqqında açıqlamaları genişləndirir. Ədalətli dəyərlə bağlı düzəlişlər üç səviyyəli ədalətli dəyər iyerarxiyasının açıqlanmasını tələb edir: sinif üzrə, ədalətli dəyərlə tanınmış bütün maliyyə alətləri üçün və iyerarxiya səviyyələri arasında keçirmələrə aid olan xüsusi açıqlamalar və ədalətli dəyər iyerarxiyasının 3-cü səviyyəsinə aid olan ətraflı açıqlamalar. Bundan əlavə, düzəliş törəmə əməliyyatlar və likvidliyin idarə edilməsi üçün istifadə edilən aktivlərlə bağlı tələb olunan likvidlik haqqında açıqlamaları da dəyişir. Düzəlişin keçid müddəaları buna icazə verdiyi kimi, müqayisəli məlumat təqdim edilməmişdir.

*23 saylı MUBS "Borcalma xərcləri" (Düzəliş)*
Düzəliş edilmiş 23 saylı MUBS "Borcalma xərcləri" 2007-ci ilin mart ayında buraxılmış və 1 yanvar 2009-cu il tarixində və ya bundan sonra başlayan maliyyə illərinə tətbiq edilir. Düzəliş edildikdən sonra bu standart, müvafiq meyarlara uyğun aktivə aid olan borcalma xərclərinin kapitallaşdırılmasını tələb edir. Müvafiq meyarlara uyğun olan aktiv elə bir aktivdir ki, onun nəzərdə tutulan istifadəsi və ya satılması üçün əhəmiyyətli vaxt tələb olunur. Bu düzəliş Bankın maliyyə vəziyyəti və ya nəticələrinə heç bir təsir göstərməmişdir, çünki hal-hazırda borcalma xərcləri mövcud deyildir.

*24 saylı MUBS "Aidiyyəti olan şəxslərə dair açıqlamalar" (Düzəliş)*
2009-cu ilin noyabr ayında buraxılmış düzəliş edilmiş 24 saylı MUBS dövlətə aid müəssisələr haqqında açıqlamaları sadələşdirir və aidi anlayışını aydınlaşdırır. Əvvəllər, dövlət tərəfindən nəzarət edilən və ya əhəmiyyətli təsir göstərilən müəssisə həmin dövlətin nəzarət etdiyi və ya əhəmiyyətli təsir göstərdiyi digər müəssisələrlə bütün əməliyyatlar haqqında məlumat verməli idi. Düzəliş edilmiş standart belə əməliyyatlar haqqında açıqlamanın yalnız həmin əməliyyatlar ayrı-ayrılıqda və ya birlikdə mühüm olanda verilməsini tələb edir. Düzəliş edilmiş 24 saylı MUBS 1 yanvar 2011-ci il tarixində və ya bundan sonra başlayan illik dövrlərə tətbiq edilir və onun daha erkən tətbiq edilməsinə icazə verilir. Bu düzəliş Bankın maliyyə vəziyyəti və ya nəticələrinə heç bir təsir göstərməmişdir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

**Mühasibat uçotu prinsiplərində dəyişikliklər (davamı)**

*32 saylı MUBS "Maliyyə alətləri: Təqdimat" və 1 saylı MUBS "Maliyyə hesabatlarının təqdimatı" - Put maliyyə alətləri və ləğvetmə zamanı yaranan öhdəliklər*
Bu düzəliş 2008-ci ilin fevral ayında buraxılmış və 1 yanvar 2009-cu il tarixində və ya bundan sonra başlayan dövrlərə tətbiq edilir. Düzəlişlər müəssisədə qalıq payını təmsil edən pul alətlərinin (bunlar müəyyən şərtlərə cavab verəndə) kapital kimi təsnif edilməsini tələb edir. Düzəlişlər Banka təsir göstərməmişdir.

*2 saylı MHBS-na düzəlişlər "Pul vəsaitləri vasitəsilə həyata keçirilən pay alətləri əsasında ödəmə"- Hüquqların verilməsi şərtləri və ləğv etmə*
2 saylı MHBS-na düzəlişlər 2008-ci ilin fevral ayında buraxılmış və 1 yanvar 2009-cu il tarixində və ya bundan sonra başlayan illik dövrlərə tətbiq edilir. Bu düzəliş hüquqların verilməsi şərtlərinin anlayışını aydınlaşdırır və hüququn verilməsinə gətirməyən şərt qarşılanmadığı üçün ləğv edilən hüquqları təsvir edir. Bu düzəliş Bankın maliyyə vəziyyəti və ya fəaliyyət nəticələrinə təsir göstərməmişdir.

*8 saylı MHBS "Əməliyyat seqmentləri"*
8 saylı MHBS 1 yanvar 2009-cu il tarixində və ya bundan sonra başlayan illik dövrlərə tətbiq edilir. Bu Standart Bankın əməliyyat seqmentləri haqqında məlumatın açıqlanmasını tələb edir və Bankın əsas (biznes) və ikinci dərəcəli (coğrafi) hesabat seqmentlərinin müəyyən edilməsinə dair tələbləri əvəz edir. Bank müəyyən etdi ki, əməliyyat seqmentləri əvvəllər 14 saylı "Seqment haqqında hesabatlar" MUBS-a uyğun olaraq müəyyən edilmiş biznes seqmentlərinə uyğun gəlir.

*13 saylı BMHŞK şərhi "Müştərinin Sadiqliyinin Dəstəklənməsi Proqramları"*
13 saylı BMHŞK şərhi 2007-ci ilin iyun ayında buraxılmış və 1 iyul 2008-cu il tarixində və ya bundan sonra başlayan illik dövrlərə tətbiq edilir. 13 saylı BMHŞK şərhi tələb edir ki, müştərinin sadiqliyi üçün mükafatlandırma məbləğləri müvafiq satış əməliyyatlarının ayrıca komponenti kimi hesaba alınsın və buna görə də alınmış vəsaitin ədalətli dəyərinin bir hissəsi mükafatlandırma məbləğlərinə aid edilir və sonra mükafatlandırma məbləğləri ödənildiyi müddət ərzində vaxtı uzadılır. Bu şərh Bankın maliyyə hesabatlarına təsir göstərmir, çünki belə sxemlər hazırda mövcud deyildir.

*15 saylı BMHŞK şərhi "Daşınmaz əmlakın tikintisi haqqında razılaşmalar"*
15 saylı BMHŞK şərhi 2008-ci ilin iyul ayında buraxılmışdır və qüvvəsi keçmiş dövrlərə şamil edilməklə 1 yanvar 2009-cu il tarixində və ya bundan sonra başlayan illik dövrlərə tətbiq edilir. 15 saylı BMHŞK şərhi daşınmaz əmlakın tikintisi başa çatana qədər inşaatçı və alıcı arasında razılaşma əldə ediləndə həmin daşınmaz əmlakın satılmasından gəlirin və əlaqəli xərclərin nə vaxt və necə uçota alınmasını izah edir. Bu şərh həmçinin 11 saylı "Tikinti müqavilələri" MUBS və 18 saylı "Gəlir" MUBS-un əhatə dairələri arasında uyğunluğun olub-olmamasının müəyyən edilməsi qaydasını müəyyən edir və 18 saylı Əlavədə daşınmaz əmlaka dair cari qaydaları əvəz edir. Bu şərh Bankın maliyyə hesabatlarına heç bir təsir göstərməmişdir.

*16 saylı BMHŞK şərhi "Xarici əməliyyatlarda xalis investisiyanın hedcinqi"*
16 saylı BMHŞK şərhi 2008-ci ilin iyul ayında buraxılmışdır və 1 oktyabr 2008-ci il tarixində və ya bundan sonra başlayan illik dövrlərə tətbiq edilir. Bu şərh xalis investisiyanın hedcinqinin uçota alınması üzrə göstərişləri təqdim edir. Belə ki, bu şərh xalis investisiyanın hedcinqində hedcinq uçotuna aid olan xarici valyuta riskinin müəyyən edilməsi, xalis investisiyanın hedcinqi zamanı hedcinq alətlərinin qrup daxilində harada saxlanılmasını, eləcə də müəssisə tərəfindən xalis investisiyanın xaric edilməsində təkrar istifadə olunmalı olan həm xalis investisiya, həm də hedcinq alətləri ilə bağlı xarici valyuta gəlirlərinin və ya zərərlərinin məbləğinin necə müəyyən edilməsi qaydalarını nəzərdə tutur. Bu şərh Bankın maliyyə hesabatlarına heç bir təsir göstərməmişdir.

*9 saylı BMHŞK şərhi "Əlaqədar törəmə alətlərinin yenidən qiymətləndirilməsi" (Düzəliş)*
Bu düzəlişə görə, müəssisə hibrid maliyyə aktivini mənfəət və ya zərər kateqoriyası üzrə ədalətli dəyərdən çıxararaq yenidən təsnif etdiyi zaman, həmin müəssisə əlaqədar törəmə alətlərinin əsas müqavilədən ayrılıb-ayrılmamasını qiymətləndirməlidir. Bu qiymətləndirmə müəssisə müqaviləni imzaladığı tarixdə və ya müqavilənin pul vəsaitlərinin hərəkətini əhəmiyyətli dərəcədə dəyişən dəyişikliklər müqaviləyə edildiyi tarixdə (bu tarixlərdən hansı daha gec olarsa) mövcud olan şəraitə əsasən aparılmalıdır.
Düzəlişlər 30 iyun 2009-cu il tarixində və ya bu tarixdən sonra başa çatan illik dövrlərə tətbiq edilir. Bu şərh Bankın maliyyə hesabatlarına təsir göstərməmişdir, çünki Bankda törəmə alətləri yoxdur.

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

### Mühasibat uçotu prinsiplərində dəyişikliklər (davamı)

*18 saylı BMHŞK şərhi "Müştərilərdən aktivlərin keçirilməsi"*
18 saylı BMHŞK şərhi 2009-cu ilin yanvar ayında buraxılmışdır və daha erkən tətbiq edilməsinə icazə verilməklə, 1 iyul 2009-cu il tarixində və ya bu tarixdən sonra müştərilərdən alınmış aktivlərin keçirilməsinə tətbiq edilir, bu şərtlə ki, qiymətləndirmələr həmin keçirmələr baş verdiyi tarixdə əldə edilsin. Bu şərhin qüvvəsi gələcək dövrlərə tətbiq edilməlidir. 18 saylı BMHŞK şərhi müəssisənin müştəridən əmlak, qurğu və avadanlıq obyektinin alınmasını nəzərdə tutan razılaşmaların uçotu qaydasını nəzərdə tutur – müəssisə həmin obyekti sonra ya müştərini şəbəkə ilə əlaqələndirmək ya da müştərinin mal və ya xidmətlərlə daim təchiz edilməsini təmin etmək və ya hər iki məqsədlə istifadə etməlidir. Bu şərh Bankın maliyyə vəziyyətinə və ya fəaliyyət nəticələrinə heç bir təsir göstərməmişdir, çünki Bankda müştərilərdən aktivlərin keçirilməsi olmamışdır.

### Assosiasiya olunmuş müəssisələr

Assosiasiya olunmuş müəssisələr Bankın əhəmiyyətli dərəcədə təsir göstərdiyi, lakin nəzarət etmədiyi müəssisələrdir; Bankın bu müəssisələrin səsvermə hüququ səhmlərində payı adətən 20% və 50% təşkil edir. Assosiasiya olunmuş müəssisələrə investsiyalar pay iştirakı metoduna əsasən qeydə alınır və əvvəlcə qudvili daxil edən ilkin dəyərdə əks etdirilir. Balans dəyərində sonrakı dəyişikliklər Bankın assosiasiya olunmuş müəssisənin xalis aktvlərindəki payında alışdan sonrakı dəyişiklikləri əks etdirir. Assosiasiya olunmuş müəssisələrin mənfəətində və zərərində Bankın payı maliyyə nəticələri haqqında hesabatda, ehtiyatlardakı dəyişikliklərdə payı isə digər ümumi gəlirdə qeydə alınır. Bununla bərabər, Bankın assosiasiya olunmuş müəssisənin zərərlərindəki payı onu assosiasiya olunmuş müəssisənin payına bərabər və ya bu paydan artıq olursa, Bank, assosiasiya olunmuş müəssisəyə və ya onun adından gələcək ödənişlər aparmalı olduğu hallar istisna olmaqla, gələcək zərərləri tanımır.

Bank və onun assosiasiya olunmuş müəssisələri arasındakı əməliyyatlar üzrə realizasiya olunmamış gəlirlər Bankın assosiasiya olunmuş müəssisələrdəki payına proporsional həcmdə silinir; bundan əlavə, realizasiya olunmamış zərərlər həmçinin assosiasiya olunmuş müəssisələrin aktivlərinin dəyərsizləşməsi nəticəsində yaranmadığı halda silinir.

### Maliyyə aktivləri

*İlkin tanıma*

39 saylı MUBS-na uyğun olaraq maliyyə aktivləri müvafiq qaydada mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə əks etdirilmiş maliyyə aktivləri, kreditlər və debitor borcları, ödəmə müddəti tamamlanana qədər saxlanılan alətlər və ya satış üçün mövcud olan maliyyə alətlərinə təsnif edilir. Maliyyə aktivləri ilk olaraq qeydə alınanda, ədalətli dəyərlə ölçülür. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə əks etdirilməyən investisiyalar əks etdirilərkən, onların ədalətli dəyərlərinə əməliyyatla birbaşa əlaqəsi olan xərclər əlavə edilir. Bank maliyyə aktivlərini ilkin tanıma zamanı təsnifləşdirir və sonra aşağıda təsvir olunan müəyyən hallarda maliyyə aktivlərini yenidən təsnif edə bilər.

*Tanıma tarixi*

Maliyyə aktivlərinin bütün müntəzəm alışları və satışları alqı-satqı tarixində, yəni Bank aktivi almaq öhdəliyini üzərinə götürdüyü tarixdə tanınır. Müntəzəm alış və ya satış əməliyyatlarına qanunvericiliklə və ya bazar razılaşmaları ilə ümumi şəkildə müəyyən edilmiş müddət ərzində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alınması və ya satılması daxildir.

*Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə əks etdirilmiş maliyyə aktivləri*

Ticarət məqsədləri üçün saxlanılan maliyyə aktivləri kimi təsnif edilən maliyyə aktivləri "mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə əks etdirilmiş maliyyə aktivləri" kateqoriyasına daxil edilir. Maliyyə aktivləri ticarət məqsədləri üçün saxlanılan maliyyə aktivləri kimi o halda təsnif edilir ki, onlar yaxın zamanda satılmaq məqsədilə alınmışdır. Təyin edilmiş və effektiv hedcinq alətləri olmayan törəmə aktivlər də ticarət məqsədləri üçün saxlanılan maliyyə aktivləri kimi təsnif edilir. Satış üçün saxlanılmış maliyyə aktivləri üzrə gəlir və zərərlər maliyyə nəticələri haqqında hesabatda əksini tapır.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

**Maliyyə aktivləri (davamı)**

*Ödəmə müddəti tamamlanana qədər saxlanılan investisiyalar*

Müəyyən və ya müəyyən edilə bilən ödənişli və müəyyən müddəti olan qeyri-törəmə maliyyə aktivləri Bankın onları ödəmə müddəti tamamlanana qədər saxlamaq niyyəti və imkanı olanda, Ödəmə müddəti tamamlanana qədər saxlanılan maliyyə aktivləri kimi təsnif edilir. Qeyri-müəyyən müddətdə saxlanması nəzərdə tutulan investisiyalar bu sinfə daxil edilmir. Ödəmə müddəti tamamlanana qədər saxlanılan investisiyalar sonradan amortizasiya olunmuş dəyərlə ölçülür. Gəlir və zərərlər maliyyə nəticələri haqqında hesabatda investisiyalar dəyərsizləşəndə, habelə amortizasiya prosesində əks etdirilir.

*Kreditlər və debitor borcları*

Kreditlər və debitor borcları fəal bazarda dövr etməyən, müəyyən və ya müəyyən edilə bilən ödənişli qeyri-törəmə maliyyə aktivləridir. Onlar dərhal və ya qısa müddətdə satılmaq üçün nəzərdə tutulmur, ticarət qiymətli kağızları kimi təsnif edilmir və ya satış üçün mövcud olan investisiya qiymətli kağızları kimi göstərilmir. Belə aktivlər effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə əks etdirilir. Belə aktivlər üzrə gəlir və xərclər maliyyə nəticələri haqqında hesabatda kreditlər və debitor borcları uçotdan çıxarıldıqda və ya qiymətdən düşdükdə, eləcə də amortizasiya prosesində əks etdirilir.

*Satış üçün mövcud olan maliyyə aktivləri*

Satış üçün mövcud olan maliyyə aktivləri yuxarıda göstərilən heç bir sinfə daxil olmayan və ya satış üçün mövcud olan maliyyə aktivləri kimi təsnif edilməmiş qeyri-törəmə maliyyə aktivləridir. İlkin tanımadan sonra satış üçün mövcud olan maliyyə aktivləri ədalətli dəyərlə ölçülür və bu zaman gəlir və xərclər investisiyanın tanınması dayanana və ya investisiyanın dəyərsizləşməsi müəyyən edilənədək digər ümumi gəlir kimi əks etdirilir. Belə halda əvvəl digər ümumi gəlirin tərkibində əks etdirilmiş məcmu gəlir və ya zərər maliyyə nəticələri haqqında hesabatda yenidən təsnif edilir. Bununla bərabər effektiv faiz dərəcəsi metodu ilə hesablanmış faizlər maliyyə nəticələri haqqında hesabatda əks etdirilir.

*Ədalətli dəyərin müəyyən edilməsi*

Hər hesabat tarixində aktiv bazarda alınıb-satılan maliyyə alətlərinin ədalətli dəyəri elan edilmiş bazar qiymətlərinə və ya dilerin müəyyən etdiyi qiymətlərə (uzunmüddətli mövqe üçün alıcının qiyməti və qısamüddətli mövqe üçün satıcının qiyməti) istinadən satışla əlaqədar xərclər çıxılmadan müəyyən edilir.

Aktiv bazarda alınıb-satılmayan bütün digər maliyyə alətlərinin ədalətli dəyəri müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilir. Bu cür metodlara xalis cari dəyər metodları, bazarda müşahidə edilən qiymətləri olan oxşar maliyyə alətləri ilə müqayisə, opsionların qiymətləndirilməsi modeli və digər qiymətləndirmə modelləri daxildir.

*Qarşılıqlı əvəzləşdirmə*

Bank maliyyə aktivləri və maliyyə öhdəliklərinin tanınmış məbləğlərini qarşılıqlı əvəz etmək üçün qanuni hüquqa malik olduğu və ya hesablaşmanı netto əsasında həyata keçirmək, ya da eyni vaxtda aktivi realizasiya etmək və öhdəliyi yerinə yetirmək niyyəti olduğu halda, qarşılıqlı əvəzləşdirir və maliyyə vəziyyəti haqqında hesabatda xalis məbləğ kimi təqdim edir. Bu adətən əsas əvəzləşdirmə razılaşmalarında baş vermir və əlaqəli aktiv və öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda ümumi məbləğdə göstərilir.

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri**

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri kassada olan pul vəsaitləri, ARMB-dan alınacaq məbləğlər (məcburi ehtiyatları çıxmaqla) və ödəmə müddəti doxsan gündən az olan və müqavilə yüklülüyündən azad olan maliyyə təşkilatlarından alınacaq məbləğlər daxildir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

### Borc vəsaitləri

Buraxılmış maliyyə alətləri və ya onların komponentləri o halda öhdəlik kimi təsnif edilir ki, müqavilə razılaşmasının mahiyyəti Bankın üzərinə aşağıdakı öhdəliklərdən birinin qoyulması ilə nəticələnsin: sahibə pul vəsaitləri və ya digər maliyyə aktivini çatdırmaq və ya öhdəliyi müəyyən məbləğdə pul vəsaitinin və ya digər maliyyə aktivinin müəyyən sayda xüsusi kapital alətlərinə mübadilə etməkdən fərqli olan yolla ödəmək. Belə alətlərə maliyyə təşkilatları və Dövlət orqanları qarşısında öhdəliklər və Müştərilər qarşısımda öhdəliklər daxildir. İlkin tanımadan sonra borclar amortizasiya olunmuş dəyərlə, effektiv faiz metodundan istifadə etməklə ölçülür. Gəlir və zərərlər maliyyə nəticələri haqqında hesabatda borclar silindikdə, eləcə də amortizasiyanın hesablanması prosesində əks etdirilir.

### Lizinq

*i. **Maliyyə lizinqi – Bank lizinqalan qismində***

Bank maliyyə lizniqini lizinq müddəti başlayanda maliyyə vəziyyəti haqqında hesabatda aktivlərin və öhdəliklərin tərkibində lizinqə götürülən əmlakın ədalətli dəyərinə bərabər olan məbləğlərlə və ya, bu məbləğ ədalətli dəyərdən daha az olarsa, minimal lizinq ödənişinin cari dəyəri ilə əks etdirir. Minimal lizinq ödənişinin cari dəyəri hesablanarkən diskontlaşdırma amili kimi lizinq üzrə daxili faiz dərəcəsi istifadə edilir (həmin dərəcəni müəyyən etmək mümkündürsə). Əks hallarda Bankın artan borc dərəcəsi istifadə edilir. Çəkilmiş ilkin birbaşa xərclər aktivin bir hissəsi kimi tanınır. Lizinq ödənişləri maliyyələşdirmə xərcləri və öhdəliyin ödənilməsi arasında bölüşdürülür. Maliyyələşdirmə xərcləri lizinq müddəti ərzində elə bölüşdürülür ki, hər bir hesabat dövründə öhdəliklərin qalığına hesablanan daimi dövrü faiz dərəcəsi ilə xərclərin əks etdirilməsi təmin edilsin.

Lizinqalan tərəfindən maliyyə lizinqi üzrə yerinə yetirilən əməliyyatlara birbaşa aid olan məsrəflər lizinqə götürülən aktivlərin tərkibində əks etdirilir.

*ii. **Əməliyyat lizinqi - Bank lizinqalan qismində***

Lizinq obyektlərinin mülkiyyət hüququ ilə əlaqədar risk və gəlirlər lizinqverən tərəfindən Banka ötürülmədikdə aktivlərin lizinqi əməliyyat lizinqi hesab olunur. Əməliyyat lizinqi əsasında ödənişlər lizinqin müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən digər əməliyyat xərclərinin tərkibinə daxil edilir.

### Maliyyə aktivlərinin dəyərsizləşməsi

Maliyyə aktivinin və ya maliyyə aktivləri qrupunun dəyərsizləşməsi ehtimalına dair obyektiv sübutların olub-olmamasını müəyyən etmək üçün Bank hər hesabat tarixində qiymətləndirmə aparır. Maliyyə aktivi və ya maliyyə aktivləri qrupu yalnız və yalnız aktiv ilk dəfə əks etdirildikdən sonra baş vermiş bir və ya bir neçə hadisə nəticəsində dəyərsizləşmənin obyektiv sübutu olanda (baş vermiş "zərər hadisəsi") və ya bu zərər hadisəsi (və ya hadisələri) maliyyə aktivi və ya maliyyə aktivləri qrupundan gözlənilən və etibarlı şəkildə qiymətləndirilə bilən pul vəsaitləri hərəkətlərinə təsir göstərəndə dəyərsizləşmiş hesab edilir. Dəyərsizləşmənin sübutlarına borcalanın və ya borcalanlar qrupunun mühüm maliyyə çətinlikləri ilə rastlaşması, faizlərin və ya əsas məbləğin ödənilməsi öhdəliklərini pozması, yüksək müflisləşmə və ya digər maliyyə yenidənqurması ehtimalı ilə qarşılaşmasına dair sübutlar, habelə müşahidə edilən bazar məlumatları əsasında qiymətləndirilən gələcək pul vəsaitləri hərəkətində ölçülə bilən azalmaya (misal üçün vaxtı keçmiş ödənişlərin səviyyələrində dəyişikliklərə və ya aktivlər üzrə zərərlərlə uzlaşan iqtisadi şəraitlərə) dair sübutlar daxildir.

*Maliyyə təşkilatlarından alınacaq məbləğlər və müştərilərə verilmiş kreditlər*

Amortizasiya olunmuş dəyərlə uçota alınan maliyyə təşkilatlarından alınacaq məbləğlərlə və müştərilərə verilmiş kreditlərlə bağlı Bank əvvəlcə fərdi olaraq mühüm maliyyə aktivləri üçün fərdi və fərdi olaraq mühüm olmayan maliyyə aktivləri üçün məcmu şəkildə dəyərsizləşməyə dair obyektiv sübutların olub-olmamasını qiymətləndirir. Bank mühüm olub-olmamasından asılı olmayaraq fərdi şəkildə qiymətləndirilmiş maliyyə aktivi üçün dəyərsizləşməyə dair obyektiv sübutun olmaması qərarına gələrsə, həmin aktivi analoji kredit riski xüsusiyyətlərinə malik olan maliyyə aktivləri qrupuna daxil edir və onların dəyərsizləşmə baxımından qiymətləndirilməsini məcmu şəkildə aparır. Dəyərsizləşmə baxımından qiymətləndirilməsi fərdi şəkildə aparılmış və dəyərsizləşmə zərərləri əks etdirilmiş aktivlər dəyərsizləşmə baxımından məcmu şəkildə qiymətləndirməyə daxil edilmir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

### Maliyyə aktivlərinin dəyərsizləşməsi (davamı)

*Maliyyə təşkilatlarından alınacaq məbləğlər və müştərilərə verilmiş kreditlər(davamı)*

Dəyərsizləşmə zərərlərinin çəkilməsinin obyektiv sübutu olarsa, zərərin məbləği aktivlərin balans dəyəri ilə qiymətləndirilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyəri (hələ çəkilməmiş gələcəkdə gözlənilən kredit zərərləri nəzərə alınmadan) arasında fərq kimi ölçülür. Aktivin balans dəyəri ehtiyat hesabının istifadə edilməsi hesabına azalır və zərərin məbləği maliyyə nəticələri haqqında hesabatda əks etdirilir. Faiz gəlirləri azaldılmış balans dəyəri üzrə, aktiv üzrə ilkin effektiv faiz dərəcəsi əsasında hesablanmağa davam edir. Kreditlər və müvafiq ehtiyat kreditin qaytarılmasının realistik perspektivləri olmayanda və bütün təminat reallaşdırıldıqda və ya Bankın mülkiyyətinə keçdikdə silinir. Əgər növbəti ildə qiymətləndirilmiş dəyərsizləşmə zərərinin məbləği dəyərsizləşmə tanındıqdan sonra baş vermiş hadisə nəticəsində artır və ya azalırsa, əvvəl tanınmış dəyərsizləşmə zərəri ehtiyat hesabında düzəliş aparmaqla əks etdirilir. Gələcək silinmə sonradan bərpa edilirsə, bərpa məbləği maliyyə nəticələri haqqında hesabatda əks etdirilir.

Qiymətləndirilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyəri maliyyə aktivinin ilkin effektiv faiz dərəcəsi ilə diskont edilir. Kredit dəyişən faiz dərəcəsi ilə verilmişdirsə, dəyərsizləşmə zərərinin ölçülməsi üçün diskontun dərəcəsi, cari effektiv faiz dərəcəsi olacaqdır. Girov qoyulmuş maliyyə aktivləri üzrə qiymətləndirilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinin hesablanması, girov aktivinin özgəninkiləşdirilməsinin mümkün olub-olmamasından asılı olmayaraq, girovun alınması və satılması ilə bağlı məsrəfləri çıxmaqla girov aktivinin özgəninkiləşdirilməsindən irəli gələn pul vəsaitləri hərəkətlərini əks etdirir.

Dəyərsizləşmənin məcmu şəkildə qiymətləndirilməsi məqsədilə maliyyə aktivləri Bankın daxili kredit reytinqləri sistemi əsasında qruplara bölünür və bu zaman aktivin növü, iqtisadi sektoru, coğrafi mövqeyi, girovun növü, ödəniş vaxtının keçib-keçməməsi və digər müvafiq amillər kimi kredit riskinin xüsusiyyətləri nəzərə alınır.

Məcmu şəkildə dəyərsizləşmə baxımından qiymətləndirilmiş maliyyə aktivləri qrupu üzrə pul vəsaitlərinin gələcək hərəkətləri bu qrupa daxil olan aktivlərin kredit riski xüsusiyyətləri ilə analoji xüsusiyyətlərə malik olan aktivlər üzrə zərərlərlə bağlı tarixi məlumat əsasında müəyyən edilir. Zərərlərlə bağlı tarixi məlumatda həmin məlumatın aid olduğu illərdə təsir göstərməmiş cari şəraitlərin təsirini əks etdirmək və keçmiş müddətin hazırda mövcud olmayan şəraitlərinin təsirini istisna etmək məqsədilə müşahidə edilən cari bazar məlumatı əsasında düzəlişlər edilir. Gələcək pul vəsaitləri hərəkətlərində dəyişikliklərin qiymətləndirmələri hər il üçün müşahidə edilən bazarda müvafiq məlumatlardakı dəyişiklikləri (misal üçün işsizlik səviyyəsi, daşınmaz əmlakın qiymətləri, əmtəə qiymətləri, ödəniş statusunda dəyişikliklər və ya qrupun çəkdiyi zərərləri və ya onların həcmini əks etdirən digər amilləri) əks etdirir. Gələcək pul vəsaitləri hərəkətinin qiymətləndirilməsi üçün istifadə edilmiş metod və fərziyyələr müntəzəm qaydada yenidən baxılır ki, qiymətləndirilmiş zərərlərlə faktiki nəticələr arasındakı fərqlər azaldılsın.

*Satış üçün mövcud olan maliyyə investisiyaları*

Satış üçün mövcud olan maliyyə investisiyaları üçün Bank hər hesabat tarixində investisiya və ya investisiyalar qrupunda dəyərsizləşməyə dair obyektiv sübutun olub-olmamasını qiymətləndirir.

Satış üçün mövcud olan maliyyə investisiyaları kimi təsnif edilən kapital investisiyaları ilə bağlı obyektiv dəyərsizləşmə sübutlarına investisiyanın ədalətli dəyərinin maya dəyəriindən əhəmiyyətli və ya sürəkli şəkildə aşağı düşməsi daxildir. Dəyərsizləşmə sübutları mövcud olanda məcmu zərər – əvvəl maliyyə nəticələri haqqında hesabatda əks etdirilmiş investisiya üzrə dəyərsizləşmə zərərini çıxmaqla alış dəyəri ilə cari ədalətli dəyər arasındakı fərq kimi ölçülür – digər ümumi gəlirin tərkibindən çıxarılır və maliyyə nəticələri haqqında hesabatda əks etdirilir. Kapital investisiyaları üzrə dəyərsizləşmə zərərləri maliyyə nəticələri haqqında hesabatı vasitəsilə bərpa edilmir, onların dəyərsizləşmədən sonra ədalətli dəyərinin artması digər ümumi gəlirin tərkibində əks etdirilir.

Borc alətləri satış üçün mövcud olan alətlər kimi təsnif ediləndə dəyərsizləşmə amortizasiya hesablanmış dəyərlə uçota alınan maliyyə aktivləri ilə eyni prinsiplərlə qiymətləndirilir. Gələcək faiz gəliri azaldılmış balans dəyərinə əsaslanır və dəyərsizləşmə zərərinin ölçülməsi məqsədilə gələcək pul vəsaitləri hərəkətlərinin diskont edilməsi üçün istifadə edilən faiz dərəcəsi ilə hesablanır. Faiz gəliri maliyyə nəticələri haqqında hesabatda əks etdirilir. Əgər növbəti ildə borc alətinin ədalətli dəyəri artırsa və bu artma obyektiv olaraq dəyərsizləşmə zərərləri maliyyə nəticələri haqqında hesabatda və zərərində əks etdirildikdən sonra baş vermiş hadisə ilə bağlıdırsa, dəyərsizləşmə zərəri maliyyə nəticələri haqqında hesabatda bərpa edilir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

**Maliyyə aktivlərinin dəyərsizləşməsi (davamı)**

*Kreditlərin restrukturizasiyası*

İmkan dairəsində Bank girova yiyələnmək əvəzinə kredit şərtlərini dəyişdirməyə çalışır. Buna müqavilə ilə nəzərdə tutulmuş ödəniş müddətlərinin uzadılması və yeni kredit şərtlərinin razılaşdırılması daxildir. Yeni şərtlər müəyyən edildiyi təqdirdə, kreditin vaxtı keçmiş hesab olunmur. Bütün meyarların qarşılanması və gələcək ödənişlərin mümkünlüyündən əmin olmaq məqsədilə Bankın rəhbərliyi restrukturizasiya edilmiş kreditləri daim nəzərdən keçirir. Belə kreditlər fərdi və ya məcmu qaydada dəyərsizləşməyə məruz qalmaqda davam edir və onların ödənilən dəyəri kredit üzrə ilkin effektiv faiz dərəcəsini istifadə etməklə hesablanır.

**Maliyyə aktivlərinin uçotdan çıxarılması**

*Maliyyə aktivləri*

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda balansda əks etdirilmir:

- aktivdən pul vəsaitlərini almaq hüquqlarının vaxtı başa çatmışdır;
- Bank özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə keçirmiş və ya aktivdən pul vəsaitlərini almaq hüququnu saxlayaraq, onları "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və
- Bank: (a) aktiv üzrə, demək olar ki, bütün risk və səmərələr ötürmüş; (b) aktiv üzrə, demək olar ki, bütün risk və səmərələr ötürməmiş və onları özündə saxlamaqla, yalnız aktiv üzrə nəzarəti ötürmüşdür.

Bank aktivdən pul vəsaitləri hərəkətini almaq hüququnu ötürmüş və aktiv üzrə, demək olar ki, bütün risk və səmərələri nə ötürməmiş, nə də onları özündə saxlamamışdırsa, aktiv, Bankın həmin aktivdə davam edən iştirakı müqabilində əks etdirilir. Ötürülmüş aktiv üzrə zəmanət formasında aktivdə iştirakın davam etməsi aktivin ilkin balans dəyəri ilə Bankdan tələb oluna biləcək maksimal ödəniş məbləğindən az olanı ilə ölçülür.

Aktivdə iştirak, ötürülmüş aktiv üzrə yazılı və/və ya satın alınmış opsion (o cümlədən netto əsasla ödənilən opsion və ya analoji alət) formasında davam edirsə, Bankın davam edən iştirakının həcmi ötürülən aktivin Bank tərəfindən geri alınacaq dəyərinə bərabərdir. Lakin ədalətli dəyərlə qiymətləndirilən aktiv üzrə yazılı put-opsionu (o cümlədən netto əsasla ödənilən opsion və ya analoji alət) istisna təşkil edir və bu halda Bankın davam edən iştirakının həcmi, ötürülən aktivin ədalətli dəyəri və opsionun icra qiymətindən az olanı ilə məhdudlaşır.

*Maliyyə öhdəlikləri*

Maliyyə öhdəliyi müvafiq öhdəlik icra edildikdə, ləğv edildikdə və ya vaxtı başa çatdıqda uçotdan çıxarılır.

Mövcud olan bir maliyyə öhdəliyi eyni kreditor qarşısında tam fərqli şərtlərlə digəri ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtlərinə əhəmiyyətli düzəlişlər edildikdə, belə əvəz etmə və ya düzəliş ilkin öhdəliyin tanınmasının dayandırılmasını və yeni öhdəliyin tanınmasını tələb edir və müvafiq balans dəyərlərindəki fərqlər maliyyə nəticələri haqqında hesabatda əks etdirilir.

**Maliyyə zəmanətləri**

Adi fəaliyyətində Bank akkreditivlər və zəmanətlərdən ibarət olan maliyyə zəmanətləri verir. Maliyyə zəmanətləri maliyyə hesabatlarında ilk öncə ədalətli dəyərlə "Digər öhdəliklər" maddəsində alınmış komissiya haqqı məbləğində əks etdirilir. İlkin əks etdirmədən sonra Bankın hər bir zəmanət üzrə öhdəliyi aşağıdakı məbləğlərdən yuxarı olanı ilə ölçülür: amortizasiya hesablanmış komissiya haqqı və zəmanətdən irəli gələn maliyyə öhdəliyinin ödənilməsi üçün tələb olunan məsrəflərin ən yaxşı qiyməti.

Maliyyə zəmanətləri ilə bağlı öhdəliyin artması cari ilin mənfəətində nəzərə alınır. Alınmış komissiya haqqı cari ilin mənfəətində zəmanətin müddəti üzrə bərabər hissələrə bölünməklə əks etdirilir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

### Vergilər

Cari mənfəət vergisi xərci Azərbaycan Respublikasının qanunları əsasında hesablanır.

Təxirə salınmış mənfəət vergisi aktivləri öhdəlik metodundan istifadə etməklə müvəqqəti fərqlər üzrə hesablanır. Təxirə salınmış mənfəət şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı qudvilin və ya aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəlməyəndə və əməliyyat zamanı nə uçot mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə və ya zərərə təsir göstərmədiyi hallarda, təxirə salınmış mənfəət vergisi aktivlərinin və öhdəliklərinin vergi bazası və onların maliyyə hesabatları məqsədləri üçün balans dəyərləri arasında bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

Təxirə salınmış mənfəət vergisi aktivləri yalnız bu dərəcədə müəyyən edilir ki, çıxılan müvəqqəti fərqlərin istifadə edilə bilməsi üçün vergiyə cəlb edilən mənfəətin mövcud olması ehtimalı olsun. Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri, hesabat tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri və vergi qanunları əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.

Bundan əlavə, Azərbaycanda Bankın fəaliyyəti ilə bağlı müxtəlif əməliyyat vergiləri tətbiq edilir. Bu vergilər inzibati və digər əməliyyat xərclərinin tərkibinə daxil edilir.

### Əmlak və avadanlıqlar

Avadanlıqlar, gündəlik xidmət xərcləri istisna olmaqla, yığılmış köhnəlməni və hər hansı tanınmış dəyərsizləşmə zərərini çıxmaqla maya dəyərii ilə tanınır. Tanıma meyarına uyğun gələndə, avadanlıqların bir hissəsinin əvəz etdirilməsi xərcləri yaranan zaman həmin dəyərə daxil edilir.

Avadanlığın balans dəyəri dəyərsizləşmə baxımından balans dəyərinin qaytarılmayacağını göstərən hadisələr baş verəndə və ya şəraitlər dəyişəndə yenidən qiymətləndirilir.

İlk olaraq maya dəyəri ilə tanındıqdan sonra əmlak (binalar) yenidən qiymətləndirilmiş dəyərlə uçota alınır. Həmin yenidən qiymətləndirilmiş dəyər yenidən qiymətləndirmə tarixində ədalətli dəyərdən sonradan yığılmış köhnəlməni və sonradan yığılmış dəyərsizləşmə zərərlərini çıxmaqla müəyyən edilir. Qiymətləndirmə kifayət qədər tez-tez aparılır ki, yenidən qiymətləndirilən aktivin ədalətli dəyərinin balans dəyərindən çox fərqli olmaması təmin olunsun. Yenidən qiymətləndirmə üzrə hər hansı əlavə vəsait digər ümumi gəlirə daxil edilmiş əmlak və avadanlıqlar üçün yenidən qiymətləndirmə ehtiyatına aid edilir. Lakin yenidən qiymətləndirmə üzrə hər hansı əlavə vəsait əvvəllər maliyyə nəticələri haqqında hesabatda əks etdirilmiş həmin aktivin dəyərinin yenidən qiymətləndirmə nəticəsində azalmasını ləğv etdiyi halda, bu artma maliyyə nəticələri haqqında hesabatda əks etdirilir. Yenidən qiymətləndirmə üzrə kəsir maliyyə nəticələri haqqında hesabatda əks etdirilir, lakin bu halda həmin aktiv üzrə əvvəlki əlavə vəsaitlə birbaşa əvəzləşdirilən kəsir əsas vəsaitlər üçün yenidən qiymətləndirmə ehtiyatında əlavə vəsaitlə birbaşa əvəzləşdirilir.

Əmlak və avadanlıqlar üçün yenidən qiymətləndirmə ehtiyatından bölüşdürülməmiş mənfəətə illik köçürmə aktivlərin yenidən qiymətləndirilmiş balans dəyəri əsasında köhnəlmə ilə aktivlərin maya dəyərii əsasında köhnəlmə arasındakı fərq üçün aparılır. Satış zamanı satılan konkret aktivə aid olan hər hansı yenidən qiymətləndirmə ehtiyatı bölüşdürülməmiş mənfəətə köçürülür.

Tamamlanamış tikinti lazım olduqda dəyərsizləşmə ehtiyatını çıxmaqla ilkin dəyərlə uçota alınır. İlkin dəyərə müvafiq aktivin tikintisini maliyyələşdirmək üçün xüsusi və ümumi borc vəsaitlərinin alınması ilə əlaqədar borc vəsaitləri üzrə xərclər daxildir. Tamamlandıqdan sonra həmin aktivlər müvafiq binalar və avadanlıqlar kateqoriyasına köçürülür və balans dəyərində uçota alınır. Tamamlanamış tikinti üçün tikinti işləri başa çatdırılmayana qədər amortizasiya hesablanmır.

Aktiv istifadə edilmək üçün hazır olduğu andan bu aktiv üzrə köhnəlmə hesablanmağa başlayır. Köhnəlmə aktivlərin balans dəyərlərini aşağıda göstərilən proqnozlaşdırılan istifadə müddətləri üzrə bərabər hissələrə bölməklə hesablanır:

| | *İllər* |
|---|---|
| Binalar | 20-50 |
| İcarəyə alınmış aktivlərin əsaslı təmiri | 7-10 |
| Kompüterlər və digər avadanlıq | 4-5 |
| Nəqliyyat vasitələri | 5-7 |
| Mebel, qurğu və avadanlıqlar | 5-7 |

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

### Əmlak və avadanlıqlar (davamı)

Aktivlərin qalıq dəyərləri, istifadə müddətləri və metodlar yenidən baxılaraq, hər maliyyə ilinin sonunda lazım olduqca yeniləşdirilir.

Təmir və rekonstruksiya xərcləri çəkildikcə xərclərə aid edilir və kapitallaşdırılmalı olduğu hallar istisna olmaqla, digər inzibati və digər əməliyyat xərclərinə daxil edilir.

### Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər kompüter proqramlarından və lisenziyalardan ibarətdir.

Ayrıca alınmış qeyri-maddi aktivlər ilk olaraq maya dəyərii ilə tanınır. Şirkətlərin birləşməsi çərçivəsində alınmış qeyri-maddi aktivlərin maya dəyərii alış tarixində ədalətli dəyərə bərabərdir. İlkin tanımadan sonra qeyri-maddi aktivlər yığılmış köhnəlmə və yığılmış dəyərsizləşmə zərərlərini çıxmaqla maya dəyərii ilə əks etdirilir. Qeyri-maddi aktivlərin istifadə müddətləri məhdud müddətlər kimi müəyyən edilmişdir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlərə 5-10 illik istifadə müddəti üzrə amortizasiya hesablanır və həmin qeyri-maddi aktivlər üzrə mümkün dəyərsizləşmə əlamətləri mövcud olanda dəyərsizləşmə baxımından qiymətləndirmə aparılır.

### Ehtiyatlar

Bank ehtiyatları keçmiş hadisənin nəticəsi olan cari (hüquqi və ya konstruktiv) öhdəliyə sahib olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərələri təcəssüm etdirən resursların xaric olmasının tələb olunacağını ehtimal etdikdə və öhdəliyin məbləğini etibarlı qiymətləndirə biləndə tanıyır.

### Səhmdar kapitalı

*Səhmdar kapitalı*

Adi səhmlər səhmdar kapitalı kimi təsnif edilir. Şirkətlərin birləşməsi istisna olmaqla, yeni səhmlərin buraxılması ilə birbaşa bağlı olaraq üçüncü tərəflərə ödənişlərə çəkilən xərclər kapitalın tərkibində həmin emissiya nəticəsində əldə edilmiş məbləğin azalması kimi əks etdirilir. Əldə edilmiş vəsaitlərin ədalətli dəyərinin buraxılmış səhmlərin nominal dəyərindən artıq məbləği əlavə kapital kimi əks etdirilir.

*Dividendlər*

Dividendlər, yalnız hesabat tarixindən gec olmayaraq elan edildiyi halda, öhdəlik kimi əks etdirilir və hesabat tarixinə kapitalın məbləğindən çıxılır. Dividendlər haqqında məlumat hesabat tarixindən əvvəl və eləcə də hesabat tarixindən sonra, lakin maliyyə hesabatları təsdiq edildikdən əvvəl təklif və ya elan edildikdə açıqlanır.

### Seqment üzrə hesabatların təqdim edilməsi

Bankın seqment üzrə hesabatları aşağıdakı əməliyyat seqmentlərinə əsaslanır: fərdi bank əməliyyatları və korporativ bank əməliyyatları.

### Şərti aktivlər və öhdəliklər

Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onların ödənilməsi üçün ehtiyatların xərclənməsi ehtimalı az olanda, maliyyə hesabatlarında açıqlanır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onlarla bağlı iqtisadi faydaların daxil olması ehtimal ediləndə maliyyə hesabatlarında açıqlanır.

### Gəlir və xərclərin tanınması

Gəlir Bank tərəfindən iqtisadi səmərənin əldə edilməsi ehtimal ediləndə və xərclər etibarlı şəkildə ölçülə biləndə tanınır. Gəlirin tanınması üçün aşağıdakı xüsusi tanıma meyarları da qarşılanmalıdır.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

**Gəlir və xərclərin tanınması (davamı)**

*Faiz və analoji gəlir və xərclər*

Ticarət aktivləri və ya satış üçün mövcud olan aktivlər kimi təsnif edilmiş faiz hesablanan qiymətli kağızlar və amortizasiya olunmuş dəyəri ilə qiymətləndirilən bütün maliyyə alətləri üzrə faiz gəlirləri və ya xərcləri effektiv faiz dərəcəsi ilə tanınır. Həmin dərəcə qiymətləndirilən gələcək pul vəsaitləri ödənişlərini və ya daxilolmalarını maliyyə alətinin ehtimal edilən istifadə müddəti və ya daha qısa müddət ərzində maliyyə aktivinin və ya öhdəliyinin xalis balans dəyərinədək diskontlaşdırır. Hesablama zamanı maliyyə aləti üzrə bütün müqavilə şərtləri (misal üçün əvvəlcədən ödəmə imkanı), eləcə də alətlə bilavasitə bağlı olan və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün haqlar və əlavə xərclər nəzərə alınır, lakin gələcək kredit zərərləri nəzərə alınmır. Bank maliyyə aktivi və ya öhdəlikləri üzrə ödəniş və daxilolmalara dair qiymətləndirmələrinə yenidən baxdıqda, həmin aktiv və öhdəliklərin balans dəyərinə düzəlişlər edir. Düzəliş edilmiş balans dəyəri ilkin effektiv faiz dərəcəsi əsasında hesablanır və balans dəyərində dəyişiklik faiz gəliri və ya xərci kimi tanınır.

Maliyyə aktivinin və ya analoji maliyyə aktivləri qrupunun qeydə alınmış dəyəri dəyərsizləşmə zərərinə görə azalarsa, faiz gəliri, yeni balans dəyərinə ilkin effektiv faiz dərəcəsini tətbiq etməklə əks etdirilir.

*Haqq və komissiya gəliri*

Bank haqq və komissiya gəlirini müştərilərə göstərdiyi xidmətlərdən əldə edir. Haqq və komissiya gəlirinə xidmətlər göstərildikcə gəlir kimi tanınan pul vəsaitlərinin toplanması və pul vəsaitlərinin çıxarılması haqları, müştəri xidmətləri üzrə haqlar, plastik kartlarla əməliyyatlar və digər xidmət haqları daxildir. Haqq və komissiya xərclərinə plastik kartlar, pul vəsaitlərinin köçürülməsi və müştəri xərcləri aiddir.

*Dividend gəliri*

Gəlir Bank ödənişi almaq hüququnu əldə edəndə tanınır.

**Xarici valyutanın çevrilməsi**

Maliyyə hesabatları Bankın funksional və təqdimat valyutası olan AZN ilə təqdim edilir. Xarici valyutalarla aparılan əməliyyatlar ilk öncə əməliyyat tarixində qüvvədə olan valyuta məzənnəsi ilə funksional valyutaya çevrilir. Xarici valyuta ilə olan monetar aktivlər və öhdəliklər hesabat tarixinə məzənnədən istifadə etməklə funksional valyutaya çevrilir. Xarici valyutalarla olan əməliyyatların çevrilməsindən yaranan bütün fərqlər maliyyə nəticələri haqqında hesabatda "Xarici valyutalarla əməliyyatlar üzrə xalis gəlir – Məzənnə fərqi" maddəsi üzrə tanınır. Xarici valyuta ilə olan və maya dəyərii ilə qiymətləndirilən qeyri-monetar maddələr əməliyyat tarixinə mövcud olan məzənnəyə görə çevrilir. Xarici valyuta ilə olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnəyə görə çevrilir.

Xarici valyuta ilə əməliyyatın müqavilə məzənnəsi ilə ARMB-nın həmin əməliyyat tarixinə rəsmi məzənnəsi arasında fərqlər xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlirlərə və ya xərclərə daxil edilir.

Bank bu maliyyə hesabatlarının hazırlanması üçün 31 dekabr 2009-cu və 2008-ci il tarixlərinə olan aşağıdakı xarici valyuta məzənnələrindən istifadə etmişdir:

| | *31 dekabr 2009-cu il* | *31 dekabr 2008-ci il* |
|---|---|---|
| 1 ABŞ dolları | AZN 0.8031 | AZN 0.8010 |
| 1 avro | AZN 1.1499 | AZN 1.1292 |
| 1 Rusiya rublu | AZN 0.0266 | AZN 0.0272 |
| 1 funt sterlinqi | AZN 1.2759 | AZN 1.1621 |
| 1 İsveçrə frankı | AZN 0.7727 | AZN 0.7604 |

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

### Bir səhm üzrə gəlir

Bir səhm üzrə gəlir Bankın kapital sahiblərinə aid olan mənfəəti və ya zərəri hesabat dövrü ərzində adi səhmlərin (xəzinə çekləri istina olmaqla) çəkili orta sayına bölməklə müəyyən ediləcəkdir.

### Mühasibat uçotu prinsiplərində gələcək dəyişikliklər

*Qəbul edilmiş, lakin hələ qüvvəyə minməmiş standart və şərhlər*

*39 saylı MUBS "Maliyyə alətləri: tanınması və ölçülməsi" - Meyarlara uyğun hedclənmiş alətlər*
39 saylı MUBS-a düzəliş 2008-ci ilin avqust ayında buraxılmış və 1 iyul 2009-cu il tarixində və ya bundan sonra başlayan illik dövrlərə tətbiq edilir. Bu düzəliş hedclənmiş maddədə birtərəfli riskin təyin edilməsini və inflyasiyanın müəyyən vəziyyətlərdə hedclənmiş risk və ya onun bir hissəsi kimi təyin edilməsini izah edir. Bu düzəliş göstərir ki, müəssisəyə maliyyə alətinin ədalətli dəyərindəki dəyişikliklərin və ya pul vəsaitlərinin hərəkətində dəyişkənliyin bir hissəsini hedclənmiş maddə kimi təyin edilməsinə icazə verilir. Rəhbərlik gözləmir ki, MUBS 39-a düzəliş Bankın maliyyə hesabatlarına təsir göstərəcəkdir, çünki Bank bu cür hedclərdə iştirak etmir.

*3 saylı MHBS "Müəssisələrin birləşməsi" (2008-ci ilin yanvar ayında yenidən baxılmış) və 27 saylı MUBS "Birləşdirilmiş (konsolidə edilmiş) və ya müstəqil maliyyə hesabatları" (2008-ci ilin yanvar ayında yenidən baxılmış)*
Yenidən baxılmış standartlar 2008-ci ilin yanvar ayında buraxılmış və 1 iyul 2009-cu il tarixində və ya bundan sonra başlayan maliyyə dövrlərinə tətbiq edilir. Yenidən baxılmış 3 saylı MHBS müəssisələrin birləşməsinin uçotunda bir sıra dəyişikliklər etmişdir ki, bunlar tanınan qudvilin məbləğinə, satınalma baş verdiyi dövrdə hesabat verilən nəticələrə və gələcəkdə hesabat verilən nəticələrə təsir göstərəcəkdir. Yenidən baxılmış 27 saylı MUBS tələb edir ki, törəmə müəssisənin iştirak payında dəyişikliklər kapital əməliyyatları kimi uçota alınsın. Beləliklə, bu dəyişiklik nə qudvilə təsir göstərəcək, nə də ki, gəlirin və ya zərərin yaranmasına səbəb olacaqdır. Bundan əlavə, yenidən baxılmış standart törəmə müəssisə tərəfindən çəkilmiş zərərlərin, eləcə də törəmə müəssisə tərəfindən nəzarətin itirilməsinin uçotunu dəyişir. Yenidən baxılmış Standartlarla tətbiq edilən dəyişikliklər gələcək dövrlərə tətbiq edilməlidir və yalnız gələcək satınalmalara və azlıq payları ilə əməliyyatlara təsir göstərəcəkdir.

*2 saylı MHBS "Səhmlər əsasında ödəniş: Qrup tərəfindən pul vəsaitləri vasitəsilə həyata keçirilən səhmlər əsasında ödəmə sövdələşmələri"*
2 saylı MHBS-a düzəliş 2009-cu ilin iyun ayında buraxılmış və 1 yanvar 2010-cu il tarixində və ya bundan sonra başlayan maliyyə illərinə tətbiq edilir. Düzəliş qrup tərəfindən pul vəsaitləri vasitəsi ilə həyata keçirilən səhmlər əsasında ödəmə sövdələşmələrinin həcmi və uçotunu aydınlaşdırır. Bu düzəliş həmçinin 8 və 11 saylı BMHŞK şərhlərini əvəz edir. Bank gözləyir ki, bu düzəliş Bankın maliyyə hesabatlarına təsir göstərməyəcəkdir.

*17 saylı BMHŞK şərhi "Qeyri-nağd aktivlərin mülkiyyətçilərə köçürülməsi"*
17 saylı BMHŞK şərhi 27 noyabr 2008-ci ildə buraxılmış və 1 iyul 2009-cu il tarixində və ya bundan sonra başlayan illik dövrlərə tətbiq edilir. 17 saylı BMHŞK şərhi, birgə nəzarət edilən əməliyyatlar istisna olmaqla, qeyri-nağd aktivlərin proporsional bölüşdürülməsinə tətbiq edilir və tələb edir ki, ödəniləcək dividend, bu dividendin verilməsinə müvafiq qaydada icazə veriləndə və artıq müəssisənin sərəncamında olmayanda, tanınsın. Müəssisə ödəniləcək dividendi bölüşdürüləcək xalis aktivlərin ədalətli dəyəri ilə ölçməlidirlər. Müəssisə ödənilmiş dividend və mənfəət və ya zərərdə bölüşdürülmüş xalis aktivlərin balans dəyəri arasında fərqi tanımalıdır. Bu Şərh həmçinin tələb edir ki, mülkiyyətçilərə bölüşdürülmək üçün saxlanılan xalis aktivlər dayandırılmış əməliyyatlar tərifinə uyğun gələndə, müəssisə əlavə açıqlamalar versin. Bank gözləyir ki, bu şərh Bankın maliyyə hesabatlarına təsir göstərməyəcəkdir.

*MHBS-lara təkmilləşdirmələr*
2009-cu ilin aprel ayında MUBSK standartlara, ilk öncə uyğunsuzluqları aradan götürmək və mətni aydınlaşdırmaq məqsədilə ikinci düzəlişlər toplusunu buraxmışdır. Düzəlişlərin böyük hissəsi 1 yanvar 2010-cu il tarixində və ya bundan sonra başlayan illik dövrlərə tətbiq edilir. Hər bir standart üçün ayrıca keçid şərtləri nəzərdə tutulur. Mühasibat uçotu prinsiplərində dəyişikliklərin edilməsi ilə nəticələnən aşağıdakı düzəlişlər istisna olmaqla, 2009-cu ilin aprel ayının "MHBS-na təkmilləşdirmələr"inə daxil olan düzəlişlər Bankın mühasibat uçotu prinsiplərinə, maliyyə vəziyyətinə və ya əməliyyat nəticələrinə təsir göstərməyəcəkdir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

**Mühasibat uçotu prinsiplərində gələcək dəyişikliklər (davamı)**

*MHBS-lara təkmilləşdirmələr (davamı)*

- 8 saylı MHBS "Əməliyyat seqmenti üzrə məlumat": göstərir ki, seqmentin aktivləri və öhdəlikləri haqqında yalnız bu halda hesabat verilməlidir ki, həmin aktivlər və öhdəliklər əməliyyat qərarlarını verən baş şəxs tərəfindən istifadə olunan ölçülərə daxil edilsin. Bankın əməliyyat qərarlarını verən baş şəxsi seqment aktivləri və öhdəliklərini nəzərə aldığı üçün, Bank bu məlumatı açıqlamağa davam edəcəkdir.
- 7 saylı MUBS "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat": Dəqiq göstərir ki, yalnız aktivin tanınması ilə nəticələnən məsrəflər investisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti kimi təsnif edilə bilər.
- 36 saylı MUBS "Aktivlərin dəyərsizləşməsi": Düzəliş aydınlaşdırır ki, müəssisələrin birləşməsində alınmış qudvilin bölüşdürülməsində iştirak etməsinə icazə verilmiş ən iri bölmə 8 saylı MHBS-da müəyyən edildiyi kimi, hesabat vermə məqsədləri üçün birləşdirilənə qədər, əməliyyat seqmentidir. Bu düzəliş Banka təsir göstərməyəcəkdir, çünki birləşdirmədən əvvəl illik dəyərsizləşmə testi keçirilmişdir.

*32 saylı MUBS "Maliyyə alətləri: Təqdimat": Hüquqların emissiyasının təsnif edilməsi"*
2009-cu ilin oktyabr ayında MUBSK 32 saylı MUBS-a düzəliş buraxmışdır. Müəssisələr bu düzəlişi 1 fevral 2010-cu il tarixində və sonra başlayan illik dövrlərə tətbiq edəcəkdir. Daha erkən tətbiqə də yol verilir. Bu düzəliş 32 saylı MUBS-da maliyyə öhdəliyinin tərifini dəyişərək, hüquqların emissiyasının və müəyyən opsion və varrantların kapital alətləri kimi təsnif edilməsini nəzərdə tutur. Bu qayda hüquqlar proporsional şəkildə müəssisənin eyni sinifdən olan qeyri-törəmə kapital alətlərinin bütün mövcud mülkiyyətçilərinə müəssisənin müəyyən sayda kapital alətlərinin hər hansı valyutada müəyyən edilmiş məbləğə alınması məqsədilə veriləndə tətbiq edilir. Bank gözləyir ki, bu düzəliş Bankın maliyyə hesabatlarına təsir göstərməyəcəkdir.

*9 saylı MHBS "Maliyyə alətləri"*
2009-cu ilin noyabr ayında MUBSK 9 saylı "Maliyyə alətləri" MHBS-ın birinci fazasını buraxmışdır. Bu standart tədricən 39 saylı "Maliyyə hesabatları: Tanınması və ölçülməsi" MUBS-u əvəz edəcəkdir. 9 saylı MHBS 1 yanvar 2013-cü il tarixində və sonra başlayan maliyyə illərinə tətbiq ediləcəkdir. Müəssisələr birinci fazanı 31 dekabr 2009-cu il tarixində və ya bu tarixdən sonra başa çatan hesabat dövrləri üçün tətbiq edə bilər. 9 saylı MHBS-ın birinci fazası maliyyə aktivlərinin təsnif edilməsi və ölçülməsi üçün yeni tələbləri irəli sürür. Xüsusilə, sonrakı ölçülmələr üçün bütün maliyyə aktivləri amortizasiya edilmiş dəyərlə və ya ədalətli dəyərlə mənfəət və ya zərər vasitəsi ilə təsnif edilməli, satış üçün saxlanılmayan kapital alətlərinin isə digər ümumi gəlir vasitəsi ilə ədalətli dəyərlə ölçülə bilməsi ləğv olunmaz opsionla təmin edilməlidir. Bank hazırda yeni Standartın tətbiq edilməsinə təsiri qiymətləndirir və ilkin tətbiq tarixi məsələsinə baxır.

## 4. Mühüm mühasibat uçotu mühakimələri və proqnozları

Bank maliyyə hesabatlarında tanınan məbləğlərə və növbəti maliyyə ilində aktivlərin və öhdəliklərin balans dəyərlərinə təsir göstərən proqnoz və fərziyyələrdən istifadə edir. Proqnoz və mühakimələr aramsız qiymətləndirilir və rəhbərliyin təcrübəsinə və digər amillərə, o cümlədən mövcud şəraitdə məntiqi hesab olunan gələcək hadisələrin gözlənilməsinə əsaslanır. Bundan əlavə, rəhbərlik uçot qaydalarını tətbiq etdiyi zaman müəyyən mühakimələri irəli sürür. Maliyyə hesabatlarında tanınmış məbləğlərə daha çox təsir göstərən mühakimələrə və növbəti maliyyə ilində aktivlərin və öhdəliklərin balans dəyərində əhəmiyyətli düzəlişlərin aparılmasına səbəb ola bilən proqnozlara aşağıdakılar daxildir:

*Kreditlərin dəyərsizləşməsi üçün ehtiyat*
Bank müntəzəm olaraq kredit portfelini aktivlərin dəyərsizləşməsi baxımından nəzərdən keçirir. Mənfəət və zərərdə dəyərsizləşmə zərərini qeydə almaq zərurətinin olub-olmadığını müəyyən edərkən Bank, portfeldə konkret kreditin azalması müəyyən edilənə qədər, kredit portfelindən qiymətləndirilmiş gələcək pul vəsaitləri hərəkətində ölçülə bilən azalmanı göstərən hər hansı məlumatın olub-olmamasına dair mühakimə yürütməlidir. Bu sübuta Bankın aktivləri üzrə öhdəliklərin yerinə yetirilməməsi ilə əlaqəli olan, borc alanların ödəniş statusunda mənfi dəyişikliklərin olmasını göstərən məlumatlar daxil ola bilər. Rəhbərlik kredit riski xüsusiyyəltəri olan aktivlər üçün tarixi zərər təcrübəsi əsasında qiymətləndirmələri və pul vəsaitlərinin hərəkətini planlaşdıranda portfeldəki sübutlara oxşar obyektiv dəyərsizləşmə sübutunu isifadə edir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 4. Mühüm mühasibat uçotu mühakimələri və proqnozları (davamı)

Bundan əlavə, Bankın idarəetmə uçot sistemi bəzi hallarda müəyyən qrup kreditlər üçün çəkilmiş zərərlər üzrə lazım olan məlumatın toplanmasına yol vermir. Rəhbərlik oxşar kredit riski profili olan kredit qrupları üçün qiymətləndirmələrdən və çəkilmiş zərər modellərindən istifadə edir. Gələcək pul vəsaitləri hərəkətlərinin məbləği və vaxtının qiymətləndirilməsi üçün istifadə edilən metodologiya və fərziyyələr müntəzəm olaraq zərər proqnozları ilə zərər təcrübəsi arasındakı fərqləri azaltmaq məqsədilə nəzərdən keçirilir.

*Girovun dəyərinin müəyyən edilməsi*

Rəhbərlik müntəzəm olaraq girovun bazar dəyərini nəzərdən keçirir. Rəhbərlik, cari şəraitləri əks etdirmək məqsədilə, girovun ədalətli dəyərində düzəliş aparmaq məqsədilə təcrübəli mühakimələrindən və ya müstəqil rəyindən istifadə edir. Tələb olunan girovun məbləği və növü tərəf-müqabilin kredit risklərinin qiymətləndirilməsindən asılıdır.

*Maliyyə alətlərinin ədalətli dəyəri*

Ədalətli dəyər maliyyə alətinin məcburi satış və ya ləğv etmə olmayan əməliyyatı həyata keçirmək arzusunda olan tərəflər arasında cari əməliyyatda mübadilə edilə bilən məbləğdir və fəal birjada müəyyən edilmiş qiymətlə daha yaxşı sübuta yetirilir. Maliyyə alətlərinin təxmini ədalətli dəyərləri Bank tərəfindən mövcud bazar məlumatından və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilir. Bununla bərabər, təxmini real dəyəri müəyyən etmək məqsədilə bazar məlumatlarını şərh etmək üçün mülahizələr tələb olunur. Fəal bazarda alınıb-satılmayan maliyyə alətlərinin ədalətli dəyərləri qiymətləndirmə mexanizmlərindən istifadə etməklə müəyyən edilir. İmkan dairəsində modellər yalnız müşahidə olunan məlumatlardan istifadə edir, lakin müəyyən sahələr rəhbərlikdən qiymətləndirmələrin aparılmasını tələb edir. Bu amillərə dair fərziyyələrin dəyişməsi hesabatda göstərilən ədalətli dəyərlərə təsir göstərə bilər. Azərbaycan Respublikası inkişaf edən bazarların müəyyən xüsusiyyətlərini nümayiş etdirməyə, iqtisadi şəraitlər isə maliyyə bazarlarında fəaliyyətin həcmini məhdudlaşdırmağa davam edir. Bazar kotirovkaları köhnə ola bilər və ya məcburi satış əməliyyatlarını əks etdirə bilər və beləliklə də maliyyə alətlərinin real dəyərlərini əks etdirməyə bilər. Rəhbərlik maliyyə alətlərinin real dəyərlərini təxmin edərkən mövcud olan bütün bazar məlumatlarından istifadə edə bilər.

*Binaların yenidən qiymətləndirilməsi*

Bank müntəzəm olaraq binalarının dəyərinin ədalətli dəyərə uyğun olub-olmamasını nəzərdən keçirir və binaların cari balans dəyərinin onun ədalətli dəyərindən çox fərqlənmədiyini təmin etmək üçün yenidən qiymətləndirmə aparır. Yenidən qiymətləndirilmiş binalar qalan istifadə müddətinə uyğun olaraq amortizasiya olunur. Bank müvafiq qiymətləndirmə mexanizmlərindən və yerli bazarda daşınmaz əmlakla aparılan əməliyyatlar haqqında məlumatlardan istifadə etməklə yenidən qiymətləndirmə aparmaq məqsədilə müstəqil qiymətləndiriciyə müraciət etmişdir.

*Vergilər*

Azərbaycanın qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez edilən dəyişikliklərə məruzdur. Cari ilin mənfəəti kapitallaşdırılarsa, maliyyə təşkilatlarının 1 yanvar 2009-cu ildən etibarən (3 ardıcıl ildə) mənfəət vergisinin ödənilməsindən azad edilməsinə yol verən və Bankın əməliyyat və əqdlərinə tətbiq edilən yeni qanun da daxil olmaqla, həmin qanunvericiliyin və dəyişikliklərin rəhbərlik tərəfindən şərhi müvafiq orqanlar tərəfindən qəbul edilməyə bilər. Nəticədə, əlavə iri vergi, cərimə və faiz hesablana bilər. Vergi yoxlamaları yoxlama ili də daxil olmaqla üç təqvim ili üzrə aparıla bilər. Rəhbərlik hesab edir ki, 31 dekabr 2009-cu il tarixinə müvafiq qanunvericiliyin rəhbərlik tərəfindən tətbiq edilən şərhi münasibdir və Şirkətin vergi mövqeyi qəbul ediləcəkdir.

*Əlaqəli tərəflə əməliyyatlar*

Adi fəaliyyətində Bank əlaqəli tərəflərlə əməliyyatlar aparır. 39 saylı MUBS maliyyə alətlərinin ilk öncə ədalətli dəyərləri əsasında tanınmasını tələb edir. Müəyyən əməliyyatlar fəal bazarda aparılmadığı təqdirdə, onların bazar və ya qeyri-bazar faiz dərəcələri ilə qiymətləndirilməsini müəyyən etmək üçün mühakimələr tətbiq edilir. Mühakimə əlaqəli olmayan tərəflər arasında oxşar əməliyyatlar üçün qiymətlərin təyin edilməsi və effektiv faiz dərəcəsinin təhlili əsasında verilir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 5. Seqment haqqında məlumat

İdarəetmə məqsədləri üçün Bank məhsullara və xidmətlərə görə iki əməliyyat seqmentində təşkil olunmuşdur: Korporativ bank əməliyyatları və Fərdi bank əməliyyatları:

| | |
|---|---|
| Korporativ bank əməliyyatları | Korporativ müştərilər və təşkilatlar üçün əsas etibarı ilə ssudaların verilməsi və digər kredit xidmətlərinin göstərilməsi, depozitlərin cəlb olunması və cari hesabların açılması. |
| Fərdi bank əməliyyatları | Fiziki şəxslərin əsas etibarı ilə depozitlərinin cəlb olunması, istehlakçı kreditlərinin, overdraftların verilməsi, kredit kart xidmətlərinin və vəsaitlərin köçürülməsi xidmətlərinin göstərilməsi. |

Əməliyyat seqmentləri arasında əməliyyatlar üçüncü tərəflərlə əməliyyatlarla oxşar qaydada, bir-birindən asılı olmayan tərəflər arasında əməliyyatlar kimi həyata keçirilir.

2009-cu ildə hər hansı bir xarici müştəri və ya tərəf-müqabil ilə əməliyyatlardan Bankın cəmi gəlirinin 10%-inə və ya daha çox hissəsinə bərabər olan məbləğdə gəlir əldə edilməmişdir.

| | *Fərdi bank əməliyyatları 2009-cu il* | *Korporativ bank əməliyyatları 2009-cu il* | *Bölüşdürülməmiş 2009-cu il* | *Cəmi 2009-cu il* | *Fərdi bank əməliyyatları 2008-ci il* | *Korporativ bank əməliyyatlar 2008-ci il* | *Bölüşdürülməmiş 2008-ci il* | *Cəmi 2008-ci il* |
|---|---|---|---|---|---|---|---|---|
| ***Gəlir*** | | | | | | | | |
| **Xarici əməliyyat gəliri:** | | | | | | | | |
| Xalis faiz gəliri | 6,176 | 13,380 | - | 19,556 | 8,947 | 5,751 | - | 14,698 |
| Xalis haqq və komissiya gəliri | 13,196 | 16,240 | - | 29,436 | 15,568 | 12,190 | - | 27,758 |
| Xalis valyuta gəliri | - | - | 2,741 | 2,741 | - | - | 1,692 | 1,692 |
| Digər seqment gəlirlər | - | 125 | - | 125 | - | 272 | - | 272 |
| Digər seqment xərcləri | (18,734) | (21,411) | - | (40,145) | (15,795) | (16,390) | - | (32,185) |
| **Cəmi əməliyyat gəliri** | **638** | **8,334** | **2,741** | **11,713** | **8,720** | **1,823** | **1,692** | **12,235** |
| Müştərilərə verilmiş kreditlər üzrə dəyərsizləşmə xərci | (12,512) | (6,936) | - | (19,448) | (4,604) | (787) | - | (5,391) |
| ***Nəticələr*** | | | | | | | | |
| Seqment üzrə nəticələr | (11,874) | 1,398 | 2,741 | (7,735) | 4,116 | 1,036 | 1,692 | 6,844 |
| Bölüşdürülməmiş xərclər | | | (1,055) | (1,055) | | | (1,572) | (1,572) |
| **Mənfəət vergisi gəlirindən (xərcindən) əvvəl (zərər) mənfəət** | | | | **(8,790)** | | | | **5,272** |
| Mənfəət vergisi gəliri (xərci) | | | 343 | 343 | | | (1,126) | (1,126) |
| **İl üzrə (zərər) mənfəət** | | | | **(8,447)** | | | | **4,146** |
| **Aktivlər və öhdəliklər** | | | | | | | | |
| Seqment üzrə aktivlər | 243,287 | 271,584 | - | 514,871 | 317,285 | 266,595 | - | 583,880 |
| Bölüşdürülməmiş aktivlər | | | 1,669 | 1,669 | | | 1,647 | 1,647 |
| **Cəmi aktivlər** | | | | **516,540** | | | | **585,527** |
| Seqment üzrə öhdəliklər | 203,858 | 227,570 | - | 431,428 | 267,907 | 225,104 | - | 493,011 |
| Bölüşdürülməmiş öhdəliklər | | | 7,845 | 7,845 | | | 8,599 | 8,599 |
| **Cəmi öhdəliklər** | | | | **439,273** | | | | **501,610** |
| **Seqment üzrə digər məlumat** | | | | | | | | |
| Əsaslı xərclər | 3,328 | 3,716 | - | 7,044 | 9,488 | 7,972 | - | 17,460 |
| Assosiasiya olunmuş müəssisəyə investisiyalar | - | - | 1,360 | 1,360 | - | - | 1,464 | 1,464 |

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 5. Seqment haqqında məlumat (davamı)

### Coğrafi məlumat

Bank iki əsas coğrafi seqmentdə fəaliyyət göstərir: (a) Azərbaycan, və (b) Digər ölkələr. Aşağıdakı cədvəldə 31 dekabr 2009-cu və 2008-ci il tarixlərində başa çatan illər üzrə Bankın üçüncü tərəf müştərilərindən və uzunmüddətli aktivlərindən gəlirlərin, müvafiq olaraq, müştərilərin və aktivlərin yerləşməsi üzrə bölüşdürülməsi təqdim olunur:

| | *Azərbaycan 2009-cu il* | *Digər ölkələr 2009-cu il* | *Cəmi 2009-cu il* | *Azərbaycan 2008-ci il* | *Digər ölkələr 2008-ci il* | *Cəmi 2008-ci il* |
|---|---|---|---|---|---|---|
| *Xarici gəlir* | | | | | | |
| Xalis faiz gəliri | 19,556 | - | 19,556 | 14,698 | - | 14,698 |
| Digər qeyri-faiz gəliri | 32,250 | 52 | 32,302 | 26,248 | 3,474 | 29,722 |
| **Cəmi xarici gəlir** | **51,806** | **52** | **51,858** | **40,946** | **3,474** | **44,420** |
| **Cəmi aktivlər** | **508,135** | **8,405** | **516,540** | **558,790** | **26,737** | **585,527** |

## 6. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Kassada olan pul vəsaitləri | 66,520 | 76,289 |
| Azərbaycan Respublikasının Mərkəzi Bankında cari hesablar | 32,728 | 5,705 |
| Digər kredit təşkilatlarında cari hesablar | 3,680 | 31,376 |
| Banklarda 90 günədək müddəti olan depozitlər | 1,840 | - |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **104,768** | **113,370** |

31 dekabr 2009-cu il tarixinə banklardakı cari hesablara yerli və xarici banklarda, müvafiq olaraq, 146 AZN (2008-ci il–1,843 AZN) və 3,535 AZN (2008-ci il – AZN 29,533 AZN) məbləğində faiz hesablanmayan müxbir hesabların qalıqları daxildir.

31 dekabr 2009-cu il tarixinə banklarda 13% effektiv illik faiz dərəcəsi ilə 90 günədək müddəti olan depozitlər yerləşdirmişdir.

## 7. Maliyyə təşkilatlarından alınacaq məbləğlər

Maliyyə təşkilatlarından alınacaq məbləğlər aşağıdakılardan ibarətdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| ARMB-da məcburi ehtiyyatlar | 1,020 | 11,160 |
| 90 günədək müddəti olan depozitlər | 3,163 | - |
| Bloklaşdırılmış hesablar | 4,452 | 808 |
| **Maliyyə təşkilatlarından alınacaq məbləğlər** | **8,635** | **11,968** |

Banklardan müştərilərdən cəlb edilmiş vəsaitlərin əvvəlki ay üzrə orta səviyyəsinin 0.5%-inə (2008-ci il – 6%) bərabər olan faiz qazandırmayan pul depozitinin (məcburi ehtiyatın) ARMB-da saxlanması tələb edilir. Bankın bu depoziti geri almaq imkanı yerli qanunvericiliklə məhdudlaşdırılır.

31 dekabr 2009-cu il tarixinə 11%-13% effektiv illik faiz dərəcəsi ilə müddəti 2010-cu ilin yanvar ayında başa çatan banklararası müddətli depozitlər iki Azərbaycan bankında yerləşdirilmişdir.

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 7. Maliyyə təşkilatlarından alınacaq məbləğlər (davamı)

Bloklaşdırılmış hesablar VISA International vasitəsi ilə 1,488 AZN (2008-ci il: 668 AZN) məbləğində və MasterCard Europe SPRL vasitəsi ilə 140 AZN (2008-ci il: 139 AZN). məbləğində hesablaşma əməliyyatları üçün təminat olaraq tərəf-müqabil banka qoyumuş girovlardan ibarətdir. 2009-cu ildə 2,823 AZN məbləğində bloklaşdırılmış hesab İƏİT tərəf-müqabil banka bloklaşdırılmış müştəri hesabları ilə dəstəklənən müştərilərin açıq öhdəlikləri üçün pul təminatı kimi girov qoyulmuşdur.

## 8. Müştərilərə verilmiş kreditlər

Müştərilərə verilmiş kreditlər aşağıdakılardan ibarətdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Korporativ kreditlər | 127,580 | 80,580 |
| Dövlət təşkilatları | 116,084 | 207,532 |
| Fiziki şəxslərə verilmiş kreditlər - istehlakçı kreditləri | 36,431 | 28,875 |
| Fiziki şəxslərə verilmiş kreditlər - nəqliyyat vasitələri | 22,769 | 22,835 |
| Fiziki şəxslərə verilmiş kreditlər - ipoteka kreditlər | 19,206 | 11,885 |
| Fiziki şəxslərə verilmiş kreditlər – sahibkarlar | 13,331 | 8,590 |
| Fiziki şəxslərə verilmiş kreditlər - mənzil təmiri | 10,016 | 11,353 |
| **Müştərilərə verilmiş kreditlər, ümumi** | **345,417** | **371,650** |
| Çıxılsın – Kreditin dəyərsizləşməsi üçün ehtiyat | (28,140) | (8,692) |
| **Müştərilərə verilmiş kreditlər, xalis** | **317,277** | **362,958** |

### Kreditin dəyərsizləşməsi üçün ehtiyat

Müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi üçün ehtiyatın siniflər üzrə tutuşdurulması aşağıdakı cədvəldə təqdim olunur:

| | *Korporativ kreditlərin verilməsi 2009* | *Dövlət təşkilat ları 2009* | *Fiziki şəxslərə verilmiş kreditlər – mənzil təmiri 2009* | *Fiziki şəxslərə verilmiş kreditlər - nəqliyyat vasitələri 2009* | *Fiziki şəxslərə verilmiş kreditlər - İstehlakçı kreditləri 2009* | *Fiziki şəxslərə verilmiş kreditlər – sahibkarlar 2009* | *Fiziki şəxslərə verilmiş kreditlər - ipoteka kreditlər 2009* | *Cəmi 2009* |
|---|---|---|---|---|---|---|---|---|
| **1 yanvar 2009-cu il** | **6,821** | **-** | **361** | **455** | **639** | **180** | **236** | **8,692** |
| İl üzrə xərc | 11,127 | 1,385 | 1,646 | 75 | 2,580 | 598 | 2,037 | 19,448 |
| **31 dekabr 2009-cu il** | **17,948** | **1,385** | **2,007** | **530** | **3,219** | **778** | **2,273** | **28,140** |
| Fərdi şəkildə dəyərsizləşmə | 12,876 | 745 | 905 | 7 | 1,392 | - | - | 15,925 |
| Məcmu şəkildə dəyərsizləşmə | 5,072 | 640 | 1,102 | 523 | 1,827 | 778 | 2,273 | 12,215 |
| | **17,948** | **1,385** | **2,007** | **530** | **3,219** | **778** | **2,273** | **28,140** |
| Fərdi şəkildə qiymətləndirilmiş dəyərsizləşmə ehtiyatı çıxıldıqdan əvvəl fərdi şəkildə dəyərsizləşməsi müəyyən edilmiş kreditlərin ümumi məbləği | **26,416** | **1,791** | **905** | **7** | **2,923** | **-** | **-** | **32,042** |

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 8. Müştərilərə verilmiş kreditlər (davamı)

### Kreditin dəyərsizləşməsi üçün ehtiyat (davamı)

| | *Korporativ kreditlərin verilməsi 2008* | *Dövlət təşkilatları 2008* | *Fiziki şəxslərə verilmiş kreditlər - mənzil təmiri 2008* | *Fiziki şəxslərə verilmiş kreditlər - nəqliyyat vasitələri 2008* | *Fiziki şəxslərə verilmiş kreditlər - İstehlakçı kreditləri 2008* | *Fiziki şəxslərə verilmiş kreditlər – sahibkarlar 2008* | *Fiziki şəxslərə verilmiş kreditlər - ipoteka kreditlər 2008* | *Cəmi 2008* |
|---|---|---|---|---|---|---|---|---|
| **1 yanvar 2008-ci il** | **2,044** | **173** | **432** | **235** | **228** | **130** | **59** | **3,301** |
| İl üzrə xərc | 4,777 | (173) | (71) | 220 | 411 | 50 | 177 | 5,391 |
| **31 dekabr 2008-ci il** | **6,821** | **-** | **361** | **455** | **639** | **180** | **236** | **8,692** |
| Fərdi şəkildə dəyərsizləşmə | 117 | - | 10 | - | - | - | - | 127 |
| Məcmu şəkildə dəyərsizləşmə | 6,704 | - | 351 | 455 | 639 | 180 | 236 | 8,565 |
| | **6,821** | **-** | **361** | **455** | **639** | **180** | **236** | **8,692** |
| Fərdi şəkildə qiymətləndirilmiş dəyərsizləşmə ehtiyatı çıxıldıqdan əvvəl fərdi şəkildə dəyərsizləşməsi müəyyən edilmiş kreditlərin ümumi məbləği | **117** | **-** | **10** | **-** | **-** | **-** | **-** | **127** |

### Fərdi şəkildə dəyərsizləşmiş kreditlər

31 dekabr 2009-cu il tarixində başa çatan il üzrə fərdi şəkildə dəyərsizləşmə ehtiyatı tanınmış kreditlər üzrə hesablanmış faiz gəliri 3,055 AZN (2008-ci il - 1,711 AZN) təşkil edir.

### Girov və kreditin keyfiyyətini artıran digər amillər

Tələb olunan girovun məbləği və növü tərəf-müqabilin kredit riskinin qiymətləndirilməsindən asılıdır. Girov növlərinin münasibliyi və qiymətləndirmə parametrlərinə dair qaydalar tətbiq edilmişdir.

Alınmış girovların əsas növləri aşağıdakılardır:

- Korporativ kreditlərin verilməsi üçün daşınmaz əmlak və nəqliyyat vasitələri üzrə girovlar,
- Fərdi kreditlərin verilməsi üçün yaşayış mülkləri üzrə girovlar.

Rəhbərlik girovun bazar dəyərinə nəzarət edir, müvafiq razılaşmaya uyğun olaraq əlavə girov tələb edir və kreditin dəyərsizləşməsi üçün ehtiyatın münasibliyini nəzərdən keçirdiyi zaman əldə etdiyi girovun bazar dəyərinə nəzarət edir.

### Müştərilərə verilmiş kreditlərin konsentrasiyası

31 dekabr 2009-cu ildə Bankda on ən iri üçüncü tərəf borcalanlardan alınacaq 160,186 AZN məbləği ilə təmsil olunan kredit konsentrasiyası olmuşdur (ümumi kredit portfelinin 46%-i) (2008-ci il –231,771 AZN və ya 62% ). Bu kreditlər üzrə 11,340 AZN (2008-ci il –5,253 AZN) məbləğində ehtiyat tanınmışdır.

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 8. Müştərilərə verilmiş kreditlər (davamı)

### Müştərilərə verilmiş kreditlərin konsentrasiyası (davamı)

Kreditlər aşağıdakı növ müştərilərə verilmişdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Özəl müəssisələr | 127,580 | 80,580 |
| Dövlət şirkətləri | 116,084 | 207,532 |
| Fiziki şəxslər | 88,422 | 74,948 |
| Fərdi sahibkarlar | 13,331 | 8,590 |
| **Müştərilərə verilmiş kreditlər, ümumi** | **345,417** | **371,650** |
| Çıxılsın – Kreditin dəyərsizləşməsi üçün ehtiyat | (28,140) | (8,692) |
| **Müştərilərə verilmiş kreditlər, xalis** | **317,277** | **362,958** |

Kreditlər əsasən Azərbaycanda aşağıdakı sənaye sektorları üzrə verilmişdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Tikinti | 160,073 | 217,347 |
| Fiziki şəxslər | 101,753 | 83,538 |
| Ticarət və xidmətlər | 40,192 | 8,734 |
| İstehsal | 38,613 | 53,777 |
| Kənd təsərrüfatı | 4,786 | 8,254 |
| **Müştərilərə verilmiş kreditlər, ümumi** | **345,417** | **371,650** |
| Çıxılsın – Kreditin dəyərsizləşməsi üçün ehtiyat | (28,140) | (8,692) |
| **Müştərilərə verilmiş kreditlər, xalis** | **317,277** | **362,958** |

Cəmi 19,206 AZN (2008-ci il: 11,885 AZN) məbləğində olan cəmi ipoteka kreditlərindən Azərbaycan İpoteka Fondu və Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə borclama razılaşmaları ilə əhatə olunan proqramlar əsasında, müvafiq olaraq, 4,252 AZN (2008-ci il: 2,815 AZN) və 12,046 AZN (2008-ci il: 9,071 AZN) verilmişdir.

## 9. Satış üçün mövcud oıan investisiya qiymətli kağızları

Satış üçün mövcud olan investisiya qiymətli kağızları korporativ səhmlərdən ibarətdir. Hərəkət belə olmuşdur:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesalanmış)* |
|---|---|---|
| **1 yanvarda balans dəyəri** | 185 | 185 |
| Alışlar | 125 | - |
| **31 dekabrda balans dəyəri** | **310** | **185** |

31 dekabr 2009-cu il tarixində başa çatan il ərzində Bank Azərbaycan Respublikasının Beynəlxalq Bankının bir səhmin nominal dəyəri 0.2 AZN olmaqla əlavə 625,000 aid səhmini almışdır.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 9. Satış üçün mövcud oıan investisiya qiymətli kağızları (davamı)

Satış üçün mövcud olan korporativ səhmlərə investisiya qiymətli kağızları aşağıdakılardır:

| *Adı* | *Fəaliyyət növü* | *Qeydiyyat ölkəsi* | 31 dekabr 2009-cu il *Balans dəyəri* | 31 dekabr 2009-cu il *% səhm* | 31 dekabr 2008-ci il *Balans dəyəri* | 31 dekabr 2008-ci il *% səhm* |
|---|---|---|---|---|---|---|
| Bakı Fond Birjası | Fond Birjası | Azərbaycan Respublikası | 60 | 5.26% | 60 | 5.26% |
| Azərbaycan Beynəlxalq Bankı | Bank fəaliyyəti | Azərbaycan Respublikası | 250 | 0.13% | 125 | 0.07% |
| **Cəmi** | | | **310** | | **185** | |

Rəhbərlik hesab edir ki, bu investisiyaların ədalətli dəyəri onların balans dəyərlərindən əhəmiyyətli fərqlənmir.

## 10. Assosiasiya olunmuş müəssisəyə investisiyalar

Aşağıdakı assosiasiya olunmuş müəssisə iştirak payı metodu ilə uçota alınır:

**2009-cu il və 2008-ci il**

| **Assosiasiya olunmuş müəssisə** | *Mülkiyyət / Səslər, %* | *Ölkə* | *Təsis olunduğu tarix* | *Sənaye* | *Satınalma tarixi* |
|---|---|---|---|---|---|
| Bakı Banklararası Valyuta Birjası | 40% | Azərbaycan Respublikası | 21 iyun 1993-cü il | Valyuta Birjası | 21 iyun 1993-cü il |

Aşağıdakı cədvəldə assosiasiya olunmuş müəssisələrə investisiyalarda hərəkət icmal olunur:

| | *2009-cu il* | *2008-ci il* |
|---|---|---|
| **Assosiasiya olunmuş müəssisələrə investisiyalar, 1 Yanvar tarixinə** | **1,464** | **1,557** |
| Zərərdə pay | (104) | (93) |
| **Assosiasiya olunmuş müəssisələrə investisiyalar, 31 Dekabr tarixinə** | **1,360** | **1,464** |

31 dekabr 2009-cu il tarixində başa çatan il üzrə vergidən sonra assosiasiya olunmuş müəssisənin 104 AZN (2008-ci il: 93 AZN) məbləğində zərərdə payı maliyyə nəticələri haqqında hesabatda qeydə alınmışdır.

31 dekabr 2009-cu ildə Bankın assosiasiya olunmuş müəssisədə payları və icmal maliyyə məlumatı, o cümlədən aktivlər, öhdəliklər, gəlirlər və zərər aşağıda göstərilir:

| **Assosiasiya olunmuş müəssisənin aktivləri və öhdəlikləri** | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Aktivlər | 3,588 | 3,904 |
| Öhdəliklər | (9) | (62) |
| **Xalis aktivlər** | **3,579** | **3,842** |

| **Assosiasiya olunmuş müəssisənin gəliri və zərər** | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Gəlir | 271 | 329 |
| Zərər | (262) | (234) |

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 11. Əmlak və avadanlıqlar

Əmlak və avadanlıqlarda hərəkət aşağıdakı kimi olmuşdur:

| | *Binalar* | *İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri* | *Kompüterlər və digər avadanlıq* | *Mebel, qurğular, nəqliyyat vasitələri və sair* | *Tamamlan-mamış tikinti* | *Cəmi* |
|---|---|---|---|---|---|---|
| **Maya dəyəri və ya yenidən qiymətləndirmə** | | | | | | |
| **31 dekabr 2008-ci il (yenidən hesablanmış)** | **66,781** | **424** | **8,927** | **19,440** | **254** | **95,826** |
| Əlavələr | 1,408 | 229 | 1,220 | 2,804 | - | 5,661 |
| Silinmələr | - | (92) | (70) | (464) | - | (626) |
| Köçürmələr | 237 | - | - | - | (237) | - |
| Yenidən qiymətləndirmənin təsiri | 1,387 | - | - | - | - | 1,387 |
| **31 dekabr 2009-cu il** | **69,813** | **561** | **10,077** | **21,780** | **17** | **102,248** |
| **Yığılmış köhnəlmə** | | | | | | |
| **31 dekabr 2008-ci il (yenidən hesablanmış)** | **(3,862)** | **(76)** | **(3,640)** | **(9,527)** | **-** | **(17,105)** |
| Köhnəlmə xərci | (3,594) | (48) | (1,742) | (3,785) | - | (9,169) |
| Silinmələr | - | 46 | 104 | 379 | - | 529 |
| **31 Dekabr 2009-cu il** | **(7,456)** | **(78)** | **(5,278)** | **(12,933)** | **-** | **(25,745)** |
| **Xalis balans dəyəri:** | | | | | | |
| **31 dekabr 2008-ci il (yenidən hesablanmış)** | **62,919** | **348** | **5,287** | **9,913** | **254** | **78,721** |
| **31 dekabr 2009-cu il** | **62,357** | **483** | **4,799** | **8,847** | **17** | **76,503** |

| | *Binalar* | *İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri* | *Kompüterlər və digər ofis avadanlıqları* | *Mebel, qurğular, nəqliyyat vasitələri və sair* | *Tamamlan mamış tikinti* | *Cəmi* |
|---|---|---|---|---|---|---|
| **Maya dəyəri və ya yenidən qiymətləndirmə** | | | | | | |
| **31 dekabr 2007-ci il (yenidən hesablanmış)** | **61,123** | **173** | **5,946** | **15,919** | **1,648** | **84,809** |
| Əlavələr | 4,264 | 251 | 2,981 | 3,521 | - | 11,017 |
| Köçürmələr | 1,394 | - | - | - | (1,394) | - |
| **31 dekabr 2008-ci il (yenidən hesablanmış)** | **66,781** | **424** | **8,927** | **19,440** | **254** | **95,826** |
| **Yığılmış köhnəlmə** | | | | | | |
| **31 dekabr 2007-ci il (yenidən hesablanmış)** | **(458)** | **(54)** | **(2,494)** | **(6,296)** | **-** | **(9,302)** |
| Köhnəlmə xərci | (3,404) | (22) | (1,146) | (3,231) | - | (7,803) |
| **31 dekabr 2008-ci il (yenidən hesablanmış)** | **(3,862)** | **(76)** | **(3,640)** | **(9,527)** | **-** | **(17,105)** |
| **Xalis balans dəyəri:** | | | | | | |
| **31 dekabr 2007-ci il (yenidən hesablanmış)** | **60,665** | **119** | **3,452** | **9,623** | **1,648** | **75,507** |
| **31 dekabr 2008-ci il (yenidən hesablanmış)** | **62,919** | **348** | **5,287** | **9,913** | **254** | **78,721** |

Tamamlanmamış tikinti filial binaları və avadanlığının tikintsi və təmirindən ibarətdir. Tamamlandıqdan sonra aktivlər əmlak və avadanlıqlara köçürülür.

Bank binalarının ədalətli dəyərini müəyyən etmək məqsədilə Rec-Invest müstəqil qiymətləndiricini cəlb etmişdir. Ədalətli dəyər bazar sübutlarına istinadən müəyyən edilir. Qiymətləndirmə metodu kimi diskont edilmiş gəlir və müqayisə təhlilindən istifadə edilmişdir. Qiymətləndirmənin nəticələrinə əsaslanaraq 31 dekabr 2008-ci ildə binaların balans dəyərinin 11,119 AZN (2007-ci il: 11,916 AZN) az göstərilməsi müəyyən olunmuşdur, bunun nəticəsində isə Qeyd 2-də göstərildiyi kimi əvvəl buraxılmış maliyyə hesabatlarında yenidən hesablamalar aparılmışdır. Yenidən qiymətləndirmənin son tarixi 31 dekabr 2009-cu ildir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 11. Əmlak və avadanlıqlar (davamı)

Binalar dəyər modelindən istifadə etməklə qiymətləndirilsəydi, balans dəyərləri belə olardı:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Maya dəyəri | 35,892 | 34,247 |
| Yığılmış köhnəlmə | (3,582) | (1,616) |
| **Xalis balans dəyəri** | **32,310** | **32,631** |

## 12. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlərdə hərəkət aşağıdakı kimi olmuşdur:

| | *Lisenziyalar* | *Kompüter proqramı* | *Cəmi* |
|---|---|---|---|
| **Maya dəyəri** | | | |
| **31 dekabr 2007-ci il** | **1,744** | **132** | **1,876** |
| Əlavələr | 26 | 114 | 140 |
| **31 dekabr 2008-ci il** | **1,770** | **246** | **2,016** |
| Əlavələr | 1,049 | 333 | 1,382 |
| **31 dekabr 2009-cu il** | **2,819** | **579** | **3,398** |
| | | | |
| **Yığılmış köhnəlmə** | | | |
| **31 dekabr 2007-ci il** | **(130)** | **(38)** | **(168)** |
| Amortizasiya xərci | (173) | (14) | (187) |
| **31 dekabr 2008-ci il** | **(303)** | **(52)** | **(355)** |
| Amortizasiya xərci | (176) | (26) | (202) |
| **31 dekabr 2009-cu il** | **(479)** | **(78)** | **(557)** |
| **Xalis balans dəyəri:** | | | |
| **31 dekabr 2009-cu il** | **1,467** | **194** | **1,661** |
| **31 dekabr 2008-ci il** | **2,340** | **501** | **2,841** |

31 dekabr 2009-cu il və 2008-ci il tarixlərinə lisenziyalar əsasən 1,213 AZN məbləğində Flexcube System mühasibat uçotu proqramı üçün lisenziya və bank fəaliyyətinin həyata keçirilməsi üçün istifadə olunan məlumat emalı proqramları ilə bağlı digər lisenziyalardan ibarətdir. 2009-cu il ərzində Bankda plastik kartların emalı mərkəzini istifadə etmək və yaratmaq məqsədilə Bank 1,049 AZN məbləğində TranzWare proqram lisenziyasını almşdır. 31 dekabr 2009-cu ildə plastik kartların emalı mərkəzinin alınması və yaradılması ilə bağlı əsaslı məsrəf öhdəliyi 345 AZN (2008-ci il: 1,294 AZN) təşkil edirdi.

## 13. Vergilər

Korporativ mənfəət vergisi xərci aşağıdakılardan ibarətdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Cari vergi xərci | - | 565 |
| Təxirə salınmış mənfəət vergisi (ödənişi) xərci – müvəqqəti fərqlərin yaranması və aradan götürülməsi | (753) | 561 |
| Çıxılsın: Digər ümumi gəlirdə tanınmış təxirə salınmış mənfəət vergisi | 410 | - |
| **Mənfəət vergisi (gəliri) xərci** | **(343)** | **1,126** |

Bankların, sığorta və yenidən sığorta şirkətlərinin fəaliyyətinin gücləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanununa (N710-IIIQ saylı 28 oktyabr 2008-ci il tarixli) uyğun olaraq, əgər cari ilin mənfəəti kapitallaşdırılmaya yönələrsə maliyyə təşkilatları 1 yanvar 2009-cu il tarixindən etibarən 3 ardıcıl il ərzində mənfəət vergisinin ödənilməsindən azad edilir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 13. Vergilər (davamı)

Nəticədə, 11 dekabr 2008-ci il və 09 aprel 2010-cu il tarixlərində keçirilmiş səhmdarların iclasında Bank 2009-2011-ci illər ərzində qanuna uyğun olaraq vergidən azad edilmədən istifadə etmək qərarını qəbul etmişdir. Lakin, Bank 2009-cu ili mənfəətlə başa vurmamışdır və beləliklə də, kapitallaşdırılmalı olan mənfəət əldə edilmədiyi üçün, 2009-cu il üzrə vergidən azad edilmək hüququndan istifadə etməyəcəkdir.

19 iyun 2009-cu il tarixində Vergi Məcəlləsinə düzəliş edilərək, korporativ mənfəət vergisi 1 yanvar 2010-cu il tarixindən 22%-dən 20%-dək azaldılmışdır. Bankların mənfəətindən vergi dərəcəsi 2009-cu və 2008-ci illər üçün 22% olmuşdur.

Effektiv mənfəət vergisi dərəcəsi yerli qanunvericiliyə uyğun mənfəət vergisi dərəcəsindən fərqlənir. Aşağıdakı cədvəldə yerli qanunvericilik əsasında mənfəət vergisi xərci ödənişi faktiki xərclərlə tutuşdurulur:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəl mənfəət/(zərər)** | **(8,790)** | **5,272** |
| Yerli qanunvericiliyə uyğun olan mənfəət vergisinin dərəcəsi | 22% | 22% |
| **Yerli qanunvericiliyə uyğun dərəcə ilə nəzəri mənfəət vergisi xərci (ödənişi)** | **(1,933)** | **1,160** |
| Vergi məqsədləri üçün çıxılmayan və ya qiymətləndirilməyən maddələrin vergiyə təsiri. | | |
| - Mənfəət vergisinin hesablanması üçün nəzərə alınmayan mənfəət | (37) | (421) |
| - Çıxılmayan xərclər | 282 | 65 |
| Vergi dərəcəsində dəyişikliyin təsiri | 798 | - |
| Digər | 547 | 322 |
| **Mənfəət vergisi (gəliri) xərci** | **(343)** | **1,126** |

31 dekabr tarixinə təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri və onların müvafiq illərdə hərəkətləri aşağıdakılardan ibarətdir:

| | | *Müvəqqəti fərqlərin yaranması və aradan götürülməsi* | | | *Müvəqqəti fərqlərin yaranması və aradan götürülməsi* | | |
|---|---|---|---|---|---|---|---|
| | *2007* | *Maliyyə nəticələri haqqında hesabatda* | *Digər ümumi gəlirdə* | *2008* | *Maliyyə nəticələri haqqında hesabatda* | *Digər ümumi gəlirdə* | *2009* |
| **Vergidən çıxılan müvəqqəti fərqlərin təsiri:** | | | | | | | |
| Bina və avadanlıqlar | (7,988) | 87 | - | (7,901) | 124 | 410 | (7,367) |
| Kreditin dəyərsizləşməsi üçün ehtiyat | (193) | - | - | (193) | (62) | - | (255) |
| Digər hesablamalar | 143 | (648) | - | (505) | 281 | - | (224) |
| **Təxirə salınmış mənfəət vergisi öhdəlikləri** | **(8,038)** | **(561)** | **-** | **(8,599)** | **343** | **410** | **(7,846)** |

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 14. Digər dəyərsizləşmə və ehtiyatlar

2009-cu il ərzində digər dəyərsizləşmə və ehtiyatlarda hərəkət aşağıdakı kimi olmuşdur:

| | *Digər aktivlər* | *Zəmanətlər və öhdəliklər* | *Cəmi* |
|---|---|---|---|
| **31 dekabr 2008-ci il** | - | - | - |
| Xərc | 954 | 552 | 1,506 |
| Silinmə | (185) | - | (185) |
| **31 dekabr 2009-cu il** | **769** | **552** | **1,321** |

2008-ci il ərzində digər dəyərsizləşmə və ehtiyatlarda hərəkət olmamışdır.

Aktivlərin dəyərsizləşməsi üçün ehtiat müvafiq aktivlərin balans dəyərindən çıxılır. Zəmanətlər və təahhüdlər üçün ehtiyatlar öhdəliklərdə yazılır və təqdim olunur.

## 15. Digər aktivlər və öhdəliklər

Digər aktivlər aşağıdakılardan ibarətdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| **Digər maliyyə aktivləri** | | |
| Ödənilməkdə olan məbləğlər | 3,798 | 4,701 |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi üzrə debitor borcları | - | 4,096 |
| Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi üzrə debitor borcları | - | 1,496 |
| Çıxılsın – Maiyyə aktivlərinin dəyərsizləşməsi üçün ehtiyat (Qeyd 14) | (769) | - |
| **Cəmi digər maliyyə aktivləri** | **3,029** | **10,293** |
| | | |
| **Digər qeyri-maliyyə aktivləri** | | |
| Binalar və digər aktivlər üçün əvvəlcədən ödəmələr | 920 | 1,175 |
| Təxirə salınmış xərclər | 436 | 710 |
| Müxtəlif borcalanlar | 341 | 290 |
| Digər xərclər üçün əvvəlcədən ödəmələr | 22 | 1,206 |
| Vergilər üçün əvvəlcədən ödəmələr | 12 | 1,233 |
| Digər qeyri-maliyyə aktivləri | 86 | 293 |
| **Cəmi digər qeyri-maliyyə aktivləri** | **1,817** | **4,907** |
| **Digər aktivlər** | **4,846** | **15,200** |

Digər öhdəliklər aşağıdakılardan ibarətdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| **Digər maliyyə öhdəlikləri** | | |
| Ödənilməkdə olan vəsaitlər | 3,886 | 3,074 |
| NSİF-yə ödəniləcək vəsait | 650 | - |
| Maliyyə lizinqi razılaşmaları əsasında öhdəliklər | 124 | 637 |
| **Cəmi digər maliyyə öhdəlikləri** | **4,660** | **3,711** |
| | | |
| **Digər qeyri-maliyyə öhdəlikləri** | | |
| Hesablanmış xərclər | 517 | 424 |
| Təxirə salınmış haqqlar | - | 1,495 |
| **Cəmi digər qeyri-maliyyə öhdəlikləri** | **517** | **1,919** |
| **Digər öhdəliklər** | **5,177** | **5,630** |

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

### 15. Digər aktivlər və öhdəliklər (davamı)

31 dekabr 2008-ci il tarixinə 4,096 AZN məbləğində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi üzrə debitor borcları Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə hesablaşma prosesində olan məbləğlərdən ibarətdir və 2009-cu ilin yanvar ayında ödənilmişdir.

31 dekabr 2009-cu il tarixinə maliyyə lizinqi razılaşmaları əsasında öhdəliklər aşağıda təhlil olunur:

| | *1 ilədək* | *1 ildən 5 ilədək* | *Cəmi* |
|---|---|---|---|
| Minimum lizinq ödənişləri: | **103** | **35** | **138** |
| Gələcək maliyyə xərcləri | (13) | (1) | (14) |
| **Maliyyə lizinqi razılaşmaları əsasında xalis öhdəliklər** | **90** | **34** | **124** |

31 dekabr 2008-ci il tarixinə maliyyə lizinqi razılaşmaları əsasında öhdəliklər aşağıda təhlil olunur:

| | *1 ilədək* | *1 ildən 5 ilədək* | *Cəmi* |
|---|---|---|---|
| Minimum lizinq ödənişləri: | **126** | **590** | **716** |
| Gələcək maliyyə xərcləri | (62) | (17) | (79) |
| **Maliyyə lizinqi razılaşmaları əsasında xalis öhdəliklər** | **64** | **573** | **637** |

### 16. Müştərilər qarşısında öhdəliklər

Müştərilər qarşısında öhdəliklər aşağıdakılardan ibarətdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| **Hüquqi şəxslər** | | |
| Cari hesablar | 19,606 | 24,392 |
| Müddətli depozitlər | 4,351 | 184 |
| **Fiziki şəxslər** | | |
| Cari hesablar | 69,827 | 80,333 |
| Müddətli depozitlər | 83,509 | 83,859 |
| **Müştərilər qarşısında öhdəliklər** | **177,293** | **188,768** |

Fiziki şəxslərin müştəri hesablarına "hərəkətsiz" və "birləşdirilmiş" hesablar daxildir. "Hərəkətsiz" hesablar depozitin ilkin məbləği bir müştəri üzrə 0.2 AZN-dən (tam məbləğ) çox olan və beş ilədək müddət ərzində hərəkət olmayan hesablardır. "Birləşdirilmiş" hesablar depozitin ilkin məbləği bir müştəri üzrə 0.2 AZN-dən (tam məbləğ) az olan və beş ildən çox müddət ərzində hərəkət olmayan hesablardır. Bank "hərəkətsiz" və "birləşdirilmiş" hesablar üzrə ildə 2% dərəcəsi ilə faiz hesablayır. "Birləşdirilmiş" hesablara həmçinin fiziki şəxslər tərəfindən 1992-ci ilədək Bankın hüquqi sələfinə Sovet rublu ilə qoyulmuş və 1995-ci ilin sonunadək hiperinflyasiyanın təsirinə görə indeksasiya oluna bilən əmanətlər daxildir. 2005-ci ilin avqust ayında Azərbaycan Respublikasının hökuməti yuxarıda göstərilən müştəri hesablarının indeksasiyasını elan etmişdir. 31 dekabr 2009-cu il tarixinə müştəri hesablarının indeksasiyasını hökumət hələ təsdiq etməmişdir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 16. Müştərilər qarşısında öhdəliklər (davamı)

Aşağıdakı cədvəldə müştəri hesabları iqtisadi sektorlar üzrə təhlil edilir:

| | 2009-cu il | | 2008-ci il (Yenidən hesablanmış) | |
|---|---|---|---|---|
| | Məbləğ | % | Məbləğ | % |
| Fiziki şəxslər | 154,653 | 87.2% | 167,106 | 88.5% |
| Tikinti | 7,221 | 4.1% | 6,338 | 3.4% |
| Ticarət | 5,070 | 2.9% | 10,119 | 5.4% |
| Sığorta | 4,351 | 2.5% | - | - |
| Kənd təsərrüfatı | 1,642 | 0.9% | 2,133 | 1.1% |
| İstehsal | 1,576 | 0.9% | 283 | 0.1% |
| Nəqliyyat və rabitə | 1,467 | 0.8% | 1,231 | 0.7% |
| Digər | 754 | 0.4% | 963 | 0.5% |
| Enerji | 559 | 0.3% | 595 | 0.3% |
| **Cəmi müştəri hesabları** | **177,293** | **100.0%** | **188,768** | **100.0%** |

31 dekabr 2009-cu ildə Bankın 500 AZN-dən artıq balansı olan 22 ən iri müştərisi (2008-ci il: 30 müştəri) olmuşdur. Bu müştərilərin məcmu qalığı 44,295 AZN (2008-ci il: 18,521 AZN) və ya cəmi müştəri hesablarının 25%-i (2008-ci il: 10%) olmuşdur.

## 17. Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər

Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklərə aşağıdakılar daxildir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Maliyyə təşkilatları qarşısında öhdəliklər | 20,212 | 13,965 |
| ARMB və dövlət orqanları qarşısında öhdəliklər | 228,193 | 284,648 |
| **Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər** | **248,405** | **298,613** |

Maliyyə təşkilatları qarşısında öhdəliklər aşağıdakılardan ibarətdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Cari hesablar | 4,369 | 1,672 |
| Müddətli depozitlər | 5,734 | 1,477 |
| Qara Dəniz Ticarət və İnkişaf Bankından alınmış kreditlər | 9,089 | 9,613 |
| Beynəlxalq İnkişaf Assosiasiyasından alınmış kreditlər | 1,020 | 1,203 |
| **Maliyyə təşkilatları qarşısında öhdəliklər** | **20,212** | **13,965** |

3 iyun 2008-ci ildə Bank ipoteka kreditlərinin maliyyələşdirilməsi məsədilə Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə LIBOR+3.3% faiz dərəcəsi ilə 12 milyon ABŞ dolları məbləğində altı illik kredit razılaşması imzalamışdır. 11 iyun 2009-cu ildə bu razılaşmaya düzəliş edilərək, aşağıdakı restrukturizasiya aparılmışdır: əsas kredit məbləğindən 2 milyon ABŞ dolları LIBOR+ 3.3% faiz dərəcəsi ilə 2010-cu ilin fevral ayında, kreditin əsas məbləğinin 10 milyon ABŞ dolları məbləğində qalan hissəsi isə 11 iyun 2009-cu ildə başlayan altı aylıq dövrə ildə 8% faiz dərəcəsi ilə, sonra isə ildə LIBOR+5.5% dərəcəsi ilə 2014-cü ilin noyabr ayınadək ödənilməlidir.

Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə kredit razılaşmasına məhdudlaşdırıcı öhdəliklər, o cümlədən girovlar, sərəncam vermə, borc vermə, mənfəət payı bölgüsü razılaşmaları, aktivlərin satılması və ya birləşdirmə və s. ilə bağlı öhdəliklər, eləcə də maliyyə nəticələri ilə bağlı öhdəliklər daxildir.

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 17. Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər(davamı)

22 avqust 2002-ci il tarixində Bank və Beynəlxalq Maliyyə Korporasiyasına daxil olan Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) arasında imzalanmış razılaşma əsasında Bank 1,629 min ABŞ dolları məbləğində cəmi kredit xətti ilə təmin edilmişdir. Borc vəsaitləri Banka xüsusi məqsədlər, o cümlədən BİA ilə Azərbaycan Respublikasının Hökuməti arasında imzalanmış Azərbaycan Respublikasının Maliyyə Sektoruna Texniki Yardım haqqında Razılaşma çərçivəsində BIA tərəfindən maliyyələşdirilən Bankın audit və məsləhət xidmətlərinə görə xərclərini ödəmək üçün verilmişdir. Banka təqdim olunmuş 1,629 min ABŞ dolları məbləğində vəsaitlər Bankın yenidən qurulması və inkişafı üçün istifadə edilməli və bərabər hissələrlə 2006-cı ilin Fevral ayından başlayaraq 2021-ci ilə qədər qaytarılmalıdır. Kredit razılaşması əsasında cəmi istifadə edilmiş vəsaitlər üzrə ildə 1% faiz dərəcəsi hesablanmalı və yarım ildən bir Bank tərəfindən ödənilməlidir.

Dövlət orqanlarına ödəniləcək məbləğlərə aşağıdakılar daxildir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Cari hesablar | 45,379 | 36,770 |
| Müddətli depozitlər və kreditlər | 11,711 | 17,038 |
| Dövlətdən alınmış kreditlər | | |
| - Maliyyə Nazirliyi | 134,607 | 205,874 |
| - Sahibkarlığa Kömək Milli Fondu | 27,857 | 22,435 |
| - Azərbaycan İpoteka Fondu | 4,206 | 2,075 |
| Bloklaşdrılmış hesablar | 4,433 | 456 |
| **ARMB və Dövlət orqanları qarşısında öhdəliklər** | **228,193** | **284,648** |
| | | |
| **Akkreditiv üzrə girov kimi saxlanılan** | **4,433** | **456** |

Maliyyə Nazirliyindən alınmış kredit Azərbaycanda "Azəryolservis" SC yol tikinti şirkətinin maliyyələşdirilməsi üçün müddəti 2010-cu ilin yanvar-iyun aylarında başa çatan vəsaitlərdən ibarətdir (31 dekabr 2008-ci il: fevral-mart 2009-cu il). Vəsaitlər Banka ildə 2.5% (2008-ci il: 5%) faiz dərəcəsi ilə verilmişdir və Bank bu vəsaitləri ildə 3.75% (2008-ci il: 7%) dərəcəsi ilə münasib borclalanlara təkrar kredit verir.

12 mart 2005-ci ildə Bank Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin nəzdində Sahibkarlığa Kömək Milli Fondu ilə kiçik və orta müəssisələrin maliyyələşdirilməsi məqsədilə kredit razılaşması imzalamışdır. Bu proqrama əsasən vəsaitlər Banka ildə 1.0%-2.0% faiz dərəcəsi ilə verilmiş və Bank bu vəsaitləri ildə 6.0%-7.0% dərəcəsi ilə münasib borclalanlara təkrar kredit verir.

17 fevral 2006-cı ildə Bank Azərbaycan Respublikasının Mərkəzi Bankının nəzdində Azərbaycan İpoteka Fondu ilə fiziki şəxslərə uzunmüddətli ipoteka kreditlərinin verilməsi haqqında kredit razılaşması imzalamışdır. Bu proqrama əsasən vəsaitlər Banka ildə 1.0%-4.0% faiz dərəcəsi ilə verilmiş və Bank bu vəsaitləri ildə 8.0% dərəcəsi ilə münasib borclalanlara təkrar kredit verir.

## 18. Kapital

*Buraxılmasına icazə verilmiş, buraxılmış və ödənilmiş kapital*

31 dekabr 2009-cu il və 2008-ci ildə buraxılmasına icazə verilmiş, buraxılmış və tam ödənilmiş kapital bir səhmin dəyəri 10 AZN olmaqla 2,400,000 adi səhmdən ibarətdir. Hər səhmə bir səs düşür.

Bankın səhmdar kapitalı səhmdarlar tərəfindən Azərbaycan manatı ilə qoyulmuş və onlar dividendləri və hər hansı kapital paylamalarını Azərbaycan manatı ilə almaq hüququna malikdirlər.

*Dividendlər*

2009-cu və 2008-ci illərdə heç bir dividend elan edilməmiş və ödənilməmişdir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 18. Kapital (davamı)

*Əlavə ödənilmiş kapital*

20,870 AZN məbləğində əlavə ödənilmiş kapitaldan 20,070 AZN məbləği Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 23 fevral 2007-ci il tarixli qərarı əsasında Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə edilməsi üzrə Dövlət Komitəsi tərəfindən Bankın mülkiyyətinə keçirilmiş, Azərbaycanın müxtəlif rayonlarında yerləşən əlli beş (55) binanın ədalətli dəyərini təşkil edir.

*Bir səhm üçün mənfəət*

Bir səhm üçün əsas və azaldılmış mənfəət Bankın il üzrə xalis (zərəri) mənfəətini 2,400,000 adi səhmə bölməklə hesablanır. 2009-cu ildə səhmlərin sayında artım nəticəsində bir səhmə düşən mənfəətin azalması və ya zərərin artması olmamışdır (2008-ci il: olmamışdır).

## 19. Təəhhüdlər və potensial öhdəliklər

**Əməliyyat mühiti**

Yeni inkişaf edən bazar iqtisadiyyatı dövləti olduğu üçün, Azərbaycanda daha yetkin bazar iqtisadiyyatına xas olan inkişaf etmiş biznes və tənzimləyici infrastruktur tam formalaşmamışdır. Lakin son zamanlar ölkədə ümumi sərmayə mühitinə müsbət təsir göstərən bir sıra inkişaf meylləri olmuşdur.

Azərbaycanda aparılan əməliyyatlar adətən inkişaf etmiş bazarlar ucun xarakterik olmayan risklərlə (o cümlədən, Azərbaycan manatının ölkə xaricində sərbəst çevrilən valyuta olmaması, inkişaf etməmiş borc öhdəlikləri və qiymətli kağızlar bazarı) müşayiət oluna bilər. Bununla yanası, son illər Azərbaycan hökuməti bank işi, hüquq, vergiyə cəlb olunma və tənzimləyici sistemlərin yaradılması ucun lazımi islahatların həyata keçirilməsi sahəsində addımlar atmışdır. Bu işlərə yeni qanunvericilik bazasının qəbul edilməsi (o cümlədən, yeni Vergi Məcəlləsi, yeni Mülki və Gömrük Məcəlləələri, prosessual qanunlar və qiymətli kağızların tənzimlənmə qaydaları) daxildir. Rəhbərliyin fikrincə, bu addımlar Azərbaycanda aparılan biznesin məruz qaldığı risklərin azaldılmasına kömək edəcək.

Biznes mühitinin bütövlükdə təkmilləşdirilməsinə istiqamətlənmiş indiki tendensiyanın davam edəcəyi gözlənilir. Azərbaycan iqtisadiyyatının gələcək sabitliyi önəmli dərəcədə islahat və dəyişikliklərdən, eləcə də hökumətin gördüyü iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən asılıdır. Bununla bərabər, Azərbaycan iqtisadiyyatı dünyanın digər bölgələrindəki bazar tənəzzülü və iqtisadi inkişaf tempinin aşağı düşməsinə həssasdır. Dünyada cərəyan edən qlobal maliyyə böhranı kapital bazarlarının qeyri-sabitliyi, bank sektorunda likvidliyin pisləşməsi, Azərbaycan daxilində kredit şərtlərinin sərtləşməsinə səbəb olmuşdur. Azərbaycan hökuməti kredit ödəmə qabiliyyətinin və likvidliyin təmin edilməsi, Azərbaycan banklarına və şirkətlərinə verilmiş xarici borcların yenidən maliyyələşdirilməsini dəstəkləmək məqsədilə bir sıra sabitləşdirmə tədbirlərini görmüşdür.

Hal-hazırda Bankın fəaliyyətinin sabitliyini təmin etmək ucun bütün münasib tədbirləri gördüyündən əmin olan rəhbərliyin fikrinə baxmayaraq, yuxarıda təsvir edilmiş sahələrdə vəziyyətin gözlənilməz dərəcədə pisləşməsi Bankın nəticələri və maliyyə vəziyyətinə hazırda dəqiq müəyyən edilə bilməyən mənfi təsir göstərə bilər.

**Hüquqi məsələlər**

Adi fəaliyyətində Bank məhkəmə iddiaları və şikayətlərinin obyekti olur. Rəhbərlik hesab edir ki, belə iddia və ya şikayətlərdən irəli gələn öhdəlik (əgər olarsa) Bankın maliyyə vəziyyəti və ya gələcək əməliyyat nəticələrinə mühüm mənfi təsir göstərməyəcəkdir.

**Vergilər**

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez edilən dəyişikliklərə məruzdur. Bundan əlavə, Bankın əməliyyatları və fəaliyyətinə tətbiq edilən vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərh edilməsi rəhbərliyin şərhi ilə üst-üstə düşməyə bilər. Azərbaycanda son zamanlar baş vermiş hadisələr göstərir ki, vergi orqanları qanunvericiliyin şərh edilməsi və vergi hesablamalarının yoxlanılmasında daha sərt mövqe tuta bilərlər. Nəticədə, vergi orqanları əməliyyat və fəaliyyət növləri ilə bağlı əvvəl irəli sürmədikləri iddiaları irəli sürə bilərlər. Nəticə etibarı ilə əlavə iri vergi, cərimə və faiz hesablana bilər. Vergi yoxlamaları yoxlama ilindən əvvəlki üç maliyyə ili üzrə aparıla bilər.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 19. Təəhhüdlər və potensial öhdəliklər (davamı)

### Vergilər (davamı)

Rəhbərlik hesab edir ki, 31 dekabr 2009-cu il tarixinə müvafiq qanunvericiliyin rəhbərlik tərəfindən tətbiq edilən şərhi münasibdir və Bankın vergi, valyuta və gömrük mövqeləri qəbul ediləcəkdir.

**Sığorta**

Bank hazırda səhvlərdən və ya təhriflərdən irəli gələn öhdəliklərlə əlaqədar sığorta təminatı almamışdır. Hazırda məsuliyyətin sığortalanması Azərbaycanda geniş yayılmayıb.

**Maliyyə təəhhüdləri və potensial öhdəliklər**

Bank tərəfindən müştərilərə zəmanətlərin və akkreditivlərin verilməsinin əsas məqsədi müştərilərə tələb olduqda vəsaitlərin mövcudluğunu təmin etməkdir. Zəmanətlər və ehtiyat akkreditivləri müştəri üçüncü tərəflər qarşısında öhdəliklərini yerinə yetirə bilmədiyi təqdirdə Bankın ödəmələr edəcəyini qəti təsdiq edən sənədlərdir. Sənədli akkreditivlər və kommersiya akkreditivləri, Banka müəyyən edilmiş məbləğə qədər və xüsusi şərtlərlə tələb təqdim etmək hüququnu üçüncü tərəfə verən, Bankın müştəri adından üzərinə götürdüyü yazılı öhdəlik olaraq, aid olduqları malların çatdırılması və ya pul depozitləri ilə təmin edilir və beləliklə də birbaşa borcla müqayisədə daha aşağı riskə məruz qoyur.

Maliyyə təəhhüdləri və potensial öhdəliklər aşağıdakılardan ibarətdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| **Kreditlə bağlı təəhhüdlər** | | |
| Buraxılmış zəmanətlər | 28,415 | 69,386 |
| İstifadə edilməmiş kredit üzrə təəhhüdlər | 17,467 | 4,480 |
| Akkreditivlər | 1,218 | 1,315 |
| | **47,100** | **75,181** |
| **Əməliyyat lizinqi üzrə təəhhüdlər** | | |
| 1 ildən artıq olmayan | 62 | 336 |
| **Əsaslı məsrəflər üzrə təəhüdlər** | 345 | 1,294 |
| **Təəhhüdlər və potensial öhdəliklər** | **47,507** | **76,811** |

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 20. Xalis haqq və komissiya gəliri

Xalis haqq və komissiya gəliri aşağıdakılardan ibarətdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Plastik kart əməliyyatları üçün haqlar | 17,197 | 17,187 |
| Pul vəsaitlərinin çıxarılması üçün haqlar | 8,755 | 10,026 |
| Vəsaitlərin köçürülməsi üçün haqlar | 4,727 | 5,007 |
| Zəmanətlərin buraxılması üçün komissiya haqqı | 1,143 | 821 |
| Xarici valyutanın çevrilməsindən komissiya haqqı | 982 | 1,615 |
| Akkreditivlərin buraxılması üçün haqlar | 11 | 132 |
| Digər | 321 | 310 |
| **Haqq və komissiya gəliri** | **33,136** | **35,098** |
| | | |
| Plastik kart əməliyyatları üçün haqlar | 2,341 | 6,083 |
| Pul vəsaitləri ilə əməliyyatlar üçün haqlar | 883 | 808 |
| Vəsaitlərin köçürülməsi üçün haqlar | 345 | 342 |
| Vəsaitlərin köçürülməsi üçün ödənilmiş haqlar və komissiya haqqı | 111 | 81 |
| Xarici valyutanın çevrilməsi üzrə komissiya haqqı | 7 | 21 |
| Ödənilmiş digər komissiya haqları | 13 | 5 |
| **Haqq və komissiya xərcləri** | **3,700** | **7,340** |
| **Xalis haqq və komissiya gəliri** | **29,436** | **27,758** |

## 21. İşçilər üzrə xərclər və digər əməliyyat xərcləri

İşçilər üzrə xərclər və digər əməliyyat xərcləri aşağıdakılardan ibarətdir:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| Əmək haqqı və mükafatlar | 15,770 | 12,509 |
| Sosial sığorta xərcləri | 3,518 | 2,746 |
| **İşçilər üzrə xərclər** | **19,288** | **15,255** |
| | | |
| Ofis təchizatı | 1,589 | 1,062 |
| Əmlak və avadanlıqların təmir və texniki xidmət xərcləri | 1,107 | 1,168 |
| Rabitə xidmətləri | 1,043 | 1,007 |
| Mühafizə xidmətləri | 1,039 | 847 |
| Kommunal xərclər | 859 | 355 |
| Əmlak vergisi | 669 | 472 |
| Marketinq və reklam xərcləri | 599 | 196 |
| Yerləşmə və icarə haqqı | 514 | 369 |
| Plastik kart xərcləri | 350 | 703 |
| Hüquq və məsləhət xidmətləri | 301 | 120 |
| Nəqliyyat və nəqliyyat vasitələrinin təmiri xərcləri | 286 | 661 |
| Ezamiyyət və əlaqəli xərclər | 281 | 333 |
| Digər | 1,344 | 1,662 |
| **Digər əməliyyat xərcləri** | **9,981** | **8,955** |

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 22. Risklərin idarə edilməsi

### Ön söz

Öz fəaliyyətində Bank müxtəlif risklərə məruz qalır və bunları daimi müəyyən etmə, ölçmə və müşahidə etmə prosesləri, kredit limitlərinin müəyyən edilməsi və digər daxili nəzarət tədbirləri vasitəsilə idarə edir. Risklərin idarə edilməsi Bankın fəaliyyətinin mühüm hissəsini təşkil edir. Bankın hər bir əməkdaşı öz vəzifələri daxilində risklərə görə məsuliyyət daşıyır. Bank kredit riski, likvidlik riski və bazar risklərinə məruz qalır. Bazar riski öz növbəsində ticarət və qeyri-ticarət risklərinə bölünür. Bank əməliyyat risklərinə də məruz qalır.

Müstəqil riskə nəzarət prosesinə mühitdə, texnologiyada və sənayedə dəyişikliklər kimi biznes riskləri daxil deyildir. Onlar Bankın strateji planlaşdırma prosesi vasitəsilə nəzarət altında saxlanılır.

*Risklərin idarə olunması strukturu*

İdarə Heyəti risklərin müəyyən edilməsi və nəzarət edilməsinə görə ümumi məsuliyyət daşıyır, lakin risklərin idarə olunması və izlənməsi üçün məsuliyyəti ayrıca müstəqil orqanlar daşıyır.

*İdarə Heyəti*

İdarə Heyəti risklərin idarə olunmasında ümumi yanaşma, risk strategiyaları və prinsiplərinin təsdiq edilməsi üçün məsuliyyətlidir.

*Audit Komitəsi*

Audit Komitəsi auditin tapşırığı və strategiyasının təsis və tərtib edilməsi üçün ümumi məsuliyyət daşıyır. Komitə fundamental audit məsələləri üçün məsuliyyətlidir və Daxili Auditin fəaliyyətinə nəzarət edir.

*Rəhbərlik*

İdarə Heyəti Bankda ümumi risk prosesinə nəzarət etmək üçün məsuliyyət daşıyır.

*Risk Komitəsi*

Risk Komitəsi risk strategiyasının işlənib hazırlanması və risk prinsipləri, konsepsiyası, siyasəti və limitlərinin tətbiqi üçün ümumi məsuliyyət daşıyır. Komitə fundamental risk məsələləri üçün məsuliyyətlidir və müvafiq risk qərarlarını idarə və nəzarət edir.

*Risklərin idarə olunması*

Risklərin idarə olunması departamenti müstəqil nəzarət prosesini təmin etmək məqsədilə risklə bağlı prosedurların tətbiqi və dəstəklənməsi üçün məsuliyyət daşıyır.

*Bankın xəzinədarlığı*

Bankın xəzinədarlığı Bank aktivlərinin və öhdəliklərinin idarə olunması, eləcə də ümumi maliyyə strukturu üçün məsuliyyət daşıyır. Bundan əlavə, xəzinədarlıq Bankın maliyyələşdirmə və likvidlik riskləri üçün məsuliyyət daşıyır.

*Daxili Audit*

Daxili audit funksiyası hər il Bankda risklərin idarə olunması proseslərinin audit yoxlamasını apararaq, həm prosedurların münasibliyini, həm də Bankın prosedurlara riayət etməsini yoxlayır. Daxili Audit bütün qiymətləndirmələrin nəticələrini rəhbərliklə müzakirə edir və nəticə və tövsiyələr haqqında Audit Komitəsinə hesabat verir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 22. Risklərin idarə edilməsi (davamı)

*Risklərin ölçülməsi və hesabatçılıq sistemləri*

Bankın riskləri həm adi şəraitdə yaranması ehtimal edilən zərəri, həm də statistik modellər əsasında maksimal faktiki zərərlərin qiymətləndirilməsi olan gözlənilməyən zərərləri əks etdirən metoddan istifadə etməklə ölçülür. Modellər keçmiş təcrübədən əldə edilmiş və iqtisadi şəraitləri nəzərə almaqla düzəlişlər edilmiş ehtimallardan istifadə edir. Bundan əlavə, Bank baş verməsi ehtimal edilməyən ağır hadisələr əslində baş verdiyi təqdirdə daha pis hadisələrin ssenari modellərini hazırlayır.

Risklərin monitorinqi və nəzarət edilməsi ilk öncə Bankın müəyyən etdiyi limitlərə əsaslanır. Belə limitlər Bankın biznes strategiyasını və bazar mühitini, eləcə də Bankın qəbul etmək istədiyi risk səviyyəsini əks etdirir və bu zaman əsas diqqət ayrı-ayrı sahələrə yetirilir. Bundan əlavə, Bank bütün risk və əməliyyat növləri üzrə məcmu risk həcmi ilə bağlı olaraq ümumi risk daşımaq qabiliyyətinə nəzarət edir və ölçür.

Bütün fəaliyyət növləri üzrə əldə edilmiş məlumat risklərin təhlil və nəzarət edilməsi və tez aşkar olunması məqsədilə yoxlanılır və işlənilir. Bu məlumat izahlarla birlikdə İdarə Heyətinə, Risk Komitəsinə və hər bir bölmənin rəhbərinə təqdim edilir. Hesabata kredit riskinin ümumi həcmi haqqında məlumat, limitlərdən istisnalar və likvidlik əmsalları daxil edilir. Hər ay sənaye sahəsi, müştəri və coğrafi risklər kəsiyində risklər haqqında məlumat təqdim edilir. Baş rəhbərlik hər rüb kredit zərərləri üçün ehtiyat yaratmaq zərurətini müəyyən edir. İdarə Heyəti rübdə bir dəfə risklər haqqında ətraflı hesabat alır, həmin hesabatda isə bankın risklərini qiymətləndirmək və müvafiq qərarlar qəbul etmək üçün bütün zəruri məlumat açıqlanır.

Bankın bütün səviyyələri üçün risklər haqqında xüsusi hesabatlar hazırlanır və paylanır ki, bütün bölmələr geniş, zəruri və aktual məlumatla tanış olmaq imkanını əldə etsinlər.

İdarə Heyəti və Bankın bütün digər müvafiq işçilərinin hər gün keçirilən qısa iclaslarında bazar limitlərinin və likvidliyin dəstəklənməsi, eləcə də risklərlə bağlı digər dəyişikliklər müzakirə olunur.

*Risklərin azaldılması*

Bank kredit risklərini azaltmaq üçün girovdan fəal istifadə edir.

*Həddindən artıq risk konsentrasiyası*

Bu tip risklərin yaranma səbəbləri, biznes tərəfdaşlarının eyni və ya oxşar iş fəaliyyəti ilə məşğul olmasından, iş növünün eyni coğrafi regionda yer almasından, eyni iqtisadi xüsusiyyətlərə malik olan, iqtisadi və siyasi şərtlərdən asılı olan və bu səbəbdən müqavilələrdə göstərilmiş şərtlərin pozulma ehtimalını artıran risklər nəzərdə tutulur. Bankın artan fəaliyyətinin xüsusi coğrafi yerlərdə və sənaye sahələrində konsentrasiyası nisbi həssaslığın yaranmasına səbəb ola bilər.

Həddindən artıq risk konsentrasiyasının təsiri altına düşməmək üçün, Bank daxili prosedurlarında müxtəlif xüsusiyyətlərə malik olan portfellərin idarə edilməsi qaydaları ilə təmin olunur. Müəyyən edilmiş risk konsentrasiyası müvafiq qaydada nəzarət və idarə olunur.

### Kredit riski

Kredit riski – Bankın sifarişçiləri, müştəriləri və ya biznes tərəfdaşları müqavilə öhdəliklərini yerinə yetirmədikləri üçün Bankın zərər çəkməsi riskidir. Bank kredit riskini ayrı-ayrı biznes tərəfdaşları və coğrafi və sənaye konsentrasiyaları üzrə Bankın qəbul etməyə hazır olduğu riskin həcmi üzrə limitləri müəyyən etməklə və həmin limitlərə riayət edilməni monitorinq etməklə idarə edir və nəzarət altında saxlayır.

Bank kredit keyfiyyətinin yoxlanılması prosesini təsis etmişdir ki, girovun müntəzəm qaydada yenidən baxılması da daxil olmaqla biznes tərəfdaşlarının krediti ödəmək qabiliyyətlərində mümkün dəyişikliklərin tez müəyyən edilməsi təmin edilsin. Biznes tərəfdaşları üzrə limitlər kredit riskinin təsnifləşdirilməsi sistemindən istifadə etməklə müəyyən edilir. Kredit keyfiyyətinin müntəzəm qaydada yenidən baxılması prosesi Banka məruz qaldığı risklər nəticəsində potensial zərəri qiymətləndirmək və lazımi tədbirləri görmək imkanını yaradır.

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 22. Risklərin idarə edilməsi (davamı)

### Kredit riski (davamı)

*Kreditlə bağlı təəhhüd riskləri*

Bankın müştərilərə verdiyi zəmanətlər əsasında Bank tərəfindən onların adından ödənişlər aparmaq zərurəti yarana bilər. Müştərilər bu ödənişləri Banka akkreditivin şərtləri əsasında qaytarırlar. Onlar Bankı kredit risklərinə oxşar risklərə məruz qoyur, bunlar da eyni nəzarət prosesləri və qaydaları ilə azaldılır.

Aşağıdakı cədvəldə maliyyə vəziyyəti haqqında hesabatın komponentlər üçün məruz qala biləcəyi maksimal kredit riski göstərilir. Maksimal risk ümumi həcmdə, qarşılıqlı hesablaşma haqqında əsas razılaşmaların və girov razılaşmalarının istifadə edilməsi nəticəsində riskin azalmasını nəzərə almadan göstərilir.

| | *Qeyds* | *Maksimal risk həcmi 2009-cu il* | *Maksimal risk həcmi 2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (kassada olan pul vəsaitlərini çıxmaqla) | 6 | 38,248 | 37,081 |
| Maliyyə təşkilatlarından alınacaq məbləğlər | 7 | 8,635 | 11,968 |
| Müştərilərə verilmiş kreditlər | 8 | 317,277 | 362,958 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları | 9 | 310 | 185 |
| Digər maliyyə aktivləri | 15 | 3,029 | 10,293 |
| | | **367,499** | **422,485** |
| Kreditlə bağlı maliyyə öhdəlikləri və təəhüdlər | 19 | 47,100 | 75,181 |
| **Cəmi kredit riskinin həcmi** | | **414,599** | **497,666** |

Maliyyə alətləri ədalətli dəyərlə qeydə alınanda yuxarıda göstərilən məbləğlər dəyərin dəyişməsi nəticəsində gələcəkdə yarana bilən maksimal riskin həcmini deyil, cari kredit riskinin həcmini əks etdirir.

Maliyyə alətlərinin hər bir sinfi üzrə kredit riskinin maksimal həcmi haqqında daha ətraflı məlumat xüsusi qeydlərdə açıqlanır. Girovu və riski azaldan digər metodların təsiri aşağıda göstərilir.

*Maliyyə aktivlərinin sinifləri üzrə kreditin keyfiyyəti*

Maliyyə aktivlərinin kredit keyfiyyəti Bankın daxili kredit reytinqləri ilə idarə olunur. Aşağıdakı cədvəldə Bankın kredit reytinqi sisteminə əsaslanaraq maliyyə vəziyyəti haqqında hesabatın kreditlə bağlı sətirlərində aktivlərin sinifləri üzrə kredit keyfiyyəti göstərilir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 22. Risklərin idarə edilməsi (davamı)

**Kredit riski (davamı)**

| | Qeydlər | Vaxtı keçməmiş və dəyərsizləşməmiş: Yüksək reytinq 2009 | Vaxtı keçməmiş və dəyərsizləşməmiş: Standart Reytinq 2009 | Vaxtı keçməmiş və dəyərsizləşməmiş: Qeyri -standart reytinq 2009 | Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş 2009 | Fərdi şəkildə dəyərsizləş -miş 2009 | Cəmi 2009 |
|---|---|---|---|---|---|---|---|
| Maliyyə təşkilatlarından alınacaq məbləğlər | 7 | - | 8,635 | - | - | - | 8,635 |
| Müştərilərə verilmiş kreditlər | 8 | | | | | | |
| Korporativ kreditlər | | - | 44,049 | 12,422 | 11,168 | 26,416 | 94,055 |
| Dövlət təşkilatları | | 116,084 | 24,317 | 7,416 | - | 1,791 | 149,608 |
| Fiziki şəxslərə verilmiş kreditlər - mənzil təmiri | | - | 6,614 | 1,600 | 897 | 905 | 10,016 |
| Fiziki şəxslərə verilmiş kreditlər - nəqliyyat vasitələri | | - | 22,706 | 56 | - | 7 | 22,769 |
| Fiziki şəxslərə verilmiş kreditlər - istehlakçı kreditləri | | - | 32,246 | 1,131 | 130 | 2,923 | 36,430 |
| Fiziki şəxslərə verilmiş kreditlər - sahibkarlar | | - | 12,997 | 76 | 258 | - | 13,331 |
| Fiziki şəxslərə verilmiş kreditlər - ipoteka kreditləri | | - | 14,168 | 947 | 4,093 | - | 19,208 |
| | | **116,084** | **157,097** | **23,648** | **16,546** | **32,042** | **345,417** |
| **Cəmi** | | **116,084** | **165,732** | **23,648** | **16,546** | **32,042** | **354,052** |

| | Qeydlər | Vaxtı keçməmiş və dəyərsizləşməmiş: Yüksək reytinq 2008 | Vaxtı keçməmiş və dəyərsizləşməmiş: Standart Reytinq 2008 | Vaxtı keçməmiş və dəyərsizləşməmiş: Qeyri -standart reytinq 2008 | Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş 2008 | Fərdi şəkildə dəyərsizləş-miş 2008 | Cəmi 2008 |
|---|---|---|---|---|---|---|---|
| Maliyyə təşkilatlarından alınacaq məbləğlər | 7 | - | 11,968 | - | - | - | 11,968 |
| Müştərilərə verilmiş kreditlər | 8 | | | | | | |
| Korporativ kreditlər | | - | 73,422 | 2,698 | 4,344 | 117 | 80,581 |
| Dövlət təşkilatları | | 207,532 | - | - | - | - | 207,532 |
| Fiziki şəxslərə verilmiş kreditlər - mənzil təmiri | | - | 11,215 | - | 126 | 10 | 11,351 |
| Fiziki şəxslərə verilmiş kreditlər - nəqliyyat vasitələri | | - | 22,798 | - | 37 | - | 22,835 |
| Fiziki şəxslərə verilmiş kreditlər - istehlakçı kreditləri | | - | 28,818 | - | 57 | - | 28,875 |
| Fiziki şəxslərə verilmiş kreditlər - sahibkarlar | | - | 8,585 | - | 6 | - | 8,591 |
| Fiziki şəxslərə verilmiş kreditlər - ipoteka kreditləri | | - | 11,885 | - | - | - | 11,885 |
| | | **207,532** | **156,723** | **2,698** | **4,570** | **127** | **371,650** |
| | | **207,532** | **168,691** | **2,698** | **4,570** | **127** | **383,618** |

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 22. Risklərin idarə edilməsi (davamı)

### Kredit riski (davamı)

*Maliyyə aktivlərinin sinifləri üzrə kreditin keyfiyyəti (davamı)*

Bank tərəfindən kreditlərlə bağlı aktivlərin təsnifləşdirilməsi aşağıdakı qaydada həyata keçirilmişdir:

Yüksək reytinqli – bura dövr ərzində kredit şərtlərində heç bir dəyişiklik olmayan, ödəniş müddətində gecikmə olmayan və maliyyə vəziyyəti əla qiymətləndirilən biznes tərəfdaşları aid edilir.

Standart reytinqli - bura dövr ərzində kredit şərtlərində heç bir dəyişiklik olmayan, ödəniş müddətində gecikmə olmayan və maliyyə vəziyyəti yaxşı qiymətləndirilən biznes tərəfdaşları aid edilir.

Qeyri-standart reytinqli - bura dövr ərzində kredit şərtlərinə dəyişiklik edilən, əsas və faiz borclarında gecikmələr olmayan və maliyyə vəziyyəti qənaətbəxş qiymətləndirilən biznes tərəfdaşları aid edilir.

Vaxtı keçmiş, lakin dəyərsizləşmiş - bura dövr ərzində kredit şərtlərinə dəyişiklik edilən, əsas və faiz borclarında vaxtı keçmiş borcları olan və maliyyə vəziyyəti kafi qiymətləndirilən biznes tərəfdaşları aid edilir.

Fərdi şəkildə dəyərsizləşmiş - bura dövr ərzində kredit şərtlərinə dəyişiklik edilən, əsas və faiz borclarında vaxtı keçmiş borcları olan və maliyyə vəziyyəti kafi və qeyri-kafi qiymətləndirilən biznes tərəfdaşları aid edilir.

Vaxtı keçmiş kreditlərin müddətləri aşağıda təhlil olunur. Vaxtı keçmiş kreditlər dəyərsizləşmiş hesab olunmur.

Siyasətinə uyğun olaraq Bank kredit portfeli daxilində reytinqləri dəqiq və ardıcıl şəkildə tətbiq etməlidir. Bu mövcud risklərin məqsədli idarə olunması, habelə kredit risklərinin həcmlərini bütün fəaliyyət növləri, coğrafi bölgələr və məhsullar üzrə müqayisə edilməsi imkanını təmin edəcəkdir. Reytinq sistemi biznes tərəfdaşlarının qiymətləndirilməsi üçün əsas ilkin məlumat olan bir sıra maliyyə-analitik metodlara, eləcə də işlənmiş bazar məlumatlarına əsaslanır. Bütün daxili risk kateqoriyaları Bankın reytinq siyasətinə uyğun olaraq müəyyən edilir. Verilən reytinqlər müntəzəm qaydada qiymətləndirilir və yenidən baxılır.

*Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlərin müddətlərinin maliyyə aktivlərinin sinifləri üzrə təhlili*

| | *30 gündən az 2009-cu il* | *31 - 60 gün 2009-cu il* | *61 - 90 gün 2009-cu il* | *90 gündən çox 2009-cu il* | *Cəmi 2009-cu il* |
|---|---|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | | | | | |
| Korporativ kreditlər | 311 | 560 | 3,011 | 7,285 | 11,167 |
| Dövlət təşkilatları | - | - | - | - | - |
| Fiziki şəxslərə verilmiş kredit - mənzil təmiri | - | - | - | 897 | 897 |
| Fiziki şəxslərə verilmiş kredit - nəqliyyat vasitələri | - | - | - | - | - |
| Fiziki şəxslərə verilmiş kredit - istehlakçı kreditləri | - | - | - | 130 | 130 |
| Fiziki şəxslərə verilmiş kredit – sahibkarlar | 30 | - | - | 228 | 258 |
| Fiziki şəxslərə verilmiş kredit - ipoteka kreditləri | - | - | - | 4,094 | 4,094 |
| **Cəmi** | **341** | **560** | **3,011** | **12,634** | **16,546** |

Ümumi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş müştərilərə verilmiş kreditlərin cəmi məcmu məbləğindən 31 dekabr 2009-cu il tarixinə Bankın saxladığı girovun ədalətli dəyəri 24,388 AZN (2008-ci il: 7,312 AZN) olmuşdur.

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 22. Risklərin idarə edilməsi (davamı)

### Kredit riski (davamı)

| | *30 gündən az 2008-ci il* | *31 - 60 gün 2008-ci il* | *61 - 90 gün 2008-ci il* | *90 gündən çox 2008-ci il* | *Cəmi 2008-ci il* |
|---|---|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | | | | | |
| Korporativ kreditlər | - | - | 880 | 3,464 | 4,344 |
| Dövlət təşkilatları | - | - | - | - | - |
| Fiziki şəxslərə verilmiş kredit – mənzil təmiri | - | - | 10 | 116 | 126 |
| Fiziki şəxslərə verilmiş kredit - nəqliyyat vasitələri | - | - | - | 37 | 37 |
| Fiziki şəxslərə verilmiş kredit - istehlakçı kreditləri | - | - | - | 57 | 57 |
| Fiziki şəxslərə verilmiş kredit - sahibkarlar | - | - | - | 6 | 6 |
| Fiziki şəxslərə verilmiş kredit - ipoteka kreditləri | - | - | - | - | - |
| **Cəmi** | **-** | **-** | **890** | **3,680** | **4,570** |

*Dəyərsizləşmənin qiymətləndirilməsi*

Kreditlərin dəyərsizləşmə baxımından qiymətləndirilməsi zamanı nəzərə alınan əsas amillərə aşağıdakılar daxildir: əsas məbləğlərin və faizlərin ödənilməsinin 90 gündən artıq müddətdə gecikdirilib-gecikdirilməməsi, biznes tərəfdaşlarının pul vəsaitlərinin hərəkətlərində çətinliklər haqqında məlumatın olub-olmaması, kredit reytinqlərinin aşağı düşməsi və ya müqavilənin ilkin şərtlərinin pozulması. Bank dəyərsizləşmə baxımından iki səviyyədə qiymətləndirmə aparır: fərdi şəkildə qiymətləndirilən ehtiyatlar və məcmu şəkildə qiymətləndirilən ehtiyatlar.

*Fərdi şəkildə qiymətləndirilən ehtiyatlar*

Bank fərdi olaraq mühüm olan hər bir kredit və ya avans üzrə tələb olunan ehtiyatları fərdi şəkildə müəyyən edir. Ehtiyatların məbləği müəyyən edildiyi zaman aşağıdakı amillər nəzərə alınır: biznes tərəfdaşının biznes-planının dayanıqlığı, onun maliyyə çətinlikləri yarandığı təqdirdə fəaliyyət nəticələrini təkmilləşdirmək qabiliyyəti, proqnozlaşdırılan mədaxillər və müflislik halında gözlənilən dividend ödənişləri, maliyyə dəstəyinin cəlb edilməsi imkanı, girovun satış dəyəri və gözlənilən pul vəsaitləri hərəkətinin müddətləri. Gözlənilməyən hadisələr daha yaxın diqqət yetirilməsini tələb etdiyi hallar istisna olmaqla, dəyərsizləşmə zərərləri hər hesabat tarixində qiymətləndirilir.

*Məcmu şəkildə qiymətləndirilən ehtiyatlar*

Fərdi olaraq mühüm olmayan müştərilərə verilmiş kreditlərin (o cümlədən kredit kartları, ipoteka kreditləri və girovsuz istehlakçı kreditlərinin) və fərdi olaraq mühüm olan, lakin fərdi şəkildə dəyərsizləşməsinə dair obyektiv sübutlar olmayan kreditlərin dəyərsizləşməsi üçün ehtiyatlar Məcmu şəkildə qiymətləndirilir. Ehtiyatlar hər bir hesabat tarixinə qiymətləndirilir və bu zaman hər bir kredit portfeli ayrıca təhlil edilir.

Məcmu şəkildə qiymətləndirmə zamanı fərdi şəkildə dəyərsizləşməyə dair obyektiv sübut olmayanda da portfelin dəyərsizləşməsi müəyyən edilir. Dəyərsizləşmə zərərləri aşağıdakı məlumatları nəzərə almaqla müəyyən edilir: portfel üzrə tarixi zərərlər, cari iqtisadi şəraitlər, zərərin çəkilməsi ehtimal edilən andan həmin zərərin dəyərsizləşmə üzrə fərdi şəkildə qiymətləndirilən dəyərsizləşmə zərərini tələb etməsi müəyyən edildiyi anadək təxmini müddət və gözlənilən mədaxillər və aktiv dəyərsizləşdikdən sonra dəyərin bərpa edilməsi. Bölmə rəhbərliyi bir ilədək ola bilən bu müddətin müəyyən edilməsinə görə məsuliyyət daşıyır. Bundan sonra dəyərsizləşmə ehtiyatı kredit rəhbərliyi tərəfindən Bankın ümumi siyasətinə uyğunluq baxımından yoxlanılır.

Maliyyə zəmanətləri və akkreditivləri kreditlərlə eyni qaydada qiymətləndirilir və ehtiyat ayrılır.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 22. Risklərin idarə edilməsi (davamı)

**Kredit riski (davamı)**

Bankın pul aktivləri və öhdəlikləri üzrə coğrafi cəmləşmə belədir:

| | *2009-cu il* | | | | *2008-ci il (Yenidən hesablanmış)* | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | *Azərbaycan* | *İƏİT* | *MDB və digər ölkələr* | *Cəmi* | *Azərbaycan* | *İƏİT* | *MDB və digər ölkələr* | *Cəmi* |
| **Aktivlər:** | | | | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 100,814 | 3,429 | 525 | 104,768 | 87,441 | 25,292 | 637 | 113,370 |
| Maliyyə təşkilatlarından alınacaq məbləğlər | 4,184 | 4,451 | - | 8,635 | 11,160 | 808 | - | 11,968 |
| Müştərilərə verilmiş kreditlər | 317,277 | - | - | 317,277 | 362,958 | - | - | 362,958 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları | 310 | - | - | 310 | 185 | - | - | 185 |
| Assosiasiya olunmuş müəssisəyə investisiya | 1,360 | - | - | 1,360 | 1,464 | - | - | 1,464 |
| Digər maliyyə aktivləri | 3,029 | - | - | 3,029 | 10,293 | - | - | 10,293 |
| | **426,974** | **7,880** | **525** | **435,379** | **473,501** | **26,100** | **637** | **500,238** |
| **Öhdəliklər:** | | | | | | | | |
| Müştərilər qarşısında öhdəliklər | 177,293 | - | - | 177,293 | 188,768 | - | - | 188,768 |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | 239,316 | 9,089 | - | 248,405 | 289,000 | 9,613 | - | 298,613 |
| Digər maliyyə öhdəlikləri | 4,660 | - | - | 4,660 | 3,711 | - | - | 3,711 |
| | **421,269** | **9,089** | **-** | **430,358** | **481,479** | **9,613** | **-** | **491,092** |
| **Xalis aktivlər / (öhdəliklər)** | **5,705** | **(1,209)** | **525** | **5,021** | **(7,978)** | **16,487** | **637** | **9,146** |

**Likvidlik riski və maliyyələşdirmənin idarə edilməsi**

Likvidlik riski adi və ya fövqəladə şəraitdə ödəniş tarixində Bankın ödənişlə bağlı öhdəliklərini yerinə yetirə bilməməsi riskidir. Bu riski məhdudlaşdırmaq məqsədilə rəhbərlik mövcud minimal bank əmanətləri məbləğindən əlavə müxtəlif maliyyələşdirmə mənbələrini təmin etmişdir və bundan əlavə likvidliyi nəzərə almaqla aktivləri idarə edir və gələcək pul vəsaitləri hərəkətlərinin və likvidliyin gündəlik monitorinqini həyata keçirir. Bu proses gözlənilən pul vəsaitləri hərəkətlərinin qiymətləndirilməsini və tələb olunduqda əlavə maliyyələşdirmə əldə etmək üçün istifadə edilə bilən yüksək keyfiyyətli təminatın mövcudluğunu daxil edir.

Bank pul vəsaitlərinin hərəkəti gözlənilmədən kəsildiyi təqdirdə asanlıqla satıla bilən yüksək tələbatlı növbə-növ aktivlər portfelinə sahibdir. Bundan əlavə, Bank ARMB-da mütləq ehtiyat yerləşdirmiş və onun məbləği cəlb edilmiş müştəri əmanətlərinin səviyyəsindən asılıdır.

Likvidlik vəziyyəti Bank tərəfindən ARMB-nın təyin etdiyi müəyyən likvidlik əmsallarına əsaslanır. ARMB banklardan ani likvidlik əmsalını minimum 30% saxlamağı tələb edir. 31 dekabr 2009-cu və 2008-ci il tarixlərində bu əmsallar aşağıdakı kimi olmuşdur:

| | *31 dekabr 2009-cu il, %* | *31 dekabr 2008-ci il, %* |
|---|---|---|
| Ani likvidlik əmsalı (bir gün ərzində alınacaq və ya satılacaq aktivlər / tələb əsasında ödənilən öhdəliklər) | 73.5 | 64.5 |

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 22. Risklərin idarə edilməsi (davamı)

### Likvidlik riski və maliyyələşdirmənin idarə edilməsi (davamı)

*Maliyyə öhdəliklərinin ödəniş tarixinə qalmış müddətlər üzrə təhlili*

Aşağıdakı cədvəldə diskont edilməmiş müqavilə öhdəlikləri əsasında Bankın 31 dekabr 2009-cu və 2008-ci il tarixlərinə maliyyə öhdəlikləri ödəniş tarixinə qalmış müddətlər üzrə təqdim edilir. Tələb əsasında ödənilməli öhdəliklər ödəniş tələbinin mümkün olan ən tez tarixdə verilmiş hesab olunur. Bununla bərabər Bank gözləyir ki, müştərilərin çoxu Bank ödənişi aparmalı olduğu ən tez tarixdə ödənişi tələb etməyəcək və cədvəl keçmiş müddətlər üçün əmanətlərin tələb edilməsi haqqında məlumat əsasında Bankın hesabladığı gözlənilən pul vəsaitləri hərəkətlərini əks etdirmir.

| **Maliyyə öhdəlikləri**<br>31 dekabr 2009-cu ildə | *3 aydan az* | *3 – 12 ay* | *1 – 5 il* | *5 ildən çox* | *Cəmi* |
|---|---|---|---|---|---|
| Müştərilər qarşısında öhdəliklər | 94,142 | 16,994 | 67,995 | 7,732 | **186,863** |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | 60,782 | 146,294 | 43,536 | 12,575 | **263,187** |
| Digər maliyyə öhdəlikləri | 4,660 | - | - | - | **4,660** |
| **Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri** | **159,584** | **163,288** | **111,531** | **20,307** | **454,710** |

| **Maliyyə öhdəlikləri**<br>31 dekabr 2008-ci ildə | *3 aydan az* | *3 – 12 ay* | *1 – 5 il* | *5 ildən çox* | *Cəmi* |
|---|---|---|---|---|---|
| Müştərilər qarşısında öhdəliklər | 192,870 | 8,617 | 35,568 | - | 237,055 |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | 243,716 | 14,712 | 44,057 | - | 302,485 |
| Digər maliyyə öhdəlikləri | 3,711 | - | - | - | 3,711 |
| **Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri** | **440,297** | **23,329** | **79,625** | **-** | **543,251** |

Aşağıdakı cədvəldə Bankın maliyyə təəhhüdləri və potensial öhdəliklərinin müqavilə müddətləri göstərilir.

| | *3 aydan az* | *3 – 12 ay* | *1 – 5 il* | *5 ildən çox* | *Cəmi* |
|---|---|---|---|---|---|
| 2009-cu il | 20,678 | 23,116 | 3,306 | - | 47,100 |
| 2008-ci il | 32,408 | 18,835 | 23,938 | - | 75,181 |

Bank gözləyir ki, potensial öhdəliklərin və ya təəhhüdlərin hamısının öhdəlik müddəti tamamlanana qədər yerinə yetirilməsi tələb olunmayacaqdır.

Bankın öhdəlikləri yerinə yetirmək qabiliyyəti müəyyən müddət ərzində aktivlərin ekvivalent məbləğini reallaşdırmaq qabiliyyətindən asılıdır. Bir il müddətində aidiyyəti olan şəxslərin təşkilatlarından alınmış iri əmanətlərin cəmləşməsi mövcuddur. Bu vəsaitlərin iri məbləğdə çıxarılması Bankın əməliyyatlarına mənfi təsir göstərə bilər. Rəhbərlik hesab edir ki, yaxın gələcəkdə Bankın maliyyələşdirməsi həmin səviyyədə saxlanacaq və bu vəsaitləri çıxarmaq zərurəti yaranarsa, Bank əvvəlcədən bildiriş alacaq və lazımi ödənişləri aparmaq məqsədilə tez satılan aktivlərini sata biləcək.

Ödəmə müddətlərində fərqlərin təhlili cari hesablarda tarixi sabitliyi əks etdirmir. Onların ödənilməsi tarixən yuxarıdakı cədvəllərdə göstərilən müddətlərdən daha uzun müddətdə aparılırdı. Bu qalıqlar yuxarıdakı cədvəllərdə üç aydan az müddət ərzində ödənilməli məbləğlərə daxil edilmişdir.

### Bazar riski

Bazar riski maliyyə alətlərinin gələcək pul vəsaitləri hərəkətlərinin ədalətli dəyəri faiz dərəcəsi, valyuta məzənnələri və pay alətlərinin qiymətləri kimi bazar parametrlərində dəyişikliklər nəticəsində tərəddüd eləməsi riskidir. Bank bazar riskini həssaslıq təhlilindən istifadə etməklə idarə edir. Bankın iri bazar riski təmərküzləri yoxdur.

## 2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)

*(Min Azərbaycan manatı ilə)*

## 22. Risklərin idarə edilməsi (davamı)

*Faiz dərəcəsi riski*

Faiz dərəcəsi riski maliyyə aktivlərinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitləri hərəkətlərinin faiz dərəcəsinin artması/azalması nəticəsində ucuzlaşması/bahalaşması riskidir. Aşağıdakı cədvəldə Bankın əməliyyatlar haqqında hesabatının, digər dəyişkən göstəricilərin sabit qalması şərti ilə, faiz dərəcəsində mümkün dəyişikliklərə qarşı həssaslığı təqdim olunur.

Cari ilin mənfəətinin həssaslığı 31 dekabr 2009-cu il tarixinə dəyişən faiz dərəcəli qeyri-ticarət maliyyə aktivləri və maliyyə öhdəlikləri əsasında hesablanmış bir il üçün xalis faiz gəliri üzrə faiz dərəcəsində ehtimal edilən dəyişikliklərin təsiridir. Kapitalın həssaslığı gəlirlilik əyrisindən paralel kənarlaşmaların olması fərziyyəsi əsasında faiz dərəcələrində ehtimal edilən dəyişikliklərin 31 dekabr 2009-cu il tarixinə müəyyən dərəcəli satış üçün mövcud olan maliyyə aktivlərini yenidən qiymətləndirməklə hesablanır. Bununla bərabər, yerli bazarda satış üçün mövcud olan maliyyə aktivlərinin faiz dərəcəsi alış və ya satış zamanı həmin qiymətli kağızlar üzrə hesablanmış endirimə və ya əlavəyə (alınmış və ya satılmış qiymətli kağızların faktiki qiymətinə daxil edilir) əsaslandığı üçün, müəyyən dərəcəli satış üçün mövcud olan maliyyə aktivlərinə tətbiq edilən dərəcələrdə hər hansı dəyişikliklər kapitala heç bir təsir göstərmir.

**Valyuta riski**

Valyuta riski – maliyyə alətinin dəyərinin xarici valyuta dərəcələrində dəyişikliklərə görə tərəddüd etməsi riskidir. Bank özünün maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə qüvvədə olan xarici valyuta məzənnələrindəki dəyişikliklərin təsir göstərməsi riskinə məruzdur.

Aktivlərin və öhdəliklərin idarə edilməsi komitəsi valyuta riskini AZN devalvasiyasının və digər makroiqtisadi göstəricilərin qiymətləndirilmiş əsasında açıq valyuta vəziyyətini idarə etməklə idarə edir. Bu Banka valyuta dərəcələrinin milli valyutaya qarşı əhəmiyyətli dəyişməsindən zərərləri minimallaşdırmaq imkanını verir. ARMB-nin tələblərinə uyğunlaşmaq məqsədilə xəzinədarlıq Bankın açıq valyuta mövqeyinin gündəlik monitorinqini həyata keçirir.

31 dekabr 2009-cu ildə Bankın xarici valyuta riskinə məruz qalması aşağıdakı cədvəldə təqdim olunur:

| | *AZN* | *ABŞ dolları* | *Avro* | *Digər valyuta* | *Cəmi* |
|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 92,521 | 10,085 | 2,024 | 138 | 104,768 |
| Maliyyə təşkilatlarından alınacaq məbləğlər | 772 | 5,478 | 2,385 | - | 8,635 |
| Müştərilərə verilmiş kreditlər | 274,629 | 41,442 | 1,206 | - | 317,277 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları | 310 | - | - | - | 310 |
| Assosiasiya olunmuş müəssisəyə investisiya | 1,360 | - | - | - | 1,360 |
| Digər maliyyə aktivləri | 1,754 | 1,218 | 54 | 3 | 3,029 |
| **Cəmi maliyyə aktivləri** | **371,346** | **58,223** | **5,669** | **141** | **435,379** |
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Müştərilər qarşısında öhdəliklər | 129,099 | 42,075 | 6,034 | 85 | 177,293 |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | 227,324 | 16,417 | 4,663 | 1 | 248,405 |
| Digər maliyyə öhdəlikləri | 4,612 | 48 | - | - | 4,660 |
| **Cəmi maliyyə öhdəlikləri** | **361,035** | **58,540** | **10,697** | **86** | **430,358** |
| **Xalis maliyyə vəziyyəti** | **10,311** | **(317)** | **(5,028)** | **55** | **5,021** |

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 22. Risklərin idarə edilməsi (davamı)

**Valyuta riski( davamı)**

31 dekabr 2008-ci ildə Bankın xarici valyuta riskinə məruz qalması aşağıdakı cədvəldə təqdim olunur:

| | *AZN* | *ABŞ dolları* | *Avro* | *Digər valyuta* | *Cəmi* |
|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin | 78,252 | 29,437 | 4,383 | 1,298 | 113,370 |
| Maliyyə təşkilatlarından alınacaq məbləğlər | 8,743 | 3,225 | - | - | 11,968 |
| Müştərilərə verilmiş kreditlər | 132,531 | 230,134 | 293 | - | 362,958 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları | 185 | - | - | - | 185 |
| Assosiasiya olunmuş müəssisəyə investisiya | 1,464 | - | - | - | 1,464 |
| Digər maliyyə aktivləri | 9,534 | 741 | 18 | - | 10,293 |
| **Cəmi maliyyə aktivləri** | **230,709** | **263,537** | **4,694** | **1,298** | **500,238** |
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Müştərilər qarşısında öhdəliklər | 143,212 | 42,045 | 3,422 | 89 | 188,768 |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | 80,548 | 218,065 | - | - | 298,613 |
| Digər maliyyə öhdəlikləri | 2,718 | 556 | 437 | - | 3,711 |
| **Cəmi maliyyə öhdəlikləri** | **226,478** | **260,666** | **3,859** | **89** | **491,092** |
| **Xalis maliyyə vəziyyəti** | **4,231** | **2,871** | **835** | **1,209** | **9,146** |

*Valyuta riskinə həssaslıq*

Aşağıdakı cədvəl 31 dekabrda Bankın qeyri-ticarət monetar aktivləri və öhdəlikləri və proqnozlaşdırılmış pul vəsaitləri axınları üzrə əhəmiyyətli riskə məruz qaldığı valyutalar göstərilir. Təhlil, bütün digər göstəricilərin sabit qalması şərti ilə, valyuta dərəcəsinin AZN-ə qarşı məntiqi dərəcədə mümkün olan hərəkətinin maliyyə nəticələri haqqında hesabata təsirini hesablayır. Kapitala təsir maliyyə nəticələri haqqında hesabata təsirdən fərqlənmir. Cədvəldə mənfi məbləğ maliyyə nəticələri haqqında hesabatda və ya kapitalda potensial xalis azalmanı, müsbət məbləğ isə xalis potensial artmanı əks etdirir.

31 dekabr 2009-cu il və 2008-ci il tarixlərində xalis aktivlərin dəyərləri əsasında vergidən əvvəl mənfəətə təsir:

| | **31 dekabr 2009-cu il** | | **31 dekabr 2008-ci il (Yenidən hesablanmış)** | |
|---|---|---|---|---|
| | *AZN/USD +15.6%* | *AZN/USD -15.6%* | *AZN/USD +4%* | *AZN/USD -4%* |
| Vergidən əvvəl mənfəətə təsir | 486 | (486) | 98 | (98) |

| | **31 Dekabr 2009-cu il** | | **31 Dekabr 2008-ci il (Yenidən hesablanmış)** | |
|---|---|---|---|---|
| | *AZN/EUR +12.4%* | *AZN/EUR -12.4%* | *AZN/EUR +18%* | *AZN/EUR -18%* |
| Vergidən əvvəl mənfəətə təsir | (0.5) | 0.5 | (33) | 33 |

**Əməliyyat riski**

Əməliyyat riski – sistemlərin nasazlığı, işçilərin səhvi, saxtakarlığı və ya xarici hadisələr nəticəsində yaranan riskdir. Nəzarət sistemi işləməyəndə əməliyyat riskləri nüfuza xələl vura, hüquqi nəticələrə və ya maliyyə zərərlərinə gətirib çıxara bilər. Bank bütün əməliyyat risklərinin aradan götürülməsini güman edə bilməz, lakin Bank bu riskləri nəzarət sistemi və potensial risklərin izlənməsi və onlarla bağlı tədbirlərin görülməsi yolu ilə idarə edə bilər. Nəzarət sisteminə vəzifələrin səmərəli bölünməsi, daxil olma, təsdiq etmə və tutuşdurma prosedurları, heyətin təlimləndirilməsi və qiymətləndirilməsi prosesləri, eləcə də daxili auditdən istifadə daxildir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 23. Maliyyə alətlərinin ədalətli dəyəri

Maliyyə alətlərinin ədalətli dəyərini qiymətləndirmə mexanizmləri ilə müəyyən etmək və açıqlamaq üçün Bank aşağıdakı iyerarxiyadan istifadə edir:

- Səviyyə 1: oxşar aktiv və öhdəliklər üçün fəal bazarda müəyyən edilmiş (düzəliş edilməmiş) qiymətlər;
- Səviyyə 2: uçota alınmış ədalətli dəyərə birbaşa və ya dolayısı ilə əhəmiyyətli təsir göstərən, bazarda müşahidə edilməyən ilkin məlumatlardan istifadə edən digər mexanizmlər və
- Səviyyə 3: uçota alınmış ədalətli dəyərə əhəmiyyətli təsir göstərən, müşahidə edilən bazar məlumatlarına əsaslanan ilkin məlumatlardan istifadə edən mexanizmlər.

Aşağıdakı cədvəldə ədalətli dəyərlə uçota alınmış maliyyə alətlərinin ədalətli dəyər iyerarxiyasının səviyyələr üzrə təhlili verilir:

| *31 dekabr 2009-cu il* | *Səviyyə 1* | *Səviyyə 2* | *Səviyyə 3* | *Cəmi* |
|---|---|---|---|---|
| ***Maliyyə aktivləri*** | | | | |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları | - | 310 | - | 310 |
| | **-** | **310** | **-** | **310** |

*Ədalətli dəyərlə qeydə alınmış maliyyə alətləri*

Aşağıda qiymətləndirmə mexanizmlərindən istifadə etməklə ədalətli dəyərlə qeydə alınmış maliyyə alətlərinin ədalətli dəyərinin müəyyən edilməsi təsvir olunur. Buraya alətləri qiymətləndirərkən bazar iştirakçılarının edəcəyi fərziyyələrin Bank tərəfindən qiymətləndirilməsi daxildir.

*Sabit dərəcəli maliyyə alətləri*

Amortizasiya olunmuş dəyərlə uçota alınan müəyyən dərəcəli maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri ilk dəfə tanındığı zaman bazar faiz dərəcələrinin analoji maliyyə alətləri üçün təklif edilmiş cari bazar dərəcələri ilə müqayisə edilməsi yolu ilə qiymətləndirilir. Müəyyən faizli depozitlərin qiymətləndirilmiş ədalətli dəyəri analoji kredit riski və ödəmə müddəti olan borclar üçün pul bazarında qüvvədə olan diskont edilmiş pul vəsaitlərinin hərəkətləri əsasında hesablanır. Birjada buraxılmış borc alətlərinin ədalətli dəyəri elan edilmiş bazar qiymətlərinə əsaslanır. Buraxılmış istiqrazlar üçün bazar qiymətləri mövcud olmayanda ödəniş tarixinədək qalan müddəti nəzərə almaqla cari faiz dərəcəsi ilə gəlirlilik əyrisi əsasında diskont edilmiş pul vəsaitlərinin hərəkətləri modeli istifadə edilir.

*Ədalətli dəyərlə əks etdirilməmiş maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri*

Aşağıda Bankın maliyyə vəziyyəti haqqında hesabatında ədalətli dəyərlə əks etdirilməmiş maliyyə alətlərinin balans dəyərləri və ədalətli dəyərləri siniflər üzrə müqayisə edilir. Cədvəldə qeyri-maliyyə aktivlərin və öhdəliklərin ədalətli dəyərləri təqdim edilmir:

| | *Balans dəyəri 31 dekabr 2009* | *Ədalətli dəyər 31 dekabr 2009* | *Tanınmamış gəlir/(zərər) 31 dekabr 2009* | *Balans dəyəri 31 dekabr 2008 (Yenidən hesablanmış)* | *Ədalətli dəyər 31 dekabr 2008 (Yenidən hesablanmış)* | *Tanınmamı gəlir/(zərər 31 dekabr 2008* |
|---|---|---|---|---|---|---|
| ***Maliyyə aktivləri*** | | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 104,768 | 104,768 | - | 113,370 | 113,370 | |
| Maliyyə təşkilatlarından alınacaq məbləğlər | 8,635 | 8,635 | - | 11, 968 | 11, 968 | |
| Müştərilərə verilmiş kreditlər | 317,277 | 317,277 | - | 362,958 | 362,958 | |
| Assosiasiya olunmuş müəssisəyə investisiya | 310 | 310 | - | 185 | 185 | |
| ***Maliyyə öhdəlikləri*** | | | | | | |
| Müştərilər qarşısında öhdəliklər | 177,293 | 177,293 | - | 188,768 | 188,768 | |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | 248,405 | 248,405 | - | 298,613 | 298,613 | |
| **Reallaşdırılmamış ədalətli dəyərdə cəmi tanınmamış dəyişiklik** | | | - | | | |

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 23. Maliyyə alətlərinin ədalətli dəyəri (davamı)

*Ədalətli dəyərləri balans dəyərlərinə təxmini bərabər olan aktivlər*

Tez satıla bilən və ödəmə müddəti qısa (üç aydan az) olan maliyyə aktivləri və öhdəlikləri ilə bağlı olaraq ehtimal edilir ki, onların balans dəyərləri təxminən ədalətli dəyərlərinə bərabərdir. Bu ehtimal müddətli depozitlər, ödəmə müddəti müəyyən edilməmiş əmanət hesabları və dəyişən dərəcəli maliyyə alətlərinə də tətbiq edilir.

*Müəyyən və dəyişən dərəcəli maliyyə alətləri*

Birjada alınıb-satılan borc alətlərinin ədalətli dəyəri elan edilmiş bazar qiymətlərinə əsaslanır. Birjada alınıb-satılmayan borc alətlərinin ədalətli dəyəri oxşar şərtlər, kredit riski və qalan müddəti olan borc aləti üçün mövcud olan cari dərəcələri istifadə etməklə gələcək pul vəsaitlərinin hərəkətini diskont edərək qiymətləndirilir.

## 24. Aktivlərin və öhdəliklərin ödəmə müddətlərinin təhlili

Aşağıdakı cədvəldə aktivlər və öhdəliklər onların qaytarılması və ya ödənilməsi gözlənilən müddətlər üzrə təhlil edilir. Bankın müqavilə ilə nəzərdə tutulmuş diskont edilməmiş ödəmə öhdəlikləri "Risklərin idarə edilməsi" adlı 22-ci Qeyddə göstərilir.

| | *2009-cu il* | | | *2008-ci il (Yenidən hesablanmış)* | | |
|---|---|---|---|---|---|---|
| | *1 il ərzində* | *1 ildən çox* | *Cəmi* | *1 il ərzində* | *1 ildən çox* | *Cəmi* |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 104,768 | - | 104,768 | 113,370 | - | 113,370 |
| Maliyyə təşkilatlarından alınacaq məbləğlər | 4,184 | 4,451 | 8,635 | 11,160 | 808 | 11,968 |
| Müştərilərə verilmiş kreditlər | 263,868 | 53,409 | 317,277 | 311,730 | 51,228 | 362,958 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları | 310 | - | 310 | 185 | - | 185 |
| Assosiasiya olunmuş müəssisəyə investisiya | - | 1,360 | 1,360 | - | 1,464 | 1,464 |
| Əmlak və avadanlıqlar | - | 76,503 | 76,503 | - | 78,721 | 78,721 |
| Qeyri-maddi aktivlər | - | 2,841 | 2,841 | - | 1,661 | 1,661 |
| Digər aktivlər | 4,846 | - | 4,846 | 15,200 | - | 15,200 |
| **Cəmi** | **377,976** | **138,564** | **516,540** | **451,645** | **133,882** | **585,527** |
| Müştərilər qarşısında öhdəliklər | 107,165 | 70,128 | 177,293 | 156,693 | 32,075 | 188,768 |
| Maliyyə təşkilatları və dövlət orqanları qarşısında öhdəliklər | 204,868 | 43,537 | 248,405 | 257,614 | 40,999 | 298,613 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 7,846 | - | 7,846 | 8,599 | - | 8,599 |
| Ehtiyatlar | 552 | - | 552 | | - | |
| Digər öhdəliklər | 5,177 | - | 5,177 | 5,630 | - | 5,630 |
| **Cəmi** | **325,608** | **113,665** | **439,273** | **428,536** | **73,074** | **501,610** |
| **Xalis** | **52,368** | **24,899** | **77,267** | **23,109** | **60,808** | **83,917** |

Beynəlxalq maliyyə təşkilatlarının təsis etdiyi proqramlar istisna olmaqla, Azərbaycanda ümumiyyətlə uzunmüddətli kreditlər yoxdur. Bununla bərabər, Azərbaycan bazarında qısamüddətli kreditlərin çoxu ödəmə tarixində kreditin yeniləşməsi gümanı ilə verilir. Bu səbəbdən aktivlərin ödəmə müddəti əslində yuxarıda göstərilmiş təhlildən fərqli ola bilər. Bundan əlavə, ödəmə müddətləri üzrə təhlil cari hesabların tarixi sabitliyini əks etdirmir. Tarixən onların satılmasında yuxarıdakı cədvəldə göstərilən müddətdən çox vaxt tələb olunurdu. Bu qalıqlar yuxarıdakı cədvəllərdə tələb əsasında ödənilən məbləğlərə daxil edilir.

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 25. Əlaqəli tərəflərə dair açıqlamalar

24 saylı "Əlaqəli tərəflərə dair açıqmalar" MHBS-na uyğun olaraq tərəflər bu halda aidiyyəti hesab edilir ki, bir tərəf digər tərəfə nəzarət etmək və ya maliyyə və ya əməliyyat qərarlarının qəbul edilməsində mühüm təsir göstərmək iqtidarındadır. Hər bir potensial aidiyyəti tərəf münasibətlərini nəzərdən keçirdikdə, diqqət bu münasibətlərin yalnız hüquqi formasına deyil, mahiyyətinə də yönəldilməlidir.

Əlaqəli tərəflər əlaqəli olmayan tərəflərin həyata keçirə bilmədiyi əməliyyatlarda iştirak edə bilər və əlaqəli tərəflər arasında əməliyyatlar aidiyyəti olmayan şəxslər arasında əməliyyatlarla eyni şərtlər, müddət və məbləğdə aparılmır.

Əlaqəli tərəflərə əməliyyatların həcmləri, ilin sonunda qalıq balansları və il üzrə əlaqəli xərc və gəlir aşağıda göstərilir:

| | *2009-cu il* | | | *2008-ci il (Yenidən hesablanmış)* | | |
|---|---|---|---|---|---|---|
| | *Səhmdarlar* | *Ümumi nəzarət altında olan müəssisələr* | *Əsas idarə heyəti* | *Səhmdarlar* | *Ümumi nəzarət altında olan müəssisələr* | *Əsas idarə heyəti* |
| 1 yanvara kredit qalığı, ümumi | - | - | 635 | - | - | 715 |
| İl ərzində verilmiş kreditlər | - | - | 168 | - | - | - |
| İl ərzində kredit ödəmələri | - | - | (641) | - | - | (80) |
| Digər hərəkət | - | - | 2 | - | - | - |
| 31 dekabrda kredit qalığı, ümumi | - | - | 164 | - | - | 635 |
| Çıxılsın: 31 dekabra olan dəyərsizləşmə ehtiyatı | - | - | (8) | - | - | (12) |
| 31 dekabrda kredit qalığı, xalis | - | - | 156 | - | - | 623 |
| Kreditlər üzrə faiz gəliri | - | - | 12 | - | - | 121 |
| Kreditlər üzrə dəyərsizləşmə xərci | - | - | (9) | - | - | (12) |
| 1 yanvara depozitlər | 1,550 | - | - | 6,866 | - | - |
| İl ərzində alınmış depozitlər | - | 7,479 | 1 | - | - | - |
| İl ərzində ödənilmiş depozitlər | | (1,313) | - | (5,316) | - | - |
| Digər hərəkət | (1,550) | - | - | - | - | - |
| 31 dekabra depozitlər | - | 6,166 | 1 | 1,550 | - | - |
| 31 dekabrda cari hesablar | - | 64 | - | - | - | - |
| Depozitlər üzrə faiz xərci | - | (785) | (27) | (72) | - | - |
| Haqq və komissiya gəliri | - | 9 | - | - | - | - |
| Haqq və komissiya xərci | - | - | - | (125) | - | - |

| | *31 dekabr 2009-cu ildə başa çatmış il* | *31 dekabr 2008-ci ildə başa çatmış il* |
|---|---|---|
| Əmək haqqı və digər ödənişlər | 360 | 174 |
| Sosial sığorta məsrəfləri | 79 | 38 |
| **Əsas rəhbərlik heyətinə cəmi ödənişlər** | **439** | **212** |

**2009-cu ilin maliyyə hesabatlarına qeydlər (davamı)**

*(Min Azərbaycan manatı ilə)*

## 26. Kapitalın adekvatlığı

Bank fəaliyyətinə məxsus olan risklərdən qorunmaq məqsədilə kapital bazasını fəal şəkildə idarə edir. Bankın kapitalının adekvatlığı, digər metodlarla yanaşı, ARMB-nın Banka nəzarət etdiyi zaman qəbul etdiyi normativlərdən istifadə etməklə nəzarət edilir.

Bank tərəfindən kapitalın idarə edilməsi siyasətinin əsas məqsədi – Bankda kapitalla bağlı müəyyən olunmuş xarici tələblərin yerinə yetirilməsinin, habelə fəaliyyətin həyata keçirilməsi və səhmdar dəyərinin maksimal artırılması məqsədilə yüksək kredit reytinqinin və sağlam kapital nisbətlərinin dəstəklənməsinin təmin edilməsidir.

Bank iqtisadi şərait və fəaliyyətinin risk xüsusiyyətləri dəyişdikcə kapital strukturunu idarə edir və müvafiq düzəlişlər aparır. Kapitalın strukturunu saxlamaq və ya bu strukturda düzəlişlər etmək məqsədilə Bank səhmdarlara dividend ödənişləri məbləğində düzəlişlər edə, kapitalı səhmdarlara qaytara və ya kapital qiymətli kağızlarını buraxa bilər. Keçən illərlə müqayisədə məqsəd, siyasət və proseslərdə ciddi dəyişikliklər baş verməmişdir.

*ARMB kapital adekvatlığı əmsalı*

ARMB banklardan kapitalın minimal adekvatlıq əmsalını risk dərəcəsi üzrə ölçülmüş aktivlərin 12%-i dərəcəsində saxlamağı tələb edir. 31 dekabr 2009-cu və 2008-ci il tarixlərinə Bankın kapitalın adekvatlıq əmsalı aşağıdakı kimi olmuşdur:

| | *2009-cu il* | *2008-ci il (Yenidən hesablanmış)* |
|---|---|---|
| 1 dərəcəli kapital | 45,021 | 54,813 |
| 2 dərəcəli kapital | 3,762 | 18,959 |
| Çıxılsın: Kapitaldan tutulmalar | (310) | (1,862) |
| **Cəmi nizamlayıcı kapital** | **48,473** | **71,910** |
| **Risk dərəcəsi üzrə ölçülmüş aktivlər** | **320,234** | **376,045** |
| **Kapital adekvatlığı əmsalı** | **15.14%** | **19.12%** |

## 27. Hesabat tarixindən sonrakı hadisələr

2010-cu ilin mart ayında Bank Maliyyə Nazirliyindən "Azəryolservis" SC-nin maliyyələşdirilməsi üçün 82 milyon AZN məbləğində illik 1.75% dərəcəsi ilə müddəti 2010-cu ilin sentyabr ayında başa çatan qısamüddətli borc vəsaiti almışdır. Bu vəsait sonra 2010-cu ilin mart ayında ildə 2.75% dərəcəsi ilə altı aylıq müddətə "Azəryolservis" SC-nə verilmişdir.

5 aprel 2010-cu il tarixində Bankın səhmdarları bir səhmin nominal dəyəri 10 AZN olan əlavə 600,000 adi səhmin buraxılmasını elan etmişlər. Təklifin nəticəsində Bankın səhmdar kapitalının bu emissiyadan sonra 30 milyon AZN-ə çatması gözlənilir. Hazırkı maliyyə hesabatları buraxıldığı tarixə Pasha Holding Ltd. həmin aktivlər üzrə imtiyazlı alış hüququna malikdir və yeni buraxılmış səhmlərin 99.90%-nə abunə yazılmışdər. Qalan 0.10%-lik hissəyə fiziki şəxslər yazılmışdır.

Bankın səhmdarları 5 aprel 2010-cu il tarixində 2010-cu və 2011-ci illər üçün mənfəət vergisindən azad edilmə hüququndan istifadə etmək məqsədilə mənfəətin (əgər əldə edilərsə) kapitallaşdırılmaya yönəlməsini təsdiq etmişlər.